Xalqın qəzeti!

# Xalq qəzeti

№ 72 (30766) 13 aprel 2025-ci il, bazar

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

**Azərbaycanın şərti: Erməni manipulyasiyası və Türkiyə amili**



Səhifə ⇨ 3

## Qlobal dünya və Azərbaycan: Aktorluğun bəşəri fayda məqsədi

*Prezident qətiyyəti, sülh vasitəçiliyi və ədalət naminə mübarizə*



**Azərbaycan artıq qlobal səviyyəli məsələlərin həllində fəal iştirakçıdır. Bu il aprelin 9-da ADA Universitetində Prezident İlham Əliyevin iştirakı ilə keçirilmiş "Yeni dünya nizamına doğru" mövzusundakı beynəlxalq forumda dövlətimizin başçısına ünvanlanmış sualların areal genişliyi də bunu söyləməyə əsas verir. Toplantı iştirakçılarının dünyanın böyük beyin mərkəzlərini təmsil etmələri də həmçinin. Nəzərə alaq ki, həmin mərkəzlər qlobal siyasətin formalaşmasında, kifayət qədər, aktiv rol oynayırlar və onların nümayəndələrinin Prezident Əliyevin fikir və düşüncələri ilə maraqlanmaları adi məsələ sayıla bilməz.**

Bəli, Azərbaycan regional aktor, Cənubi Qafqazın söz sahibi kimi dünya miqyasında qəbul edilir, ölkəmizlə hesablaşılır. Əslində, dövlətimizin başçısının sözügedən forumda beynəlxalq ictimaiyyəti düşündürən ayrı-ayrı məsələlərlə bağlı mövqeyi və fikirlərini ölkəmizin tutduğu prinsipial kursun izahı üzərində cəmləşdirməsi, Azərbaycanın beynəlxalq aləmdə nə üçün qəbul edildiyinə və hansı səbəbdən onunla hesablaşıldığına dolğun cavabdır.

Prezident İlham Əliyev real siyasi paradiqmaları açıqlayır, onun bildirdikləri qlobal siyasətin soyuq təbiətinin tam açıqlığı ilə vurğulanmasıdır. Məsələn, dövlətimizin başçısının Rusiya–Ukrayna münaribəsinə yanaşmasını götürək. O yanaşma ki, ona dünyanın müxtəlif ölkələrinin sosial şəbəkə seqmenti tərəfindən ciddi önəm verildi. Prezident Əliyevin bildirdikləri ətraflı təhlil olundu. Dövlətimizin başçısının sözügedən mövzuda vurğuladığı başlıca məqam isə bu idi: Hazırkı durumda Rusiya ilə Ukrayna arasında sülh mümkün görünmür, atəşkəs mühiti barış demək deyil. Həm də ona görə barış demək deyil ki, Azərbaycan özü bu təcrübəni yaşayıb. 1994-cü ildə Ermənistanla əldə olunmuş atəşkəs mühiti ədalət gətirmədi. Ədalət atəşkəsdən 29 il sonra ərazi bütövlüyümüzün və suverenliyimizin tam bərpası ilə bərqərar oldu. İndi isə növbə ədalətli sülhündür.

*(ardı 4-cü səhifədə)*

## Prezident İlham Əliyevin Avropa Şurasının Baş katibi ilə görüşü

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin aprelin 12-də Antalyada Avropa Şurasının Baş katibi Alen Berse ilə görüşü olub.**



Söhbət zamanı Alen Bersenin COP29 çərçivəsində ölkəmizə səfəri və onun Azərbaycan Prezidenti ilə görüşü məmnunluqla xatırlandı. COP29 zamanı qlobal iqlim gündəliyi ilə bağlı vacib qərarların qəbul olunduğu bir daha vurğulandı.

Görüşdə Azərbaycan ilə Avropa Şurasının icraedici strukturları arasında əlaqələrin perspektivlərinə dair fikir mübadiləsi aparıldı.

***AZƏRTAC***

## "Odlar yurdu"nun sakit təmkini və Avropanın hay-küylü qərəzi

**Avropa Şurası Parlament Assambleyasının (AŞPA) prezidenti Teodoros Rusopulosun "Alpha News" qəzetinə verdiyi müsahibədə Azərbaycan əleyhinə səsləndirdiyi iddialar nəinki qəbuledilməz, hətta Qərb dövlətlərinin uzun müddət müşahidə etdiyimiz ikili standart siyasətinin açıq nümunəsidir.**

Azərbaycanın Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadənin verdiyi sərt cavab təkcə diplomatik reaksiya deyil, həm də illərdir yığılıb qalan ədalətsizliyə, qərəzli yanaşmaya və siyasi ifratçılığa qarşı prinsipial mövqe kimi dəyərləndirilməlidir.



*(ardı 3-cü səhifədə)*

## Azərbaycan–Gürcüstan dostluğu Şərqdən Qərbə əməkdaşlıq körpüsüdür



**Azərbaycanın qonşu Gürcüstanla münasibətləri tarixən xüsusi əhəmiyyət kəsb edib. Bakı həmişə Tbilisini özünə strateji tərəfdaş, dost ölkə sayıb. Bu iki xalq arasında əsrlər boyu dostluq və qardaşlıq münasibətləri olub. Bu ənənə hazırda da uğurla davam edir. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev də, hazırkı Prezident İlham Əliyev də bu əlaqələrə həmişə böyük töhfələr veriblər. Dövlətimizin başçısı "Yeni dünya nizamına doğru" mövzusunda beynəlxalq forumda da bir daha bildirdi ki, Gürcüstan strateji müttəfiqimizdir.**

Bu gün istər Gürcüstan, istərsə də Azərbaycan yeni iqtisadi-siyasi münasibətlər dövründə, müstəqillik şəraitində xeyli inkişaf ediblər. Bununla yanaşı, hər iki ölkə qarşısında dayanan çağırışlar da, problemlər də eyni olub – ərazi bütövlüyünün pozulması, aqressiv separatizm. Hələ ki, Cənubi Qafqazda sülh tam bərqərar olmadığından Bakı ilə Tbilisi bir-birinə dəstək baxımından daha sıx əlaqədədirlər. Eyni zamanda, hər iki tərəf bu qənaətdədir ki, artıq Cənubi Qafqazda sülhün bərqərar olmasının vaxtı çatıb. Bütün bunlar həm də regionun üçüncü ölkəsi, təcavüzkar Ermənənistana ciddi bir mesajdır.

*(ardı 4-cü səhifədə)*

## Ermənistan sülh sazişini də "minalamağa" çalışır



Səhifə ⇨ 5

## Azərbaycan–Türkiyə diplomatik həmrəyliyi strateji müttəfiqlikdən güc alır




Səhifə ⇨ 8

## ABŞ Ukraynada sülh cəhdlərini davam etdirir

Səhifə ⇨ 11



# Prezident İlham Əliyevin Türkiyəyə işgüzar səfəri başa çatıb



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkiyəyə işgüzar səfəri aprelin 12-də başa çatıb.**

Antalya Beynəlxalq Hava Limanında Prezident İlham Əliyevi və birinci xanım Mehriban Əliyevanı Antalya şəhərinin valisi Hulusi Şahin və digər rəsmi şəxslər yola saldılar.

*AZƏRTAC*

# Birinci xanım Mehriban Əliyeva Antalya Diplomatiya Forumunda






**Aprelin 12-də Türkiyənin Antalya şəhərində keçirilən Antalya Diplomatiya Forumu çərçivəsində "Parçalanan dünyada gələcəyin qurulması: Təhsilin transformasiya gücü" adlı panel iclas təşkil olunub.**

Azərbaycan Respublikasının birinci xanımı Mehriban Əliyeva və qızı Leyla Əliyeva tədbirdə iştirak ediblər.

Tədbirdən əvvəl Afrika Mədəniyyət Evinin stendi ilə tanışlıq olub. Türkiyə Respublikasının birinci xanımı Əminə Ərdoğanın təşəbbüsü ilə 2016-cı ildə qurulan Afrika Mədəniyyət Evinin fəaliyyətinin məqsədi afrikalı qadınların əl əməyini təbliğ etmək, onların fəaliyyətini iqtisadi dəyərə çevirmək və mədəni həmrəyliyi gücləndirməkdir.

Türkiyə Maarif Vəqfinin dəstəyi ilə keçirilən tədbir bu qurumun fəaliyyətindən bəhs edən videoçarxın nümayişi ilə başlayıb.

İclasda qurumun dünyada həyata keçirdiyi işlərdən bəhs edildi. Bildirildi ki, dünyanın 55 ölkəsində fəaliyyət göstərən Vəqfin məktəblərində 70 minə yaxın şagird təhsil alır.

Panel iclasda hazırkı dövrdə təhsilin inkişafının vacibliyindən geniş danışıldı.

Türkiyənin birinci xanımı Əminə Ərdoğan çıxış edərək müharibələrin çoxaldığı bir dövrdə təhsilin nə qədər əhəmiyyətli olduğuna diqqət çəkdi. Bildirdi ki, təhsil bu gün sosial iştirak və davamlı inkişaf üçün hər zaman olduğundan daha çox vacibdir.

Sonra Türkiyə Maarif Vəqfinin Kot-d'İvuar Respublikasındakı məktəbinin şagirdləri müxtəlif dillərdə mahnılar oxudular.

Panel iclas müzakirələrlə davam etdirildi.

*XQ*

# "Cənubi Qafqazda regional əməkdaşlığa dair çağırışlar və fürsətlər" müzakirəsi



**IV Antalya Diplomatiya Forumunun ikinci günündə əsas gündəm maddələrindən biri "Cənubi Qafqazda regional əməkdaşlığa dair çağırışlar və fürsətlər" mövzusunun müzakirəsi olub.**

Bununla bağlı keçirilən panel iclasda Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov, eləcə də Gürcüstan və Ermənistanın XİN başçıları Maka Boçorişvili ilə Ararat Mirzoyan iştirak ediblər.

Tədbirdə çıxış edən Ceyhun Bayramov İkinci Qarabağ müharibəsindən sonra Azərbaycan və Ermənistanın Cənubi Qafqazda tarixi bir hadisə olaraq normallaşma prosesinə başladığını vurğulayıb. O qeyd edib ki, 44 günlük müharibədən sonra Azərbaycan Ermənistanla sülhün əldə olunması və Sülh sazişinin imzalanması məsələsini gündəmə gətirib. 2022-ci ilin oktyabr ayında başlayan bu proses qarşılıqlı görüşlərlə davam edib. Bu müddət ərzində bir çox görüşlər keçirilib. Ötən ay Sülh sazişinin mətninin hazırlanma prosesi başa çatıb. Növbəti mərhələdə sənədin icrasına başlanılacaq və prosesin yekunlaşacağı gözlənilir.

Azərbaycanın xarici işlər naziri onu da qeyd edib ki, bu proseslə biz uzun illər fəaliyyəti dayandırılmış bir məsələnin yenidən işə salınmasına başlayırıq. Ermənistan da bu gerçəyi qəbul edir. Bununla bağlı Ermənistan konstitusiyasında lazımi dəyişikliklər ediləcək ki, bu dəyişikliklər torpaqlarla bağlı haqq iddiaları məsələsinin həllinə gətirib çıxaracaq. C.Bayramov əlavə edib: "Artıq Azərbaycan və Ermənistan arasında Sülh sazişinin imzalanması ilə bağlı başqa maneələrlə qarşılaşacağımızı düşünmürük. Azərbaycanla Ermənistan sülh baxımından çox uğurlu bir dövrü geridə qoyub".

Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan tarixi düşüncələrə bağlı qalmağın doğru olmadığını vurğulayıb və xalqların gələcəyi naminə önümüzə baxmağın vacibliyini qeyd edib. O, məsələyə hər iki tərəfə fayda verəcək qurucu bir baxışla yanaşmağın düzgün olduğunu düşündüyünü bildirib: "İndi biz fikrimizi bu günə və gələcəyə cəmləşdirməliyik. "Kim daha çox insan öldürdü" kimi keçmişə bağlı iddiaları davam etdirmək yalnız yeni mübahisələrə səbəb olacaq. Biz, ilk növbədə, bölgədə sülhü inşa etməliyik".

Mirzoyan uzun danışıqlardan sonra sülh sazişinin mətni ilə bağlı ortaq fikrə gəldiklərini, artıq sənədin imzalanma tarixi və yerini müəyyən etməli olduqlarını bildirib. O, mətndə konstitusiyadakı suverenlik aktına istinad edilən maddə ilə bağlı dəyişiklik məsələsinin mövcudluğunu qeyd edərək, bunun konstitusiya məhkəməsinin qərarına bağlı olduğunu vurğulayıb. "Teorik olaraq, ziddiyyətin aradan qaldırılacağına inanıram. Bu, ölkələrimiz üçün bir başlanğıc nöqtəsidir. Əlbəttə sülh prosesi ilə bağlı məsələlər davam edəcək və biz bununla bağlı danışmağa, əməkdaşlıq imkanları yaratmağa davam edəcəyik. Biz bununla dünyaya bir mesaj vermək istəyirik: "keçmişi qazımağın, ona bağlı qalmağın və buna vaxt sərf etməyin mənası yoxdur". Xalqlarımızın ortaq gələcəyi və rifahı üçün çalışmalıyıq. Bunun üçün bütün lazımi imkanlar qarşımızdadır. Biz birlikdə gələcək mərhələyə keçməyə hazırıq və bu, özü ilə sülh içində əməkdaşlıq imkanlarını gətirəcək", - deyə Mirzoyan əlavə edib.

Gürcüstanın xarici işlər naziri Maka Boçorişvili isə bildirib: "Təbii ki, sülh içində yaşayan bir Cənubi Qafqaz hər birimizin öncəliyidir. Bölgəmizin çox ciddi bir potensiala sahib olduğunun da fərqindəyik. Bu potensialdan tam şəkildə istifadə etmək istəyiriksə, o zaman bölgəyə davamlı bir sülh gətirməliyik. Elə bu səbəbdən də biz hər şeydən əvvəl iki ölkə arasında sülhü böyük məmnuniyyətlə qarşılayırıq və Azərbaycan ilə Ermənistan arasındakı Sülh sazişinin çox böyük bir uğur olacağına inanırıq".

*XQ*

# Türk Dövlətləri Təşkilatının əməkdaşlıq modeli ADF 2025-də



**Aprelin 12-də IV Antalya Diplomatiya Forumu çərçivəsində "Türk Dövlətləri Təşkilatı: Özünəməxsus bir əməkdaşlıq modeli" mövzusunda panel iclas keçirilib.**

Tədbirdə Azərbaycan Prezidentinin xüsusi tapşırıqlar üzrə nümayəndəsi Elçin Əmirbəyov, Türk Dövlətləri Təşkilatının (TDT) Baş katibi Kubanıçbek Ömüralıyev, TDT-nin Ağsaqqallar Şurasının sədri Binəli Yıldırım, Qazaxıstanın nəqliyyat naziri Marat Karabayev, Özbəkistan Ali Məclis Senatı sədrinin birinci müavini Sodiq Safoyev, Qırğızıstan Prezidentinin xüsusi nümayəndəsi, bu ölkənin xarici işlər nazirinin müavini Asein İsayev iştirak ediblər.

Kapadokya Universitetinin rektoru Hasan Ali Karasarın moderatorluğu ilə keçirilən paneldə Türk Dövlətləri Təşkilatı ölkələri arasındakı əməkdaşlığın ticarət, enerji, maliyyə, turizm, təhsil, mədəniyyət kimi mühüm sahələri əhatə etdiyi vurğulanıb.

Çıxışçılar bildiriblər ki, ortaq kimlik və regional mənsubiyyət əsasında qurulan və əməkdaşlıq sahələri hər gün daha da dərinləşən TDT güclü siyasi iradə əsasında formalaşaraq beynəlxalq quruma çevrilib.

Paneldə təşkilatın özünəməxsus əməkdaşlıq modeli, bunun yaratdığı potensial və baxışa diqqət çəkilərək TDT-nin irəli sürdüyü təşəbbüslərin regional və qlobal çağırışlara necə töhfə verə biləcəyi ətrafında müzakirələr aparılıb. İştirakçılar təşkilatın geosiyasi mühitin formalaşmasındakı artan rolunu təhlil ediblər.

Kubanıçbek Ömüralıyev çıxışında TDT-nin artıq inkişaf edən deyil, özünəməxsus fəaliyyətlərlə üzv ölkələrin hərtərəfli inkişafına töhfə verən quruma çevrildiyini bildirib.

Qeyd edilib ki, bu təşkilat İstanbulda keçirilən Zirvə görüşü ilə tamamlanaraq 170 milyondan artıq insanı əhatə edən coğrafiyanın hədəflərinə fokuslanıb.

*XQ*

# Ceyhun Bayramovun Antalya görüşləri

**Aprelin 11-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov Antalya Diplomatiya Forumunda iştirakı çərçivəsində Türkiyə Respublikasının xarici işlər naziri Hakan Fidan ilə görüşüb.**

Görüşdə Azərbaycan–Türkiyə müttəfiqlik gündəliyində duran siyasi, təhlükəsizlik, iqtisadiyyat, nəqliyyat-kommunikasiyalar, humanitar məsələlər, regional və beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq, habelə qarşılıqlı maraq doğuran təhlükəsizlik məsələləri müzakirə olunub.

Artıq 4-cü dəfədir təşkil olunan Antalya Diplomatiya Forumunun beynəlxalq münasibətlər sistemində aktual məsələlərin müzakirəsi baxımından əhəmiyyətli platformalardan birinə çevrildiyi qeyd olunub. Xüsusilə, regional və beynəlxalq müstəvidə müşahidə olunan təhlükəsizlik problemləri və qeyri-sabitliyə son qoyulmasında danışıqlar və diplomatiyanın əhəmiyyəti vurğulanıb.

Azərbaycan–Türkiyə qardaşlığına əsaslanan müttəfiqlik münasibətlərinin bütün səviyyə və platformalarda uğurla davam etdirildiyi məmnunluqla qeyd edilib. Münasibətlərin daha da genişləndirilməsində hər iki ölkənin liderləri arasında ən yüksək səviyyədə olan dialoqun müstəsna rolu vurğulanıb.

Regional və beynəlxalq təşkilatlar, xüsusilə Türk Dövlətləri Təşkilatı çərçivəsində əməkdaşlığın daha da möhkəmləndirilməsinin əhəmiyyəti diqqətə çatdırılıb.

*

**Həmin gün Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Rusiyanın xarici işlər naziri Sergey Lavrov ilə də görüşüb.**

Görüş zamanı Azərbaycan–Rusiya münasibətlərinin siyasi, iqtisadi-ticarət, humanitar aspektləri, habelə qarşılıqlı maraq doğuran regional və beynəlxalq təhlükəsizlik məsələləri müzakirə olunub. Əməkdaşlıq gündəliyində duran məsələlərin müzakirəsi baxımından ali və yüksəksəviyyəli səfərlərin, qarşılıqlı təmasların əhəmiyyəti vurğulanıb.

Regional və beynəlxalq təşkilatlar, o cümlədən üçtərəfli, dördtərəfli formatlar çərçivəsində əməkdaşlığın faydalı olduğu diqqətə çatdırılıb.

*

**Dünən Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov və Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan arasında görüş keçirilib.**

Tərəflər Azərbaycan ilə Ermənistan arasında Sülh və dövlətlərarası münasibətlərin qurulması haqqında sazişin mətninin yekunlaşdırılmasından sonra normallaşma prosesinin hazırkı vəziyyətini müzakirə ediblər.

Nazirlər dialoqu davam etdirməyə hazır olduqlarını bildiriblər.

*

**Antalya Diplomatiya Forumunda iştirakı çərçivəsində xarici işlər naziri Ceyhun Bayramov Venesuela Bolivar Respublikasının xarici işlər üzrə xalq hakimiyyəti naziri İvan Xil Pinto ilə görüşüb.**

Görüş zamanı Azərbaycan və Venesuela arasında mövcud əməkdaşlıq gündəliyinin müxtəlif, o cümlədən iqtisadiyyat, ticarət, enerji təhlükəsizliyi istiqamətləri üzrə irəlilədilmə imkanları, ikitərəfli və çoxtərəfli platformalarda əməkdaşlıq fəaliyyəti, habelə qarşılıqlı maraq doğuran regional və beynəlxalq təhlükəsizlik məsələləri müzakirə olunub.




Tərəflər Azərbaycan və Venesuela arasında münasibətləri xarakterizə edən möhkəmlənən siyasi əlaqələri və qarşılıqlı hörməti bir daha təsdiqləyiblər. Davamlı siyasi dialoq və yüksəksəviyyəli səfərlərin mübadiləsi vasitəsilə ikitərəfli əməkdaşlığın bundan sonra da inkişaf etdiriləcəyinə əminlik ifadə olunub.

*

**Xarici işlər naziri Ceyhun Bayramov Antalya Diplomatiya Forumunda iştirakı çərçivəsində Burkina Fasonun xarici işlər naziri Jan Mari Traore, Maldiv Respublikasının xarici işlər naziri Abdulla Xəlil ilə də görüşüb.**

*XQ*

# Azərbaycanın şərti: Erməni manipulyasiyası və Türkiyə amili

**Məlum olduğu kimi, Azərbaycanla Ermənistan arasında sülh müqaviləsinin bütün bəndləri razılaşdırılıb. O da məlumdur ki, Bakı həmin sazişin imzalanması üçün İrəvan qarşısında iki şərt qoyub. Bunlardan birincisi, de-fakto mövcud olmayan ATƏT-in Minsk qrupunun ləğvidir. Daha doğrusu, tərəflərin sözügedən təsisatın rəsmən fəaliyyətini dayandırması üçün birgə müraciət ünvanlamaları. İkinci şərtə gəlincə, bu, Ermənistan konstitusiyasının dəyişdirilməsidir. Dəqiq desək, erməni əsas qanununun ölkənin İstiqlaliyyət bəyannaməsinə istinad yükünün aradan qaldırılması. Söhbət Qarabağla bağlı müddəanın yer aldığı sənədə istinadın rəsmən dayandırılmasından gedir.**



Azərbaycanın hər iki şərti Ermənistanın ərazi iddiası ritorikasına son qoyulması məqsədini daşıyır. Nəzərə alaq ki, illər ərzində mənasız danışıqlar platformasına çevrilmiş ATƏT-in Minsk qrupu Qarabağın münaqişəli zona statusunu vurğulayır, eyni zamanda, fəaliyyətsizliyi ilə erməni təcavüzünü leqallaşdırır, vaxt uzadaraq işğalın düşüncə və şüurlarda möhkəmlənməsinə səy göstərir, nəsillərin dəyişməsi üzərinə siyasi sərmayə yatıraraq xalqımızın üzləşdiyi ədalətsizliyin unudulmasına çalışırdı.

Sadaladıqlarımız Azərbaycanın iki şərtinə legitimlik qazandırır. Yəni dövlətimizin yanaşması başqa dövlətin işinə qarışmaq deyil. Ermənistan rəhbərliyi isə ATƏT-in Minsk qrupunun yalnız Azərbaycanla sülh müqaviləsi imzalandıqdan sonra ləğvinin mümkünlüyü üzərində dayanır. Ölkə konstitusiyası ilə bağlı məsələyə gəldikdə, rəsmi İrəvan bəyan edir ki, əsas qanuna dəyişiklik Ermənistanın daxili işidir. Hazırda baş nazir Nikol Paşinyan administrasiyası və ona yaxın çevrələr bu tezisin təbliğatını aparırlar. Təbliğat Azərbaycanın tələbinin yolverilməzliyinə və qeyri-konstruktivliyinə dair rəy formalaşdırmağa hesablanıb. Hay başbilənlər Türkiyənin Ermənistanla münasibətlərin normallaşması üzrə xüsusi nümayəndəsi Sərdar Kılıçın "CivilNet"ə müsahibəsində söylədiklərini də məhz bu "məqsədlə" tirajlayırlar. Bəri başdan deyək ki, tutduqları yol manipulyativ xarakterlidir və heç bir fayda verməyəcək.

***

Baş nazir N.Paşinyan Ermənistan konstitusiyasında "Azərbaycana qarşı ərazi iddiasının olmadığını" təkrarlayır, əksinə Azərbaycanın əsas qanununda ölkəsinə qarşı ərazi iddiasının mövcudluğunu iddia edir. Ancaq Nikol bu günlərdə Ermənistan konstitusiya məhkəməsinin ötən il çıxardığı qərardan danışmışdı. O qərardan ki, orada ölkənin İstiqlaliyyət bəyannaməsinin konstitusiyada yer almayan müddəalarının etibarsızlığı təsdiqlənir. Yəni Paşinyan açıq deməsə də, məsələni gündəmə gətirməklə, Ermənistanın Azərbaycanın şərtini yerinə yetirdiyini vurğulamışdı. Deməli, dolayısı ilə bəyannamənin ərazi iddiası mahiyyəti daşıdığını etiraf etmişdi. Ölkəmizin rəhbərliyinin bildirdiyi isə budur: Məhkəmə qərarı konstitusiyanın istinad nöqtəsini dəyişmək üçün yetərli deyil. Yəni, məsələyə köklü baxılmalıdır. Köklü baxış konstitusiyaya dəyişikliyi üçün ümumxalq səsverməsinin – referendumun keçirilməsidir. Prinsipial məqam budur ki, Ermənistanın ərazi iddiasından daşınması erməni cəmiyyətinin müştərək mövqeyi şəklində ifadəsini tapmalıdır. Azərbaycan bunu işğalçılıq niyyətlərinin təkrarlanmaması ilə bağlı maksimal təminat, müstəsna etimad quruculuğu tədbiri olaraq görür. Başqa sözlə desək, Ermənistan referenduma getməklə, Azərbaycan qarşısında inam və etibar qazanmaq istəyini sübuta yetirməlidir. İnam və etibar yoxdursa, dayanıqlı barış mühiti də sual atındadır.

Əlqərəz, erməni mediası S.Kılıçın konstitusiya dəyişikliyinin Ermənistanın daxili işi olmasına dair fikrini Ankaranın İrəvanın mövqeyi ilə razılaşması kimi təqdim edib. Halbuki, diqqətlə yanaşanda məsələnin heç də belə mahiyyət daşımadığı aşkardır. Diqqət yetirək, cənab Kılıç mövzu barədə söz açarkən, Ermənistan rəhbərliyinin konstitusiyaya dəyişikliklərin vacibliyinə dair bildirdikləri üzərində dayanır. Yada salaq ki, bu zərurəti ən çox dilə gətirən N.Paşinyanın özüdür. Nikol ötən il hətta bilavasitə İstiqlaliyyət bəyannaməsindən söz açmış və sənəddəki "Dağlıq Qarabağ" ifadəsinin sülh yolunda maneə olduğunu dilə gətirmişdi. Deməli, S.Kılıç məhz buna görə rəsmi İrəvanın mövqeyini qabardır.

***

Yenidən Ermənistan konstitusiyasının üzərinə qayıdaq. Qeyd edək ki, bu mətləb "CivilNet"in S.Kılıça ünvanladığı sonuncu sualın mövzusudur. Deməli, media orqanı Ankara–İrəvan normallaşmasının Bakı–İrəvan anlaşmasından asılılığını qəbul edir, bu, öz yerində. Bir məsələ var ki, cənab Kılıç müsahibəsindən əvvəl də Azərbaycanın Ermənistana irəli sürdüyü şərtdən söz açmışdı. O, ikincinin özünün əsas qanununda dəyişiklik edəcəyini bildirmiş, hətta N.Paşinyanın söz verdiyini dilə gətirmişdi. Görünür, türkiyəli diplomat bildirdiklərinin ölkəsinin Ermənistana şərti şəklində təqdim olunduğunu hiss edib. Mövzunun tamam fərqli yönə çəkilmə ehtimalını da həmçinin. Sonuncu məqamın üzərində nisbətən geniş dayanmağa ehtiyac var.

Durum budur ki, erməni iqtidarı və ona yaxın dairələr Azərbaycanla sülh müstəvisində manipulyasiyalara yol verdikləri, özlərini "sülh göyərçini" qiyafəsində göstərdikləri kimi, Türkiyə ilə normallaşma istiqamətində də dəridən-qabıqdan çıxdıqlarını imitasiya edirlər. Sanki münasibətlərin qaydaya düşməsi, sərhədlərin açılması naminə hər şeyə hazırdırlar. Mesaj dünya birliyinədir. Çünki beynəlxalq aləm də Ankara-İrəvan normallaşmasında maraqlıdır. Paşinyan iqtidarı tipik erməni avantürizmini pərdələməklə, ənənəvi ərazi iddiası xəstəliyini gizli saxlamaqla, həmin maraqları yerinə yetirməyə çalışırmış kimi davranır. Hər kəs, o cümlədən qardaş Türkiyə rəsmiləri Ermənistanın hiyləgərliyinin fərqindədirlər...

Belə bir vəziyyətdə S.Kılıç Türkiyə-Ermənistan münasibətlərinin qaydaya salınması, konkret olaraq, iki ölkə arasında sərhədlərin açılması məsələsi ilə əlaqədar Paşinyanın konstitusiya dəyişikliyinə getməyə dair fikirlərini yalnız əlavə element formasında vurğulayır. Hərçənd, diqqətə çatdırdığı bilavasitə həll yolunun özüdür. Axı zamanında Türkiyə–Ermənistan sərhədlərinin bağlanmasını doğuran Azərbaycan amili olmuşdu. Dəqiq desək, Ermənistanın ölkəmizə qarşı tutduğu işğalçı mövqe. Müvafiq olaraq, Ankara hazırda Bakının sülh müqaviləsi baxımından irəli sürdüyü iki şərtin işğal cəhdlərinin təkrarlanmamasına təminat kazusunu nəzərə almalıdır və alır.

Ancaq, Anadolu türklərinin təbirincə desək, S.Kılıç "lafı dolandırmalıdır". Çünki İrəvana etimad yoxdur. Axı Paşinyan hakimiyyəti və havadarları, eləcə də daxili erməni müxalifəti mənfi yönümdə qələmə verdikləri Azərbaycan–Türkiyə tandeminin, guya, ölkələrinə qarşı birlik içərisində hərəkəti ritorikasını diri saxlayır, özlərini məzlum obrazında göstərib xaricdən mədət ummağa üstünlük verirlər. Əslində, Nikol və tərəfdarlarının İrəvanın Ankara ilə yola getməyə hazırlığı imitasiyası və canfəşanlığı ona hesablanıb ki, beynəlxalq birlik yekunda birincinin pozitiv cəhdlərinin ikincinin təqsiri üzündən nəticəsiz qaldığını düşünsün, Ermənistana "Azərbaycanla yanaşı, Türkiyənin də destruktiv mövqeyinə" qarşı mübarizədə dəstək göstərsin. Nəticə etibarilə, erməni avantürası yaşamını sürdürsün.

Hər halda, təcrübəli diplomat Sərdar bəy hay "formulundan" xəbərdar olmaya bilməz. Ona görə də o, Azərbaycanın irəli sürdüyü şərtin vacibliyini bildirsə də, Paşinyanın dediklərini xatırlatsa da, hər iki məqamın üzərindən keçir və çox ustalıqla vurğunu konstitusiya dəyişikliyinə getməyin Ermənistanın daxili işi olması üzərinə qoyur: "Bu, vacib məsələdir və məlum olduğu kimi, Azərbaycan Ermənistanın konstitusiyasına dəyişikliklər edilməsini tələb edir. Ermənistan hakimiyyəti artıq bəyan edib ki, onlar da konstitusiyaya dəyişiklik etmək istəyirlər. Amma bu, Ermənistanın daxili işidir. Bu dəyişiklik prosesinin necə və nə vaxt həyata keçiriləcəyinə erməni xalqı və erməni institutları qərar verəcəklər".

Sonda bildirək ki, qlobal məqsədlərə köklənmiş Türkiyə özünü Ermənistanla mübarizə aparan tərəf kimi təqdimatını istəmir. Həm də qardaş ölkənin prinsipial mövqeyi ortadadır və bununla bağlı əlavə şərhə ehtiyac yoxdur. Əsas məqam Ermənistan rəhbərliyinin həm də S.Kılıçın diplomatik tərzdə eşitdirdiklərindən nəticə çıxarmasıdır. Yəni nəticə çıxararaq konstruktiv mövqe tutması və Azərbaycanın irəli sürdüyü iki şərti yerinə yetirməsi. Nəzərə alaq ki, türkiyəli diplomat Ankara ilə İrəvan arasında qarşılıqlı etimadın yaradılmasının zəruriliyini heç də elə-belədən vurğulamır. Bakının İrəvana etimadı Türkiyənin Ermənistana eyni tərzdə yanaşması deməkdir. Bunun əksinin nə demək olduğu da məlumdur.

Digər yandan, Türkiyədən Azərbaycan–Ermənistan münasibətlərinə baxışın ayrıca, müəyyən qədər, fərqli bucağının mövcudluğu təbiidir. S.Kılıçın fikirləri də bundan qaynaqlanır. Həmin reallığa görə, Türkiyə tərəfinin konstitusiya dəyişikliyinə getməyin Ermənistanın daxili işi olduğunu bilməsi mümkündür. Amma burada başlıca nüans deyimin hansı məna yükünü daşımasıdır. Obrazlı desək, başını divara vurub yarmaq da hər bir erməninin öz işidir.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# "Odlar yurdu"nun sakit təmkini və Avropanın hay-küylü qərəzi



*(əvvəli 1-ci səhifədə)*

AŞPA artıq uzun müddətdir ki, etimad böhranı yaşayır. Onun rəhbərlərinin və bəzi nümayəndələrinin region dövlətlərinə, xüsusilə Azərbaycana münasibətdə göstərdiyi qərəzli mövqe bu qurumu öz missiyasından uzaqlaşdırıb. İnsan haqları, hüququn aliliyi və demokratik dəyərlər kimi yüksək ideyaların arxasında gizlənən siyasi manipulyasiyalar, AŞPA-nın obyektivlikdən uzaqlaşdığını bir daha sübut edir.

Rusopulosun səsləndirdiyi fikirlər sadəcə etik və diplomatik sərhədləri aşmaq deyil, həm də AŞPA-nın daxilindəki isterik vəziyyətin, daxili xaosun və normativ dəyərlərdən uzaqlaşmanın təzahürüdür. O, özü ilə bağlı yaranmış etimadsızlıq mühitini ört-basdır etmək üçün diqqəti Azərbaycanın üzərinə yönəltmək kimi köhnəlmiş və nəticəsiz bir taktika seçmişdir.

Azərbaycan beynəlxalq hüquqa söykənən, ədalətə əsaslanan, prinsipial və ardıcıl mövqe nümayiş etdirən bir dövlətdir. 30 il ərzində işğala məruz qalan, beynəlxalq hüququn pozulmasına reaksiya verməyən beynəlxalq institutlara baxmayaraq, Azərbaycan öz ərazi bütövlüyünü bərpa etdi – bu, beynəlxalq hüququn təntənəsi idi. Bu reallığı qəbul etməkdə çətinlik çəkən bəzi Qərb siyasətçiləri həmin uğuru gözdən salmaq üçün qərəzli ritorika və yalan ittihamlar səsləndirirlər.

Ayxan Hacızadənin qeyd etdiyi kimi, Azərbaycan Avropa İnsan Haqları Məhkəməsinin hakimlərinin seçilməsində iştirak etmədiyi halda, onun qərarlarına da əhəmiyyət verməyərək prinsipial mövqe sərgiləyir. Bu, hüquqi zəmində tam əsaslıdır və onu göstərir ki, Azərbaycan beynəlxalq hüquqa seçici deyil, prinsipial və balanslı şəkildə yanaşır.

Avropa qurumları daxilində yaranan bu cür ritorika, əslində, daha geniş bir kontekstdə – Avropanın geosiyasi təsir imkanlarının zəifləməsi və daxili parçalanma tendensiyası fonunda baş verir. Ukrayna müharibəsi, enerji təhlükəsizliyi böhranı və yeni güc mərkəzlərinin yaranması fonunda Avropa öz mövqeyini itirməkdədir. Bu durumda Azərbaycanın yüksələn rolu – enerji diplomatiyası, regional təşəbbüsləri və yeni nəqliyyat dəhlizləri ilə çıxış etməsi – bəzi dairələrdə qısqanclıq və aqressiv ritorikaya səbəb olur.

Azərbaycanın regional liderə çevrilməsi, xüsusilə Şərq-Qərb və Şimal-Cənub dəhlizlərində oynadığı rolu AŞPA kimi qurumların artıq tənəzzülə uğrayan təsirinə zidd bir yüksəliş amilidir. Bu reallıqla barışmaq əvəzinə, qərəzli ritorikalar səsləndirmək həmin institutların zəifliyinin və çıxılmaz vəziyyətinin göstəricisidir.

Azərbaycan AŞPA-nın qərəzli yanaşmalarına baxmayaraq, dialoqa açıq olduğunu dəfələrlə bəyan edib. Bu, dövlətimizin siyasi uzaqgörənliyini və beynəlxalq institutlarla münasibətləri kəsmək yerinə, onları islahatlara təşviq etmək istəyini nümayiş etdirir. Lakin dialoqun mümkün olması üçün qarşı tərəfin də minimum diplomatik etika və obyektivlik nümayiş etdirməsi gərəkdir.

Teodoros Rusopulos və onunla həmfikir olan şəxslərin adlarının "qara siyahı"ya" daxil edilməsi Azərbaycanın diplomatik hüquqlar çərçivəsində atdığı qanuni və sərt addımdır. Bu, həm də mesajdır – Azərbaycanla təhdid dili ilə danışmaq olmaz.

AŞPA və digər Qərb institutlarının "demokratiya ixracı" adı altında apardıqları siyasi kampaniyalar artıq öz mahiyyətini itirib. Demokratiya seçkili idarəetmə, xalqın iradəsi, ədalət və hüquq üstünlüyü deməkdirsə, Azərbaycan bu prinsipləri qorumaqda israrlıdır.

Rusopulosun ritorikası isə Avropanın daxilindəki böhranlı, qərəzli siyasətin nə qədər təhlükəli səviyyəyə çatdığını və bu qurumların yenidən formalaşma zərurətini ortaya qoyur. Azərbaycan isə öz mövqeyində sabitdir – hüquqa, ədalətə və milli maraqlara əsaslanaraq, beynəlxalq münasibətlərdə öz sözünü deyir.

***Şəbnəm ZEYNALOVA,***
***siyasi elmlər üzrə fəlsəfə doktoru***

**Replika**

# Ay sənin oyunun olsun, Uruqvay!

**...2012-ci ilin noyabrında Azərbaycanın Argentinadakı səfirliyi (eyni zamanda, Uruqvay Respublikasında akkreditə olunub-red.) Uruqvay Xarici İşlər Nazirliyinə bu ölkə rəsmilərinin "Dağlıq Qarabağa" səfərilə bağlı etiraz notası təqdim edib. Ermənistana məlum səfərində Uruqvay Nümayəndələr Palatasının o zamankı sədri Xorxe Errikonun başçılıq etdiyi nümayəndə heyəti İrəvanda "erməni soyqırımı xatirə kompleksinə" də baş çəkib, xatirə abidəsinin önünə əklil qoyub, "soyqırımı muzeyi"ndə olub. Spiker hətta Uruqvay tərəfindən "Dağlıq Qarabağın" müstəqilliyinin tanınması məsələsindən də danışmışdı: "Hazırda mən dəqiq heç nə deyə bilmərəm. Biz Ermənistanla əməkdaşlıq yaratmaq üçün gəlmişik. Bunu diplomatik cavab hesab etməyin. Biz məsələni tam öyrənməli, problem haqqında lazımi informasiya almalı və kömək etməyə çalışmalıyıq".**



Uruqvay Nümayəndələr Palatasının sədri Ermənistana 13 il əvvəlki səfəri zamanı bir az da irəli gedərək ölkəsinin sülhə aid məsələlərdə əməkdaşlıq etməyə hazır olduğunu, xalqların öz müqəddəratını təyin etməsi və suverenliyi prinsiplərini və BMT-nin əsas sənədlərini dəstəklədiklərini bəyan etmişdi.

Azərbaycan Xarici İşlər Nazirliyinin Uruqvay Nümayəndələr Palatası sədrinin rəhbərlik etdiyi nümayəndə heyətinin Ermənistan tərəfindən işğal olunmuş Azərbaycan ərazilərinə səfəri ilə əlaqədar verilmiş notasında rəsmi Montevideonun diqqətinə parlamentarilərin bu səfərinin qeyri-qanuni olduğu çatdırılırdı. Diplomatik notada uruqvaylı deputatların səfər zamanı keçirdikləri görüşlərin və açıqlamaların Azərbaycanın suverenliyinə, ərazi bütövlüyünə və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına qarşı hörmətsizlik olduğu vurğulanırdı. Etiraz notasında qeyd edilirdi ki, məsuliyyətsizlik və etinasızlıq nümayiş etdirən bu qanunsuz səfər münaqişənin sülh yolu ilə həlli prosesinə xələl gətirir.

Maraqlıdır ki, səfərdən öncə Uruqvay parlamentinin spikeri Xorxe Erriko Azərbaycan səfiri ilə görüşündə ölkəmizin ermənilər tərəfindən işğal altında saxlanılan ərazilərinə səfər etməyəcəyinə söz veribmiş. Amma vədinə xilaf çıxan ermənipərəst Erriko Bakının məlum notasını cavablandırmağı da "unutmuşdu".

***

Bu hadisənin üstündən 13 il keçəndən sonra Uruqvayın yenidən ermənipərəstliyə başlaması, Bakıya ultimativ çağırışlar etməsi bizdə belə bir qənaət hasil edir ki, uzaq Latın Amerikası ölkəsində Cənubi Qafqazda baş verənlərdən, yeni reallıqdan xəbərsizdirlər. Ya da bu ölkədə yaşayan köçəri ermənilər onlara yalan məlumatlar sırıyıblar. Əgər belə olmasaydı, Uruqvay parlamenti Azərbaycanı "erməni millətindən olan əsirləri təcili buraxmağa" çağırmazdı. Parlament bununla bağlı bəyanatı erməni əsilli deputat Xose Luis Sajianın təşəbbüsü ilə qəbul edib. Uruqvay Nümayəndələr Palatasının sessiyasında deputatlar "erməni soyqırımının 110 illiyi" mövzusuna da toxunublar.

Hələ bu harasıdır. Uruqvay–Ermənistan parlamentlərarası dostluq qrupunun üzvü, deputat Konrado Rodriges "Erməni soyqırımını inkar etməyə görə cinayət məsuliyyətinə cəlb edilməsi haqqında" qanun layihəsinin müzakirəyə çıxarılmasını istəyib. Onun hazırladığı layihəni parlamentin bütün fraksiyalarının üzvləri imzalayıblar. Bu yaxınlarda layihə qanunverici orqanda baxılacaq. Hay deputat çıxışında qeyd edib ki, "bu gün erməni soyqırımının inkar edilməsi qurbanların və onların nəsillərinin aşağılanmasının davam etməsi deməkdir". Adamın futbol üzrə iki dəfə dünya çempionu olmuş bu Latın Amerikası ölkəsinə həm acığı tutur, o biri yandan isə yazığı gəlir. O boyda dövlət bir dəstə köçəri hayın əlində qapıdan-qapıya vurulan topa dönüb.

...Təəccüblü heç nə baş vermir. Uruqvayın "ermənilərin Osmanlı İmperiyası tərəfindən öldürülməsini soyqırımı kimi tanıyan" dünyada birinci ölkə olduğunu xatırlatsaq, təəccübünüz əriyib gedər. Bu "tarixi hadisə" 1965-ci ildə, saxtakar hay vay-şivənin 50 illiyində baş verib. Belə məqamda "Ay səni, Uruqvay!" – deməyəsən, nə deyəsən?

***İ.HƏSƏNQALA***
***XQ***

# Qlobal dünya və Azərbaycan: Aktorluğun bəşəri fayda məqsədi



*(əvvəli 1-ci səhifədə)*

Hər zaman özünün balanslı siyasət kursuna sadiq qalan dövlətimiz dünyanın ən müxtəlif coğrafi məkanlarında yerləşən ölkələrlə dinamik, bərabərtərəfli münasibətlər saxlayır. Bu məqamı Prezident Əliyev mötəbər forumda da vurğuladı. Nəinki vurğuladı, eyni zamanda, buna dair mükəmməl izah verdi: "Əlbəttə ki, coğrafiya hər bir ölkə üçün mühüm amildir. Lakin o, siyasətimizdə dominantlıq edən yeganə amil deyil. Beləliklə, biz siyasətimizi həmin coğrafiya əsasında qurmuşuq. Hesab edirəm ki, Xəzər dənizinin o tayındakı və Azərbaycanın cənubundakı qonşularımızla, xüsusilə Yaxın Şərq ölkələri ilə çox güclü münasibətlər qurmuşuq. Avropa ölkələri ilə uzunmüddətli əməkdaşlığa gəldikdə, bu ölkələrin bir çoxu ilə Azərbaycan strateji tərəfdaşlıq haqqında Bəyannamə imzalayıb və ya qəbul edib. Beləliklə, artıq qurulmuş bu platforma bizə Mərkəzi Asiya və Avropa regionu arasında coğrafi, siyasi, iqtisadi və nəqliyyat körpüsü olaraq önəmli rol oynamağa imkan verir. Biz indi istər Avropa İttifaqı və ya Amerika Birləşmiş Ştatları olsun, istərsə də digər beynəlxalq təşkilatlar olsun, Qərbdən Mərkəzi Asiyaya və əlbəttə ki, həmin regionla uzunmüddətli əməkdaşlığın qurulmasının planlaşdırılmasına böyük marağın olduğunu bilirik. Azərbaycanın nəzərə alınmamasının mümkünsüz olduğunu anlamaq üçün, sadəcə, xəritəyə nəzər salmaq kifayət edər".

Qeyd edək ki, Azərbaycanın balanslı siyasəti dünyada da qəbul edilir. Yəni ayırıcı xətlərin olmasına baxmayaq, beynəlxalq aləm, böyük əksəriyyət etibarilə, yaxşı dərk edir ki, ölkəmiz sırf milli maraq və mənafelərindən, habelə daim önəm verdiyi və sadiq qaldığı əməkdaşlıq parametrlərindən çıxış edir, ən başlıcası isə səmimi mövqe tutaraq, hadisə və proseslərə proqmatik yanaşmaları ilə seçilir. Ölkəmiz yerləşdiyi Cənubi Qafqaz regionunun spesifliyini nəzərə alır və bunu düzgün dəyərləndirərək unikal tərəfdaşlıq ab-havası formalaşdırır. Dövlətimizin başçısı bu ab-havanın genişlik trayektoriyasına özünəxas tərzdə aydınlıq gətirir: "Azərbaycan geosiyasi cəhətdən Cənubi Qafqazda, Xəzər dənizinin sahilində yerləşən bir ölkədir, lakin, eyni zamanda, biz Mərkəzi Asiyaya yaxınıq. Yalnız Xəzər dənizi bizi ayırır. Beləliklə, praktiki əməkdaşlıq, nəqliyyat, Orta Dəhliz nöqteyi-nəzərdən biz körpülər qurmaq və yükdaşımaların həcmini artırmaq məqsədilə çoxlu işlər görmüşük. Çünki Azərbaycanın nəqliyyat infrastrukturuna, xüsusilə dəniz limanına, gəmiqayırma zavoduna, dəmir yolu müəssisələrinə və bu gün yaratdığımız digər logistik infrastrukturumuza yatırılan böyük investisiyalar önəmlidir və ildən-ilə biz təkcə Mərkəzi Asiyadan yox, həmçinin Azərbaycanın ərazisindən keçməklə Çindən gedən və Avropadan Çinə gedən yüklərin həcminin artdığını görürük. Hesab edirəm ki, bu, vacib bir aktivdir və Mərkəzi Asiya ölkələri ilə münasibətlərini yaxından qurmaq istəyən istənilən beynəlxalq aktor üçün yenə də xəritəyə və Azərbaycan ilə Mərkəzi Asiya ölkələri liderləri arasında siyasi müstəvidə qarşılıqlı əlaqələrə nəzər salmaq kifayətdir".

*

Nəzərə alaq ki, dövlətimizin tutduğu yol həm də ölkəmizin qlobal ziddiyyətlərin kiçik qızışdırıcı elementi qiyafəsində qarşılana biləcək təzahürlərdən məharətlə sığortalanmasıdır. Bu qabiliyyət Azərbaycanı beynəlxalq güclər arasında etibarlı vasitəçi statusuna yüksəldir. Zamanında ölkəmizin NATO-Rusiya danışıqlarında vasitəçilik missiyanı daşıdığını bilirik. Hər iki tərəfin təmsilçilərinin Bakıda təmaslar gerçəkləşdirdiyini də. Təsadüfi deyil ki, Rusiya–Ukrayna müharibəsinə son qoyulması ilə bağlı Prezident Donald Trampın şəxsində ABŞ-ın hazırkı administrasiyasının təşəbbüsü və Trampın dövlət başçısı səlahiyyətlərinin icrasına başlaması ilə Vaşinqtonla Moskva arasındakı buzların ərimə ehtimalı meydana çıxanda düşüncələrdə ikitərəfli təmas yeri kimi canlanan məkan məhz Bakı oldu. Bu barədə müxtəlif fikirlər səsləndi. "Yeni dünya nizamına doğru" beynəlxalq forumunda sualları cavablandıran Prezident İlham Əliyev isə Azərbaycanın Türkiyə ilə İsrail arasındakı vasitəçiliyindən söz açdı.

Türkiyənin və İsrailin önəmini vurğulayan Azərbaycan Prezidenti hər iki ölkə ilə bağlılıq tellərimizin müfəssəl təsvir və izahını verməklə ölkəmizin onlar arasındakı vasitəçilik xəttinin dejavü yaşantısı barədə söz açdı. "Artıq məlum olduğu kimi, – baxmayaraq ki, biz özümüz bunu açıq şəkildə heç vaxt bəyan etməmişik, bu, artıq kifayət qədər geniş şəkildə yayılıb, – Türkiyə ilə İsrail arasında ilk uğurlu barışıq müəyyən dərəcədə Azərbaycanın vasitəçiliyi ilə əldə olunub. Çünki indi iki ölkə arasında baş verənlər ilk böhran deyil, yaxın keçmişdə ikincidir. İlk böhran zamanı biz ölkələri yaxınlaşdırmağa çalışmaq üçün fəal rol oynadıq. Bu, təkcə Azərbaycan deyildi, lakin deyərdim ki, Azərbaycan bu prosesdə birinci yerdə idi. Yenə də bu, bağlı qapılar arxasında baş verdi. Biz bunu heç vaxt ictimailəşdirmədik. Biz buna görə heç vaxt özümüzü tərifləməyə çalışmadıq. Biz, sadəcə olaraq, müttəfiqimiz və qardaşımız olan Türkiyəyə, dostumuz İsrailə öz əlaqələrini yenidən qurmaq üçün yardım etmək istədik. Bəlkə də bilirsiniz ki, bu normallaşmanın nəzərəçarpan əlamətləri də var idi, məsələn, İsrail Prezidenti cənab Hersoqun Türkiyəyə səfəri və Prezident Ərdoğanla görüşü, Prezident Ərdoğanla Baş nazir Netanyahu arasında Nyu-Yorkda görüş. Bu, iki il bundan əvvəl baş vermişdi. İndi biz bir növ dejavü yaşayırıq. Biz addımlarımızın alqoritmini bilirik. Mən sizi əmin edə bilərəm ki, yardım etməyə çalışmaq üçün səy göstəririk. Ola bilsin ki, hazırkı mərhələdə bundan daha çox söz demək doğru olmaz, çünki yenə də bu, iki ölkə arasındakı münasibətlərdir. Aramızdakı hər hansı prosesi, – əgər, ümumiyyətlə, belə bir proses varsa, – nə dərəcədə ictimailəşdirmək istəmələrinə onlar özləri qərar verməlidirlər. Normallaşmanın birinci raundu zamanı biz tamamilə sakit idik. Biz bağlı qapılar arxasında işləyirdik. Təsəvvür edə bilərsiniz ki, biz indi eyni işi görürük. Ümidvarıq ki, bu proses normallaşmaya aparacaq", – deyən cənab İlham Əliyev vurğulayır ki, Azərbaycanın dostları arasında pis münasibətlərin olmasının ölkəmiz üçün xoşagəlməzlik parametri var. Bununla belə, dövlətimizin başçısı Türkiyə–İsrail münasibətlərinin normallaşacağına inanır və bu, nikbinlik doğurur.

*

Nəzərə alaq ki, Azərbaycanın aktorluq missiyasını şərtləndirən yalnız qlobal siyasi proseslərdəki aktiv iştirakçılıq deyil. Dövlətimizin başçısının qətiyyət və prinsipiallıqla ardıcıl şəkildə həyata keçirdiyi kurs nəticəsində respublikamız beynəlxalq aləmə, belə demək mümkünsə, ədalətlə yanaşı, həm də mərhəmət ixracatçısıdır. Başqa sözlə desək, prinsipiallığımız və qətiyyətimizdə bəşəri motivlər, dünya naminə təəssübkeşlik seqmenti də var. Hesab edirik ki, xarici aləmə yanaşmamızdakı, daha doğrusu, ölkəmizin aktorluq missiyasındakı tamlığı şərtləndirən də elə budur. Fikrimizin təsdiqi baxımdan Azərbaycan dövlətinin "COVID-19" pandemiyası dövründəki fəaliyyətinin üzərində dayanmağa ciddi ehtiyac var.

Yada salaq ki, həmin dönəmdə formalaşmış aşırı isterik durumun təsiri ilə dünya birliyinin zaman-zaman açıqladığı bütün mütərəqqi dəyərlərin sıradan çıxacağına, bir andaca yox olacağına dair təsəvvür yaranmışdı. Ayrı-ayrı dövlətlər qapanmış, sanki özünü düşünürmüş kimi davranırdı. Sanki hər kəs öz hayında idi. Azərbaycan isə obrazlı desək, yüksək səslə bəyan etdi ki, geridə qalan atlar güllələnməməlidir. Bu çağırış tərs şapalaq effekti yaratdı. Deyimin praktik əhəmiyyəti özünü ölkəmizin liderinin bəzi dövlətlərin virus əleyhinə peyvənd möhtəkirliyinə qarşı cəsarətli çıxışlarında göstərdi. Dövlətimizin başçısı peyvənd bölgüsündə ədalətin təmin edilməsi kimi mühüm məsələni qaldırdı, kasıb ölkələrə yardımların olunmasının vacibliyini vurğuladı, ölkəmiz tərəfindən də çoxsaylı yardımlar edildi.

Onu da ayrıca bildirək ki, Azərbaycanın aktorluğu təmsil olunduğu bütün platformalarda parlaq təzahür formalarına malikdir. Bu mənada uğurlu sədrlik həyata keçirdiyimiz Qoşulmama Hərəkatındakı təmsilçilik üzərində də dayanmağa ehtiyac var. Bu təşkilatın xətti ilə bəyan etdiyimiz prinsiplər, düzənlədiyimiz çoxsaylı tədbirlər Vətənimizi bir çox dövlətlərə yenidən tanıtdı. Dünyanın ayrı-ayrı qitələrinin məmləkətləri ilə təmaslarımız genişləndi.

Sonda onu da bildirək ki, ümumən, ölkəmizin regional aktor kimi inam və etimad qazandığını, beynəlxalq miqyasda söz sahibinə çevrildiyini təsdiqləyən faktlar yetərincə çoxdur. Hesab edirik ki, indiyədək gedilmiş yol mövcud yüksək siyasi ampluanın qorunacağına etibarlı təminatdır. Tam qətiyyətlə demək olar ki, təminatın müəllifi isə Prezident İlham Əliyevdir.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# Azərbaycan–Gürcüstan dostluğu Şərqdən Qərbə əməkdaşlıq körpüsüdür

## *Qonşu ölkənin Prezidenti ölkəmizə rəsmi səfərə gəlir*

*(əvvəli 1-ci səhifədə)*

Bu istiqamətdə növbəti mesaj Gürcüstan Prezidenti Mixeil Kavelaşvilinin aprelin 15-16-da Azərbaycana rəsmi səfərə gəlməsidir. Artıq səfərin vaxtında reallaşacağı barədə məlumatı Gürcüstan Prezidentinin beynəlxalq münasibətlər üzrə müşaviri Luka Exvaya da təsdiqləyib. Üstəlik, onun sözlərinə görə, bu, M.Kavelaşvilinin Gürcüstan Prezidenti kimi ilk xarici səfəri olacaq.

Doğrudur, Exvaya gürcü dövləti başçısının Azərbaycandan sonra Ermənistana səfər edəcəyini də söyləyib, ancaq bu səfər aprelin axırında baş tutacaq. Təbii ki, M.Kavelaşvilinin ilk xarici səfərini sülhsevər, 30 il ərzində pozulmuş ərazi bütövlüyünü öz gücünə təmin edərək, nümunə göstərmiş Azərbaycana etməsi, dünyaya, ilk növbədə, Ermənistana sülh siqnalı olmalıdır. Yəni, vaxtdır, Cənubi Qafqaz sülh və əməkdaşlıq regionu olmalıdır!



Gürcüstan Prezidenti, bütövlükdə qonşu ölkənin hökuməti Azərbaycana xoş və səmimi jestlərini həmişə nümayiş etdirdiyi kimi, bir qədər əvvəl, Novruz bayramı günlərində bir daha ortaya qoydu. Həmin gün Borçalıda təşkil olunmuş Novruz bayramı şənliklərinə Gürcüstan Prezidenti Mixeil Kavelaşvili, Baş nazir İrakli Kobaxidze, parlament sədri Şalva Papuaşvili və digər rəsmi şəxslər də qatılmışdılar. Şənlik böyük mehribanlıq və qonaqpərvərlik şəraitində keçib, gürcü rəsmiləri ölkənin azərbaycanlı sakinlərini bayram münasibətilə təbrik edib, onlara qoşularaq şənləniblər. Gürcüstan Azərbaycanlılarının İnteqrasiya Mərkəzində baş tutan tədbirdə Azərbaycan və gürcü dillərində şeirlər səslənib, rəqs nömrələri nümayiş etdirilib. Bu da bir daha iki xalqın əsrlərə söykənən dostluğunun təsdiqidir.

Azərbaycan və Gürcüstan Cənubi Qafqazın sülh regionuna çevrilməsi istiqamətində də fəal işləməkdədirlər. Bu sahədə indiyədək bir sıra addımlar atılıb. Bir neçə il əvvəl Gürcüstan Azərbaycan və Ermənistan arasında vasitəçilik missiyasını həyata keçirməyə hazır olduğunu bəyan edib. Daha sonra Tbilisi Bakı və İrəvan arasında sülh müqaviləsinin Gürcüstanda imzalanması təşəbbüsü ilə çıxış edib. 2023-cü il oktyabrın 8-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Tbilisiyə səfəri zamanı bu ölkənin Baş naziri İrakli Qaribaşvili ilə görüşündə də bu məsələlər ətrafında geniş fikir mübadiləsi aparılıb. Gürcüstanın Baş naziri bəyanatında bildirmişdi ki, Azərbaycan Gürcüstanın strateji tərəfdaşıdır, dost ölkədir. Xalqlarımız arasında ənənəvi dostluq davam edir və cənab Prezident İlham Əliyev bu işə çox böyük töhfələr verir.

Onun sözlərinə görə, Azərbaycan liderinin səfəri zamanı iqtisadi, ticari əlaqələrlə yanaşı, təhlükəsizlik məsələləri də müzakirə olunub. Baş nazir demişdi: "Bizim böyük ümidlərimiz var ki, Azərbaycan və Ermənistan sülh sazişini imzalayacaqlar. Bu baxımdan da bizim Cənubi Qafqazda sülh gündəliyi ilə bağlı fikirlərimiz tam üst-üstə düşür. Ümidvarıq ki, bu bölgədə sülh davamlı olacaq və ölkələrimizin firavanlığına xidmət edəcək, həm də Azərbaycan, Ermənistan və Gürcüstan xalqları üçün. Biz burada – Gürcüstanda hər zaman qərəzsiz mövqeyə malik olmuşuq, bu gün də hazırıq ki, bu məsələyə töhfə verək. Biz istəyirik ki, bu məsələdə vasitəçilik edək və istənilən dostluq formatını təqdim etməyə hazırıq. Bizim gələcəyimiz dinc, sabit olmalıdır və Cənubi Qafqazın hər üç ölkəsi regional məsələləri özləri həll etməlidirlər".

Həmin görüşdə, eləcə də Bakıda və Tbilisidə baş tutmuş digər təmaslarda Azərbaycan Prezidenti İlham Əliyev də regionda sülhün alternativi olmadığını dəfələrlə bəyan edib. Qaribaşvili ilə birgə bəyanatında dövlətimizin başçısı ölkələrimiz və xalqlarımız arasındakı dostluq, qardaşlıq əlaqələrini gücləndirməyin vacibliyini qeyd edərək demişdi ki, liderlər arasında görüşlər ölkələrimizin bir-birinə daha yaxın olmasına, xalqlarımızın bir-biri ilə daha da sıx dostluq etməsinə xidmət edir. Əsrlər boyu bizim xalqlarımız mehriban qonşuluq və dostluq şəraitində yaşayıblar, bu gün də belədir. Bu, həm ölkələrimiz üçün, həm də bölgə üçün, o cümlədən, ilk növbədə, Cənubi Qafqaz üçün çox vacib şərtdir.

Prezident İlham Əliyev daha sonra deyib: "Biz bu gün, eyni zamanda, Ermənistan-Azərbaycan normallaşma prosesinə də toxunduq. Üç il bundan əvvəl İkinci Qarabağ müharibəsinin nəticəsində Azərbaycan öz ərazi bütövlüyünü bərpa etmişdir, keçən ay bütün ölkə üzrə suverenliyini bərpa etmişdir. İndi isə biz Ermənistanla Azərbaycan arasında imzalanacaq sülh müqaviləsi üzərində fəal çalışmalıyıq. Əgər biz buna nail olsaq, – mən buna ümidliyəm, – o zaman Cənubi Qafqazda tamamilə yeni bir siyasi vəziyyət yaranacaq. Cənubi Qafqaz ölkələri əməkdaşlığa üçtərəfli formatda başlaya bilərlər və bir çox sahələr üzrə əməkdaşlıq çox uğurlu ola bilər, nəqliyyat, enerji təhlükəsizliyi, ticarət, qarşılıqlı sərmayə qoyuluşu, bütün bunlar, mümkündür".

Prezident İlham Əliyev bildirmişdi ki, Azərbaycanın 44 günlük Vətən müharibəsində və sonrakı antiterror əməliyyatında qələbəsinə qədər Ermənistanla belə bir əlaqədən məhrum olmuşuq. Ona görə ki, Azərbaycan ərazilərinin bir hissəsi uzun illər işğal altında olub və təbii ki, bu vəziyyət normallaşmaya doğru addımlar atılmasına imkan verməyib: "İndi məqam gəlib çatıb və hesab edirəm ki, bu şansı əldən vermək böyük səhv olar".

Azərbaycan Prezidenti həmin bəyanatında Bakı və İrəvana təklif olunan vasitəçilik məsələsinə də toxunub. Onun sözlərinə görə, bu gün bir neçə ölkə və bəzi beynəlxalq təşkilatlar Ermənistan və Azərbaycan arasında gedən normallaşma prosesində öz dəstəyini göstərməyə çalışır. Azərbaycan bunu alqışlayır. Əgər bu, birtərəfli və qərəzli deyilsə, əlbəttə, istənilən vasitəçiliyi və yardımı qəbul etmək olar. Prezident İlham Əliyev qeyd edib ki, bütün bu təkliflərin qərəzsizliyinə əmin olmadığı üçün Gürcüstanın vasitəçilik səylərini daha yüksək qiymətləndirir: "Ancaq mənim fikrimcə, ən düzgün seçim həm tarixi əlaqələri, həm coğrafi amili nəzərə alaraq, əlbəttə ki, bu sahədə Gürcüstan ola bilərdi. Mən cənab Baş nazirə minnətdaram ki, o da bu sahədə mümkün olan vasitəçilik imkanlarını ortaya qoyur. Hesab edirəm ki, biz buna hazır olan ölkə kimi, Ermənistandan da eyni yanaşmanı gözləməliyik və Ermənistan tərəfindən də razılıq olarsa, dərhal bizim aidiyyəti qurumların rəhbərləri Gürcüstanda həm ikitərəfli, həm üçtərəfli görüşə gələ bilərlər".

Təəssüflər olsun ki, Azərbaycan sülh sazişini imzalamağa hazır olsa da, Ermənistan Azərbaycanın iki tələbini (bu ölkənin konstitusiyasında Azərbaycana qarşı ərazi iddiasının yer aldığı maddəni ləğv etmək və ATƏT-in Minsk qripunun fəaliyyətinə son qoymaq) yerinə yetirmək istəmədiyi üçün hələ sülh və nizamlama prosesini başa çatdırmaq mümkün olmur. Gürcüstan liderləri isə hələ də vasitəçilik səylərinin uğurla nəticələnəcəyinə inanmaqda davam edirlər. Şübhəsiz ki, Gürcüstan Prezidenti Mixeil Kavelaşvilinin Bakıya səfəri zamanı da bu məsələ əsas müzakirə mövzularından biri olacaq. Və ümid edirik ki, Ermənistanla sülh sazişi də məhz Cənubi Qafqazın ikinci böyük və sülhsevər ölkəsi Gürcüstanda imzalana bilər. Bunun üçün hər cür şərait və imkan mövcuddur.

***Paşa ƏMİRCANOV***
***XQ***

# Azərbaycan və Türkiyə müdafiə nazirlərinin Antalya görüşü

**Azərbaycanın müdafiə naziri general-polkovnik Zakir Həsənov Antalya Diplomatiya Forumu çərçivəsində Türkiyənin milli müdafiə naziri Yaşar Gülərlə görüşüb.**



Bildirilib ki, görüşdə hər iki qardaş ölkə arasında hərbi əməkdaşlığın cari vəziyyəti və inkişaf perspektivləri müzakirə olunub, həmçinin regional təhlükəsizlik məsələlərinə dair fikir mübadiləsi aparılıb.

***XQ***

# Ermənistan sülh sazişini də “minalamağa” çalışır

## Bakının tələbləri yerinə yetirilənədək Türkiyənin qapıları İrəvanın üzünə bağlıdır

**Antalyada öz işini davam etdirən IV Diplomatiya Forumu panel müzakirələrdəki çıxışlar, keçirilən ikitərəfli görüşlər ilə verilən açıqlamalarla diqqəti cəlb etməkdədir. Gündəmə gətirilən mövzulardan biri bizim üçün xüsusi əhəmiyyətə malik Türkiyə–Ermənistan münasibətləri olub. Bu mövzu Türkiyə və Ermənistanın normallaşma prosesi üzrə xüsusi nümayəndələri – Sərdar Kılıç və Ruben Rubinyan arasında keçirilən görüşdə müzakirə edilib. Ermənistan nümayəndəsinin sözlərinə görə, görüş müsbət atmosferdə keçib. Amma vəziyyət heç də onun dediyi kimi deyilmiş.**




Son üç ildə Ermənistan bu mövzunu dəfələrlə gündəmə gətirib və hər dəfə özünə sərfəli cavab almağa çalışıb. Amma bu zaman Ankara Bakının tələbləri yerinə yetirilməyincə, bundan sonra sülh sazişi imzalanmayınca Ermənistanla sərhədin açılmayacağını İrəvanın diqqətinə çatdırıb. Antalyada Türkiyənin Ermənistanla münasibətlərin normallaşdırılması üzrə xüsusi nümayəndəsi Sərdar Kılıç “CivilNet” nəşrinə eksklüziv müsahibə verib. Erməni nəşrinin müxbiri ondan Rubinyanla görüşdən aldığı təəssüratı barədə soruşub və Ermənistan–Türkiyə münasibətlərinin normallaşma prosesi, bu istiqamətdə neçə vaxtdır davam edən danışıqların indiki mərhələsinə aydınlıq gətirməsini istəyib.

Kılıç bu məsələnin danışıqlar masasının mövzusu, yaxud hansısa problemin həll prosesi olmadığını bildirib: “Biz bu günə qədər mühüm addımlar atmışıq. Bu yaxınlarda biz tarixi “Ani” körpüsünü bərpa etmək qərarına gəldik. İşçi qruplarımız münasibətlərin bərpası prosesinin texniki tədqiqinə başlayıblar. Tezliklə pilot işlərə başlayacağıq. Biz nizamlanma prosesini sürətləndirmək üçün mümkün olan hər şeyi edirik. Çünki bu, hər iki ölkə və xalq üçün faydalıdır. Düşünürəm ki, Rubenlə yaxşı münasibətlərimiz var. Biz bir-birimizi başa düşürük və prosesi irəli aparmaq üçün əlimizdən gələni edirik”.

Ardınca erməni reportyor sualı daha konkret şəkildə qoyub: “Ermənistan–Türkiyə sərhədinin üçüncü dövlətlərin nümayəndələri üçün nə vaxt açılacağı barədə nə deyə bilərsiniz? Türkiyə rəsmisi suala cavabında məsələ ilə bağlı bundan əvvəl səsləndirdiyi açıqlamasını təkrar edib: “Biz bu məsələ ilə bağlı hələ 2022-ci ildə üçüncü ölkə vətəndaşları və diplomatik pasport sahibləri üçün qərar vermişik. Hazırda texniki detallar üzərində işləyirik. Bunun nə vaxt baş verəcəyini bilmirəm, amma biz çox çalışırıq. Ümid edirəm ki, bu prosesi ən qısa zamanda başa çatdıracağıq”.

Nəhayət, erməni jurnalist onu maraqlandıran və müsahibəsinin məqsədini təşkil edən sualın üzərinə gəlib: – Bu gün siz Ermənistan konstitusiyası məsələsinə toxundunuz. Bu zaman konkret nə demək istədiyinizi izah edə bilərsinizmi?

S.Kılıçın suala diplomatik cavabı belə olub: – Bu, vacib məsələdir və qeyd etdiyiniz kimi, Azərbaycan Ermənistanın konstitusiyasına dəyişikliklər tələb edir. Ermənistan hakimiyyəti artıq bəyan edib ki, onlar da konstitusiyaya dəyişiklik etmək istəyirlər. Amma bu, Ermənistanın daxili işidir. Bu dəyişiklik prosesinin necə və nə vaxt həyata keçiriləcəyinə erməni xalqı və erməni institutları qərar verəcəklər”.

*

Türkiyənin xüsusi nümayəndəsindən özünə sərfəli cavabı ala bilməyən “Civil-Net” müsahibəyə şərhində qeyd edir ki, rəsmi fəaliyyət və diplomatik təmaslara baxmayaraq, iki ölkə arasında normallaşma prosesi simvolik jestlər mərhələsində qalır. Xüsusən də sərhədlərin açılması məsələsində irəliləyiş yoxdur. Saytın qənaətincə, Ermənistan və Türkiyə normallaşmadan danışsa da, hələlik bəyanatlardan hərəkətə keçməyə cəsarət etmirlər. Mövcud dinamikanı nəzərə alaraq, yaxın gələcəkdə ciddi irəliləyişlər olmadan məhdud təmaslar gözləmək mümkündür.

Aydın məsələdir ki, Türkiyə Ermənistanla məlum mövzuda müzakirələr apararkən Azərbaycanın şərtlərini və maraqlarını da nəzərə alır. Ermənistan–Türkiyə münasibətlərinin normallaşması prosesinin özəlliyi ondadır ki, Ankara bu zaman birbaşa Bakı ilə atacağı bütün addımları razılaşdırğını bəyan edir.

Mövzu ilə bağlı Ermənistanın “Verelq” saytı öz versiyasını irəli sürərək yazır ki, iki ölkə arasında diplomatik münasibətlərin normallaşması prosesində ehtimal edilən simvolik addımlardan biri sərhəddəki “Ani” körpüsünün bərpası məsələsinin müzakirəsi olub. Saytın yazdığına görə, bu, qarşılıqlı əlaqə yaratmaq cəhdi kimi qiymətləndirilə bilər, amma bu layihənin praktiki icrası sual altındadır: “Ermənistan konstitusiyasına mümkün dəyişikliklər Bakının ilkin tələbi kimi mühüm müzakirə mövzusu olaraq qalmaqdadır. “Verelq”in Türkiyənin belə şərtlər irəli sürüb-sürməməsi ilə bağlı sualını cavablandıran Kılıç söyləyib ki, baş nazir Nikol Paşinyan bu məsələ ilə bağlı açıqlamalar verib və bu kontekstdə dəyişikliklər edilə bilər.

“Verelq” məsələyə şərhində haqlı olaraq vurğulayır ki, Kılıçın açıqlaması özündə ərazi iddialarını ehtiva edən Ermənistan konstitusiyasının dəyişdirilməsi Ankaranın İrəvana gizli tələblərindən biri olduğunu ortaya qoyur.

Ermənistan–Türkiyə sərhədinin açılması məsələsi ilə bağlı Rusiyanın “RİA Novosti” informasiya agentliyinin sualına cavabında Sərdar Kılıç “bu məsələdə heç bir irəliləyiş yoxdur”, – deyə bildirib. Türkiyəli diplomat Ankaranın prosesi inkişaf etdirmək istədiyini və Ermənistanla təmasda olduğunu vurğulasa da, hazırda danışıqlar üçün konkret tarixin təyin edilmədiyini deyib.

*

“Biz 2023-cü ildən bu yana sülh sazişinin imzalanmasını gözləyirik. Ermənistan konstitusiyasında zəruri dəyişikliyin edilməsi dünya praktikasında olan bir məsələdir. Bu mövzu Azərbaycan üçün olduqca vacibdir”. Bunu Azərbaycan Xarici işlər naziri Ceyhun Bayramov Antalya Diplomatik Forumu çərçivəsində keçirilən paneldə deyib. Nazir çıxışında erməni həmkarı Ararat Mirzoyanın məlum iddiasına da cavab verib: “Azərbaycan konstitusiyasında Ermənistanın mövcud ərazisinə dair heç hansı bir ərazi və torpaq iddiası yoxdur”.

Yeri gəlmişkən, Ankara rəsmisinin erməni və rus media subyektlərinin suallarına cavabları C.Bayramovun bu yöndə açıqlaması ilə üst-üstə düşüb: “Hesab edirik ki, bu zəruri addımlardan sonra sülh sazişinin tamamlanması və imzalanması, iki ölkə arasında dövlətlərarası münasibətlərin qurulması yolunda heç bir maneə olmayacaq”.

Beynəlxalq diplomatik platformanı problemlərini dünyaya car çəkmək fürsəti bilən rəsmi İrəvan burada da fiaskoya uğramağa məhkumdur. Təkcə Türkiyə deyil, artıq dünyanın əksər dövlətləri Azərbaycanın obyektiv və ədalətli mövqeyini dəstəkləyir. Bakının beynəlxalq hüquqa və reallığa söykənən tələblərini yerinə yetirmədən isə dünyaya qapılar Ermənistanın üzünə bağlı qalacaq...

***İmran BƏDİRXANLI***
***XQ***

### Ekspert rəyi



**Tofiq ABBASOV,**
**siyasi şərhçi**

– Bu məsələ ətrafında Ermənistan daim spekulyasiyaya varır. Amma İrəvan onu da yaxşı bilir ki, bu mövzuya yanaşmada Ankaranın və Bakının fikri yekdildir və bunun dəyişilməsini təxmin etmək mümkün deyil. Antalya Diplomatik Forumunda da bu məsələlər müzakirəyə çıxarılır və artıq beynəlxalq gündəliyə daxil edilir. Bu o deməkdir ki, həmin məsələlər barədə bəzilərinin məlumatı yox, yaxud yarımçıq idisə, biz bu boşluqları doldururuq. Həmin prosesdə Türkiyə Azərbaycanı, Azərbaycan da Türkiyəni tamamlayır. Ermənistana gəldikdə isə Türkiyə ilə barışmaq, sərhədlərin açılması onun çoxdankı arzusudur. Məlum problemin unudulmasını, kölgədə qalmasını istəyən İrəvan bu mövzuya, guya, sonradan qayıtmağı düşünür. Əlbəttə ki, bu, bir xülyadır. Amma bütün məsələlərin kompleks halda öz həllini tapması Bakının əsas şərtidir.

Yeni dünya düzəninin hansı əziyyətlə formalaşdığının şahidiyik. Bu prosesi müşahidə edən dünyanın heç bir ölkəsi razılaşmaz ki, hansısa problem müvəqqəti şəkildə həllini tapsın. Çünki bu gün müvəqqəti həll olunan məsələ sonra partlayış formasında ortaya çıxacaq. Ola bilsin ki, Ermənistan hakimiyyəti məhz bu düşüncə ilə hərəkət edir. İrəvan Azərbaycan ərazilərini kütləvi şəkildə minaladığı kimi, siyasi meydana da gec partlayan minalar düzməyə çalışır. Yəni məsuliyyət hissini itirir.

Bakının tələbləri qanuni və məntiqlidir. Bu tələbləri yerinə yetirmədikcə Ermənistan təkcə Azərbaycan üçün deyil, bölgənin bütün ölkələri üçün təhdidlər yaratmaqda davam edəcək. Siyasi etika bunu tələb edir: dövlətlər özlərinin milli qanunvericiliyini elə tərzdə tərtib etməlidirlər ki, o, başqalarına problem yaratmasın. Mütləq qalib Azərbaycanın tələbləri tam haqlıdır və biz gələcəyi düşünərək elə bir sülh müqaviləsini təsvir edirik ki, haylar bundan sonra heç bir problem yarada bilməsinlər. Ermənistan bu məsələdə məsuliyyətli davranmalı, öz istəklərini bölgə dövlətlərinin və beynəlxalq birliyin gözləntilərindən üstün tutmamalıdır. Bu prosesdə Azərbaycanın, Türkiyənin, eləcə də digər ölkələrin davranışı nümunəvidir.

# Şirin su ehtiyatlarına qarşı erməni terroru ekoloji cinayətdir

**Azərbaycanın səth sularının əsasını çay suları təşkil edir. Bunun 65 faizi qonşu ölkələrin ərazilərindən axıb gələn tranzit, 35 faizi isə yerli çaylarıın hesabına formalaşır. Tranzit çaylar Azərbaycan ərazisinə daxil olana qədər, Ermənistan və Gürcüstan ərazilərində sənaye və məişət tullantıları ilə çirklənməyə məruz qalır. Nəticədə, suyun tərkibində biogen maddələrin miqdarı normadan dəfələrlə artıq olur və vətəndaşlarımızın sağlamlığı üçün təhlükə törədir.**

**Elm və Təhsil Nazirliyi Coğrafiya İnstitutunun hidrologiyası və su ehtiyatları şöbəsinin müdiri, coğrafiya elmləri doktoru Rza Mahmudov XQ-yə bildirdi ki,** Gürcüstan ərazisində Xrami çayına qovuşan Debed çayı Ermənistanın



ən çox çirklənmiş çaylarından biridir: “Bu çayın hövzəsində Ermənistanın Alaverdi – Ağtala filiz-mədən rayonunun metallurgiya, kimya və yüngül sənaye mərkəzləri olan Vanadzor, Alaverdi və Stepenavan şəhərləri yerləşir. Həmin şəhərlərin sənaye və məişət tullantıları təmizlənmədən çaya axıdılır. Debed çayı çirklənmə dərəcəsinə görə Zəngi (Razdan) və Oxçuçaydan sonra üçüncü ən çirkli çaya çevrilib.

Bizim araşdırmalara görə, civə, fenol və mis birləşmələri yol verilən qatılıq həddini (YVQH) 2-3 dəfə keçir. İllərlə davam edən bu proseslər nəticəsində Kür çayının sahilyanı sahələri və çayın dibinin çöküntüləri kimyəvi və radioaktiv tullantılarla çirklənməyə məruz qalıb”.

Araz çayında yaranan ekoloji vəziyyət isə daha təhlükəlidir. Kiçik Qafqazın Cənub – Şərq yamacından axan çayların əksəriyyəti Azərbaycanın ikinci ən böyük çayı olan Araza tökülür. Qacaran – Qafan, Mehri – Leyvaz, Zod –Cermuk/Amulsar filiz-mədən rayonları bu ərazidə yerləşir. Təkcə onu demək kifayətdir ki, Qacaran yatağında illik emal gücü 12,8 milyon ton filizdir. Burada kükürd tərkibli zəhərli maddələr ətraf mühit üçün təhlükədir. Qafanda isə illik emal gücü 50-65 min unsiya qızıldır. Burada isə kimyəvi maddə kimi flotasiya reagenləri tətbiq olunur.

Çayın sol qollarından biri olan Zəngi (Razdan) öz suyunun çirklənmə dərəcəsinə görə, Ermənistanda ilk sıradadır. Dağ-mədən sənayesi tullantıları, İrəvandan axan və şəhərin çirkabını özündə daşıyan Zəngi çayı Arazı ölü çaya çevirir.

R. Mahmudov bildirdi ki, Ermənistan ərazisində kəskin çirklənməyə məruz qalan çaylardan biri də Oxçuçaydır: “Çaydan götürülmüş su nümunələrində mis, molibden, manqan, dəmir, sink, xrom və s. kimi ağır metalların miqdarı normadan dəfələrlə artıqdır. Eyni zamanda, çayda bioloji varlıqların kütləvi məhv olması faktları bir daha təsdiq edir ki, onun suları Ermənistan ərazisindəki dağ-mədən sənayesinin tullantıları ilə hədsiz dərəcədə çirkləndirilir. Bu da onu göstərir ki, Oxçuçay, əslində, sənaye tullantılarını Ermənistanın bu bölgəsindən uzaqlaşdıran kollektor rolunu oynayır”.

Onu da qeyd edək ki, Oxçuçay o qədər zəhərlənib ki, burada heç bir canlı yaşamır. Onun suyundan suvarmada istifadə edildiyi Zəngilan rayonu ərazisində torpaqlar da zəhərlənib. Bu gün Zəngilanın allüvi-





al-çəmən torpaqlarının 1–1,5 metr dərinliyində Qacaran və Qafan müəssisələrinin zəhərli maddələri toplanıb.

Yada salaq ki, ərazilərimiz işğaldan azad edildikdən sonra Oxçuçayın suyunun çirklənmə səviyyəsinin müəyyənləşdirilməsi məqsədilə monitorinqlər keçirilib. Bu zaman suyun rəngində ciddi dəyişikliklər və kəskin qoxu müşahidə edilib. Zəngilan rayonunun Şayıflı kəndində Oxçuçayda quraşdırılmış yeni nəsil avtomat hidroloji stansiyalardan ötürülən məlumatların təhlili də çirklənmənin artdığını təsdiqləyir.

Bundan başqa, Əkərək mis-molibden kombinatının ağır metal tərkibli mədən tullantıları Kərçivan çayı vasitəsilə Araz çayına axıdılır. Kombinatın Davazam tullantı anbarının suyu Araz çayına tökülür. Çirkləndiricilər tənəffüs problemləri, nevroloji və xərçəng də daxil olmaqla bir sıra xəstəliklər yaradır. Eyni zamanda, Cənubi Qafqaz regionu üçün vacib içməli su mənbəyi olan Bərgüşad çayı da ciddi şəkildə çirklənir. Bu onu göstərir ki, Hayastanın dağ-mədən sənayesi Azərbaycanın ekosisteminin sıradan çıxmasına səbəb olur. Ermənistanın ərazisindən keçərək ölkəmizə daxil olan çay sistemlərində suyun keyfiyyəti, məişətdə istifadəsi və irriqasiyada tətbiqi beynəlxalq standartlara uyğun deyil.

Hayastanın ərazisində fəaliyyət göstərən dağ-mədən müəssisələrindən atılan zərərli kimyəvi maddələr öz növbəsində transsərhəd çayların suları ilə Araz və Kür çaylarına, oradan isə Xəzər dənizinə tökülür. Və dünyanın bu nadir gölünün ekologiyasına ciddi təhdidlər yaradır. Bu isə problemin qlobal miqyasa keçdiyini göstərir.

R. Mahmudov sonda dedi ki, Azərbaycana Kür çayı vasitəsilə daxil olan sular həm də Gürcüstan ərazisində çirkləndirilir: “Bu çaya, əvvəlcə Gürcüstanın Axalsixe, Borjomi, Xaşuri, Kareli, Qori, Kaspi şəhərlərinin və çayın sahilində olan digər yaşayış məntəqələrinin sənaye müəssisələri və komunal-məişət tullantıları axıdılır.

Daha sonra Tbilisi şəhəri daxilində axan Kür daha ciddi çirklənməyə məruz qalır. Tbilisidə küçələrin leysan kollektorları şəhərin bir çox sənaye müəssisələrinin (dəri istehsalat birlikləri, avtomobil təmiri, elektrik qaynağı, kənd təsərrüfatı maşınları, cihazqayırma, avtomobil parkları və xəstəxanalar) çirkabı birbaşa Kürə axıdır. Şəhər daxilində çayın qəbul etdiyi kiçik qolların (Xevdzmara, Vere, Diqmula, Loçino) çirklənmə dərəcəsi Kürün özündən də çoxdur. Sonra çay Rustavi şəhərindən keçir və burada da şəhərin sənaye və kanalizasiya suları ilə çirklənir”.

Beləliklə, Gürcüstan və Ermənistan ərazilərindən təmizlənmədən birbaşa axar su hövzələrinə axıdılan məişət tullantıları və çirkabın təsiri nəticəsində Kür çayı və onun qollarında biogen maddələrin miqdarı normadan dəfələrlə artıq olur. Bu, regionda və ondan kənarda yaşayan insanların sağlamlığına təhlükə törədir. Sahilboyu ərazilərdə torpaqların kənd təsərrüfatı üçün istifadəsini yararsız hala salır. Həm çaylarda, həm də Xəzər dənizində yaşayan canlıların məhvinə səbəb olur.

Bu məsələyə Azərbaycan Prezidenti İlham Əliyev ADA Universitetində “Yeni dünya düzəninə doğru” mövzusunda beynəlxalq forumda çıxışı zamanı toxundu. Dövlətimizin başçısı dedi ki, Azərbaycan və Ermənistan arasında saziş imzalananda və imzalandığı təqdirdə əlbəttə ki, əməkdaşlığın başlanılmasına heç bir maneə qalmayacaq: “Biz Ermənistan tərəfinin mövqeyini gözləyəcəyik. Bu baş versə, jurnalistlər və ziyalıların mübadilə səfərləri, transsərhəd çaylarla bağlı sessiyalar kimi kiçik addımlar atıla bilər, çünki bu məsələ Azərbaycanı ciddi narahat edir. Çünki Ermənistan Araz çayını çirkləndirir və yeri gəlmişkən, Azərbaycan istiqamətində Kür çayı məsələsi müvafiq şəkildə müzakirə olunmalıdır”.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

# “Ordubad” SES Arazın hər iki tayını nurlandıracaq



**Azərbaycan– İran Dövlət Komissiyasının həmsədrləri – Azərbaycanın Baş nazirinin müavini Şahin Mustafayevin və İranın yol və şəhərsalma naziri Fərzanə Sadeq Ordubad–Marazad Su Elektrik Stansiyası layihəsi üzrə aparılan işlərlə tanış olublar.**

Məlumat verilib ki, Araz çayı üzərində gücü 36 MVt olan Ordubad SES-in ümumi tikinti işlərinin 60 faizi yekunlaşıb və davamı üçün İran tərəfindən işlərin aparılmasına əlavə imkanlar yaradılmalıdır.

Layihə üzrə derivasiya tipli bu stansiya üçün 1,5 milyon kubmetr həcmində su anbarı nəzərdə tutulub. Hidroqovşağın əsas qurğularının tərkibinə elektrik stansiyası, tənzimləyici bənd, su qəbuledici qurğu, derivasiya kanalı, yükləmə hovuzu daxildir. Layihəyə görə, burada metal boru xətti, aparıcı kanal, sutullayıcı və balıqaxıdan qurğular yaradılacaq, stansiyada hər birinin gücü 12 meqavat olan 3 aqreqat quraşdırılacaq. Tənzimləyici dəmir-beton bəndin uzunluğu 235 metr, hündürlüyü isə 12 metr nəzərdə tutulub. Derivasiya tipli kanalın uzunluğu 12738 metr olmaqla, maksimum su sərfi saniyədə 126,6 kubmetr təşkil edəcək.

Muxtar Respublika Energetika Xidmətindən XQ-yə verilən məlumata görə, Ordubad rayonu ərazisində, Araz çayı üzərində inşa edilən Ordubad SES qədim diyarda enerji təhlükəsizliyinin təminatında əhəmiyyətli rola malik olacaq. Hesablamalara görə, gücü 36 meqavat olan bu stansiyanın ildə 190 milyon kilovatsaat elektrik enerjisi istehsal etməsi nəzərdə tutulur. Bu göstərici muxtar respublikanın əvvəlki illərdəki enerji tələbatının təxminən 30 faizini ödəməyə imkan verəcək.

Stansiyaya daxil olan suyun miqdarı əsasən “Araz” su qovşağının məcrasına gələn axından, eləcə də Azərbaycan ilə İran arasında birgə istismar olunan “Araz” SES-in illik və gündəlik iş rejimindən asılı olacaq.

Xatırladaq ki, bu stansiyanın təməli 2017-ci il yanvarın 11-də Prezident İlham Əliyevin Naxçıvan Muxtar Respublikasına səfəri çərçivəsində qoyulub. Dövlət başçısı 2021-ci il mayın 10-da muxtar respublikaya növbəti səfəri zamanı stansiyasının tikintisi ilə tanış olub.

# Qədim şəhərdə yeni yaşayış kompleksi

**Naxçıvan şəhərində genişmiqyaslı yaşayış kompleksinin tikintisi üçün layihələndirmə işlərinə start verilir.**



“MİDA” Məhdud Məsuliyyətli Cəmiyyəti bu məqsədlə müvafiq müsabiqə elan edib. Layihə Naxçıvan şəhəri, Əliqulu Qəmküsar küçəsində 4,98 hektar torpaq sahəsini əhatə edəcək. Layihənin əsas məqsədi müasir və komfortlu yaşayış şəraitinə malik kompleksin inşasını təmin etməkdir.

Layihənin icrası çərçivəsində müasir standartlara cavab verən mənzillərin, sosial infrastruktur obyektlərinin və abadlaşdırılmış ərazilərin yaradılması nəzərdə tutulur.

*XQ*

# Vergi ödəyicilərinə xidmət

**İlin ilk rübündə Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin Vergi ödəyicilərinə xidmət mərkəzləri 11 min 380 şəxsə xidmət edib.**



Mərkəzlərdə qəbul edilənlərə vergi qanunvericiliyi və inzibatçılığı ilə əlaqədar sualların cavablandırılması, vergi uçotu, qeydiyyat, bəyannamələr, cari vergi ödəmələri və digər məsələlərlə bağlı 14 min 966 xidmət göstərilib. Bu ötən ilin eyni dövrü ilə müqayisədə 47,7 faiz çoxdur. Ümumi xidmətlərin 93 faizini 10 xidmət növü (şifahi və hazır sənədlərin verilməsi ilə bağlı xidmətlər istisna olmaqla) təşkil edib.

Yanvar–mart aylarında vergi ödəyicilərinə 319 min 520 məlumatlandırma xarakterli müxtəlif növ bildiriş də göndərilib. onlarla 25 görüş keçirilib, 119 sayda ünvanlı xidmət göstərilib. Həmin dövrdə 782 müraciət üzrə 1326 ASAN İmza sertifikatı verilib.

Qeyd edək ki, Muxtar Respublikasında aprelin 1-dək vergi ödəyicilərinin sayı ötən ilin eyni dövrü ilə müqayisədə 19,2 faiz artaraq 20 min 192 təşkil edib. Bu dövrdə aktiv ƏDV ödəyicilərinin sayı isə 18,9 faiz artaraq 572 olub. Fəal obyektlərin (təsərrüfat subyektlərinin) sayı isə 7,6 faiz artıb və 6005 təşkil edib.

# İmtiyazlı xəstələrə dərman paylanır



**Muxtar respublikada imtiyazlı xəstələrin zəruri dərmanlara əlçatanlığını artırmaq üçün ailə sağlamlıq mərkəzlərində aksiyalara başlanıb.**

İlk olaraq Ordubad rayonunun Dırnıs, Dəstə və Vənənd kənd ailə sağlamlıq mərkəzlərində dərmanların təhvil verilməsi həyata keçirilib. Mərhələli şəkildə davam edəcək bu proses çərçivəsində Naxçıvan Muxtar Respublikası üzrə 32 Ailə Sağlamlıq Mərkəzinin hər birində imtiyazlı dərmanların paylanılması nəzərdə tutulub.

Qeyd edək ki, imtiyazlı dərman vasitələrinin paylanması Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin yaratdığı vahid dərman portalı üzərindən icra edilir. Bu yanaşma prosesin şəffaflığını və effektivliyini təmin edərək, dərmanların düzgün bölgüsünə nəzarət imkanı yaradır.

# NDU-da bədii yaradıcılıq müsabiqə-festivalı



**Naxçıvan Dövlət Universitetində ümummilli lider Heydər Əliyevin anadan olmasının 102, Muxtar Respublikanın yaranmasının 101 illiyinə həsr olunmuş “Bədii yaradıcılıq müsabiqə-festivalı” keçirilib.**

Açılış mərasimində ali məktəbin rektor Elbrus İsayev ənənəvi olaraq keçirilən və bu il dördüncü dəfə təşkil olunan müsabiqə-festivalın mədəniyyətimizə qazandırdığı dəyərlərin mahiyyətindən danışıb. O bildirib ki, müsabiqə özfəaliyyət qruplarında istedadlı gənclərin aşkarlanması, qiymətləndirilməsi və tanıdılması məqsədi daşıyır, onun festival formatında təşmili isə tələbələrin milli vətənpərvərlik, mədəniyyətimizə, incəsənətimizə, milli adət-ənənələrimizə hörmət ruhunda tərbiyəsinə xidmət edir.

Müsabiqədə milli və dünya xalqlarının çalğı alətlərinin ifası, bədii qiraət, vokal, saz, rəqs kateqoriyalarında iştirakçıların təqdimatı izlənilib. Tələbələrdən ibarət özfəaliyyət yaradıcılıq kollektivləri dərnək və studiyalar, solo ifaçılar, bədii qiraətçilər, həvəskar rəqqas və musiqiçilər, eləcə də orkestr və ansambllar, rəqs kollektivləri, solo ifaçılar çıxışlarında bacarıqlarını nümayiş etdiriblər. Çıxışlar münsiflər heyəti tərəfindən qiymətləndirilib.

Bildirək ki, müsabiqə-festival müxtəlif nominasiyalar üzrə təşkil olunub və bütün mərhələlərdən uğurla keçən tələbələr may ayında yekun konsertdə iştirak hüququ qazanıblar.

Münsiflər heyətinin üzvləri Xalq artistləri Mübariz Tağıyev, Təranə Muradova, Gülyanaq Məmmədova, Əməkdar incəsənət xadimi Baba Vəziroğlu, Arslan Növrəsli tələbələr üçün ustad dərsi də keçiblər.

**AMEA – 80**

# AMEA-nın yubileyinə həsr olunmuş konfrans

**AMEA-nın Naxçıvan Bölməsində Azərbaycan Milli Elmlər Akademiyasının yaradılmasının 80 illliyinə və Elm Gününə həsr olunmuş elmi konfrans keçirilib.**





Muxtar respublikada fəliyyət göstərən elmi qurumların əməkdaşlarının iştirak etdikləri “Azərbaycanın elm məbədi” adlı elmi konfransda giriş sözü ilə çıxış edən AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev milli akademiyanın yaranma və inkişaf tarixi barədə məlumat verib. Akademik qeyd edib ki, 1923-cü ildə özülü qoyulan, 1945-ci ildə müstəqil akademiya kimi formalaşan bu çoxsahəli elmi müəssisənin sovet zamanı önəmli yüksəlişi və müstəqillik dövründə tam milliləşməsi ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Ulu öndər müstəqillik şəraitində digər zəruri qurumlar kimi, akademiyanın da normal fəaliyyətini təmin etdi.

Bölmə sədri söyləyib ki, 2001-ci ildə Azərbaycan Elmlər Akademiyasına “milli” statusu verilməsi, 2016-cı ildə “Elm haqqında Azərbaycan Respublikası Qanunu”nun qəbul olunması, 27 Mart Elm Gününün təsis edilməsi, elm sahəsində aparılan islahatlar ölkə elminin problemlərini aradan qaldıraraq onu yeni inkişaf yoluna çıxardı, elmi işçilərin fəliyyətini stimullaşdırdı.

Konfransın davamında Bölmənin Əlyazmalar Fondunun direktoru, dosent Fərman Xəlilov “Azərbaycan Elmlər Akademiyasının yaranmasında Tədqiq və Tətəbbö Cəmiyyətinin rolu”, İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun direktoru, professor Əbülfəz Quliyev “Azərbaycan Elmlər Akademiyası inkişaf yollarında: 1945–1969-cu illər”, Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun direktor müavini, professor Vəli Baxşəliyev “Heydər Əliyev və Azərbaycan Milli Elmlər Akademiyası”, Təbii Ehtiyatlar İnstitutunun direktoru, professor Tofiq Əliyev “Azərbaycan Elmlər Akademiyasının yaranmasından sonra Naxçıvanda fundamental və tətbiqi elm sahələrinin inkişafı”, Batabat Astrofizika Rəsədxanasının direktor əvəzi Ruslan Məmmədov “Azərbaycan Elmlər Akademiyasının yaranması və astronomiya elminin inkişafı məsələləri”, Bioresurslar İnstitutunun direktoru, dosent İsmayıl Məmmədov “Azərbaycan Milli Elmlər Akademiyası 2000–2025-ci illərdə” mövzularında məruzə ediblər.

*XQ*

# Ubeyd mədəniyyətinin izləri aşkarlanıb

**AMEA Naxçıvan Bölməsində “Bülövqayada Ubeyd mədəniyyətinin izləri (Naxçıvan, Azərbaycan)” adlı kitab işıq üzü görüb.**

Yeni elmi nəşri həmmüəllifləri Bölmənin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun direktor müavini, professor Vəli Baxşəliyev, gənc arxeoloqlar Elmar Baxşəliyev, Heyran Həsənova, Zinyət Məmmədova və Qırğızıstan–Türkiyə Manas Universitetinin professoru Nezahat Ceylandır. Əsərin elmi redaktoru akademik İsmayıl Hacıyev, professor Abbas Seyidov və fəlsəfə doktoru Bəhlul İbrahimlidir.

Kitab Babək rayonunun Göynük kəndi yaxınlığında yerləşən Bülövqaya yaşayış yerində 2024-cü ildə aparılmış arxeoloji qazıntıların nəticəsindən bəhs edir. Belə ki, əsərdə qazıntı zamanı aşkar olunmuş maddi-mədəniyyət nümunələri Yaxın Şərq və Cənubi Qafqazın digər Eneolit dövrü abidələrinin tapıntıları ilə müqayisəli şəkildə araşdırılmışdır.

Əsərin girişində Cənubi Qafqazın bəzi qədim abidələrinin Mesopotomiya mədəniyyətləri ilə bağlılığı məsələsinin elmin gündəminə gəlməsindən, mövzu ilə əlaqədar günümüzədək aparılan araşdırmalardan bəhs olunur. “Bülövqaya yaşayış yerində arxeoloji qazıntılar”, “Tikinti qalıqları”, “Əmək alətləri” və “Obsidian və çaxmaqdaşı alətlər” adlı bölmələrdə Bülövqaya arxeoloji ekspedisiyasının apardığı araşdırma, abidə ərazisindəki tikili qalıqlarının strukturu, tikinti texnologiyası, tikililərin istifadə məqsədi, yaşayış yerində tapılmış əmək alətlərinin mahiyyəti, həmçinin istifadə olunan obsidianın mənşəyi




barədə məlumatlar yer alır.

Tədqiqatçıların gəldiyi nəticəyə görə, Bülövqayada məskunlaşmış qədim tayfalar köçmə maldarlıqla məşğul olmuş, Naxçıvan bölgəsi e.ə.V minillikdə Mesopotomiya ilə iqtisadi-mədəni əlaqələri genişləndirmişdir. Qeyd olunur ki, abidədən aşkarlanan keramika nümunələri Ubeyd mədəniyyətinin izlərini daşımaqla bərabər, bölgəyə köç edən Ubeyd tayfalarının zamanla yerli əhali ilə qaynayıb-qarışdığını göstərir. Bu baxımdan Bülövqaya keramikası Ubeyd mədəniyyətinin yerli variantlarından biri kimi səciyyələndirilə bilər.

Kitab Azərbaycan, ingilis və rus dillərində olmaqla 3 dildə hazırlanıb. Bu isə Naxçıvan arxeologiyası ilə bağlı əldə olunmuş elmi yeniliklərin daha geniş ictimaiyyətə çatdırılması və təbliği məqsədi daşıyır. Əsərin ərsəyə gəlməsində 60-a yaxın elmi mənbədən istifadə olunub.

*Səhifəni hazırladılar:*
*T.RÜSTƏMLİ,*
*S.HƏSƏNOV*

# Dəmiryolunda elektron xidmət portalı yaradılıb

**“Azərbaycan Dəmir Yolları” Qapalı Səhmdar Cəmiyyətinin (ADY) əməliyyat səmərəliliyinin artırılması, vətəndaşlara və biznes müştərilərinə göstərilən xidmət keyfiyyətinin yüksəldilməsi məqsədilə yeni elektron xidmət portalı (portal.ady.az) istifadəyə verilib.**

Qurumdan verilən məlumata görə, innovativ platforma istifadəçilərə bir sıra xidmətlərə görə onlayn şəkildə müraciət etmək, sorğularının statusunu izləmək və cavabları operativ əldə etmək imkanı yaradır. Yeni rəqəmsal platforma həm fiziki, həm də hüquqi şəxslər üçün 5 xidmət istiqamətini əhatə edir. Vətəndaş müraciətlərinin elektron qəbulu istiqməti üzrə fiziki şəxslər fərdi müraciətlərini (şikayət, təklif və ərizə) elektron qaydada göndərə bilərlər. Bu xidmət hüquqi şəxslər isə öz təşkilatlarına aid rəsmi müraciətləri rahat şəkildə təqdim etmək imkanı yaradır.

Yük vaqonlarının planlı (depo və əsaslı) təmiri üçün müraciətlərin qəbulu istiqaməti üzrə isə istifadəçilər fərdi və ya şirkət mülkiyyətində olan vaqonlar üçün təmir və texniki xidmətlərdən yararlana bilərlər. Bu xidmət, həm də vaqon və qatarların istismar müddətinin uzadılmasına və təhlükəsizliyin artırılmasına töhfə verəcək. Yeni rəqəmsal platformanın əhatə etdiyi 3-cü istiqamət yük vaqonlarının yuyulması (deqazasiya edilməsi) üçün müraciətlərin qəbulunu nəzərdə tutur. Bu xidmətdən istifadə edən fiziki şəxslər fərdi mülkiyyətlərində olan vaqonlar üçün təmizlik xidmətindən yararlana bilərlər. Hüquqi şəxslər isə öz şirkətlərinə məxsus vaqon və qatarların texniki təmizlənməsi üçün müraciət edə bilərlər.

Digər bir istiqamət isə ümumi istifadəli dəmir yollarında müxtəlif səviyyələrdə mühəndis qurğu və kommunikasiyalarının keçirilməsinə dair texniki şərtin (razılığın) verilməsi üçün müraciətlərin qəbulunu nəzərdə tutur. Belə ki, fiziki şəxslər bu imkandan yararlanmaqla fərdi layihələri üçün texniki məsləhət və dəstək ala bilərlər. Hüquqi şəxslər və dövlət qurumları isə irimiqyaslı layihələrin planlaşdırılması və icrası üçün ekspert məsləhətləri əldə edə imkanı qazanırlar.

Yeni elektron xidmət portalının əhatə etdiyi sonuncu, 5-ci istiqamət dəmiryol infrastrukturunun tikili və qurğularının, o cümlədən dəmiryol xətlərinin tikintisi və yenidən qurulması işlərinin layihələndirməsi üzrə müraciətlərin qəbulu ilə bağlıdır. Portalın bu bölümündə şəxsi və kommersiya məqsədli tikinti layihələrinin hazırlanması və həyata keçirilməsi üçün məsləhət və texniki dəstək xidməti təqdim edilir.

“Azərbaycan Dəmir Yolları” Qapalı Səhmdar Cəmiyyətinin məlumatında o da bildirilir ki, xidmətlərdən istifadə etmək istəyən şəxs elektron portalda qeydiyyatdan keçməli, portaldakı hesabına daxil olaraq xidmət növünü seçməlidir. Daha sonra isə müvafiq forma açılır, istifadəçi həmin formanı doldurur, şəxsi məlumatların istifadəsinə razılıq verir və “göndər” düyməsini sıxır. İstifadəçi şəxsi kabinetdə “Müraciətlərim” bölməsində öz müraciətini və onun statuslarını görə bilir.

Qeyd edək ki, əvvəllər bu xidmətlər yalnız kağız daşıyıcılar üzərindən həyata keçirilirdi. Yeni sistem sayəsində isə fiziki və hüquqi şəxslər “Azərbaycan Dəmir Yolları”nın xidmətlərinə müraciət etmək üçün ofislərə getməyə, kağız sənədlər təqdim etməyə ehtiyac duymayacaqlar. Bütün proses 24/7 rejimində onlayn həyata keçiriləcək. Sistem vasitəsilə sorğular avtomatlaşdırılmış şəkildə müvafiq şöbələrə yönləndiriləcək ki, bu da cavablandırma müddətini əhəmiyyətli dərəcədə azaldacaq.




Eyni zamanda, istifadəçilər öz müraciətlərinin hansı mərhələdə olduğunu real vaxt rejimində izləyəcək, elektron poçt vasitəsilə bildirişlər alacaqlar. İndiyədək isə kağız sənədlərlə işləyərkən statusu öyrənmək üçün yenidən “Azərbaycan Dəmir Yolları” Qapalı Səhmdar Cəmiyyətinə müraciət etmək lazım gəlirdi. Artıq xidmətlərə istənilən yerdən, istənilən cihaz vasitəsilə daxil olmaq mümkün olacaq. Bu, xüsusilə regionlarda yaşayan vətəndaşlara vaxtlarına qənaət etməyə və qurumun xidmətlərindən daha rahat istifadə etməyə imkan verir.

Yeri gəlmişkən, portalın yaradılması prosesi “Azərbaycan Dəmir Yolları” Qapalı Səhmdar Cəmiyyətinin Rəqəmsal inkişaf departamentinin daxili resursları və mütəxəssisləri tərəfindən həyata keçirilib. Yeni sistem hazırlanarkən müxtəlif yaş qruplarının və fərqli rəqəmsal bacarıqlara malik istifadəçilərin ehtiyacları nəzərə alınıb. İstifadəçi yönümlü interfeys sayəsində müraciət prosesi asan və intuitiv şəkildə qurulub. Bu da sistemi hər kəs üçün maksimum əlçatan edir.

“Platforma ADY-nin rəqəmsal transformasiya yolunda atdığı mühüm addımlardan biri olmaqla dəmiryol xidmətlərinin daha rahat, müasir, şəffaf və innovativ şəkildə təqdim olunmasını təmin edəcək. ADY rəqəmsallaşma strategiyasına uyğun olaraq, kağız sənəd dövriyyəsinin azaldılması, kağız istifadəsi nəticəsində ətraf mühitə dəyən zərərin qarşısının alınması məqsədilə xidmətlərin rəqəmsallaşdırılması istiqamətində yeni layihələr həyata keçirməyə davam edəcək. Bu il elektron xidmətlərin siyahısı daha da genişləndiriləcək”, – deyə məlumatda qeyd olunub.

“Azərbaycan Dəmir Yolları” QSC rəqəmsallaşmanı prioritet istiqamət kimi qəbul edərək müxtəlif sahələrdə bu cür həllərin tətbiqini genişləndirir. Bura bilet satışından tutmuş yük daşımalarının izlənməsinə, təhlükəsizlik sistemlərindən real vaxtda məlumat mübadiləsinə qədər bir çox proses daxildir. Rəqəmsal platformalar və analitik alətlər vasitəsilə müştərilərlə münasibətlər daha şəffaf və çevik şəkildə qurulur. Nəticədə, sərnişinlər və tərəfdaşlar daha şəffaf, operativ və etibarlı xidmətlərlə təmin olunurlar. Bu isə öz növbəsində istifadəçi təcrübəsini yüksəldir və müştəri etimadını gücləndirir.

Qurumdan bildiriblər ki, tərəfdaşlarla qarşılıqlı etimada əsaslanan əlaqələrinin qurulması və xidmət keyfiyyətinin artırılması, yəni şəffaflıq təşəbbüslərinə açıqlığı rəqəmsallaşmanın tətbiqini asanlaşdırır. Belə ki, rəqəmsal idarəetmə alətləri vasitəsilə fəaliyyətlərin izlənilə bilməsi, hesabatlılıq və analitik təhlil imkanları həm daxili nəzarəti gücləndirir, həm də beynəlxalq tərəfdaşlarla əməkdaşlığın dərinləşdirilməsinə şərait yaradır.

Bu baxımdan rəqəmsallaşma ADY-nin yalnız texnoloji yenilənməsinə deyil, eyni zamanda, biznes modelinin transformasiyasına, müştəri yönümlü yanaşmanın formalaşmasına və qlobal dəmir yolu şəbəkələri ilə inteqrasiyanın sürətlənməsinə mühüm töhfə verir. Bu proses dəmir yolunun rəqabət qabiliyyətini artırmaqla yanaşı, ölkənin nəqliyyat-logistika potensialının da güclənməsinə zəmin yaradır.

# Ələt Azad İqtisadi Zonası beynəlxalq aləmdə mövqeyimizi yüksəldəcək

**Ələt Azad İqtisadi Zonası (ƏAİZ) İşçi Qrupun ikinci iclasında ökəmizdə sənayeləşmə siyasətinə uyğun olaraq, müasir müəssisələrin qurulduğu, qeyri-neft-qaz sahəsinin inkişafını şərtləndirən mütərəqqi mexanizmlərin tətbiqi nəticəsində böyük uğurlar əldə edildiyi diqqətə çatdırılıb.**



Eyni zamanda, iqtisadiyyatımızın diversifikasiyası baxımından mühüm önəm daşıyan ƏAİZ-nin qısa bir zaman içərisində qurularaq investorların istifadəsinə verilməsinin və beləliklə ölkə iqtisadiyyatının aparıcı drayverlərindən birinə çevrilməsinin böyük önəm daşıdığı bildirilib. Qeyd edilib ki, iqtisadi zonada innovativ texnologiyalardan yararlanaraq xidmətlər göstərən investorları cəlb etmək, həmin sərmayədarların Azərbaycan şirkətləri ilə əməkdaşlığının gerçəkləşdirilməsi nəticəsində iqtisadi inkişafa töhfə vermək, eləcə də yeni iş yerləri yaratmaq əsas hədəflərdən biridir.

Toplantıda xatırladılıb ki, ƏAİZ-də mövcud əlverişli şərait, təklif olunan güzəştlər investorların bu zonaya marağını getdikcə artıracaq. İqtisadi Zona Azərbaycana böyük iqtisadi dividendlər qazandırmaqla yanaşı, ölkəmizin regionda mövqelərini daha da gücləndirəcək, Şərq–Qərb, Şimal–Cənub və Orta Dəhliz beynəlxalq nəqliyyat dəhlizlərində mühüm rolu olan ölkəmizin strateji əhəmiyyəti artıracaq.

İclasda ərazidə reallaşdırılan layihələr, investorların səmərəli fəaliyyəti üçün dayanıqlı infrastrukturun və kommunal xidmətlərin qurulması, karqo hava limanının tikintisi üzrə görülən işlər və növbəti addımlar müzakirə edilib. İqtisadiyyat naziri, İşçi Qrupun rəhbəri Mikayıl Cabbarov, Ələt Azad İqtisadi Zonasının səlahiyyətli qurumunun İdarə Heyətinin sədri Valeh Ələsgərov və aidiyyəti dövlət qurumlarının rəhbər vəzifəli şəxsləri toplantıda iştirak ediblər.

Diqqətə çatdırılıb ki, zonanın yaradılmasında əsas məqsəd qabaqcıl idarəetmə təcrübəsinə uyğun yüksək əlavə dəyərli və ixracyönümlü istehsalı təmin etməkdir. İnnovativ texnologiyalardan istifadə edərək xidmətlər göstərən investorları cəlb etmək, bu şirkətlərin Azərbaycan şirkətləri ilə əməkdaşlığının təmin olunması nəticəsində ölkə iqtisadiyyatının dinamik və dayanıqlı inkişafına töhfə vermək, həmçinin on minlərlə yeni iş yeri yaratmaq da əsas hədəflərdəndir.

Qeyd edək ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda qeyri-neft sektorunun inkişafının təmin olunması, iqtisadiyyatın müxtəlif sahələrinin şaxələndirilməsi, ölkəmizin ixrac potensialının artırılması, xarici investisiyanın cəlb edilməsi, biznes və investisiya mühitinin daha da yaxşılaşdırılması istiqamətində çox vacib layihələr icra olunub. Ələt Azad İqtisadi Zonasının yaradılması bunun bariz nümunəsidir.

Bu layihənin icrası Azərbaycana böyük iqtisadi dividendlər qazandırmaqla yanaşı, ölkəmizin regionda mövqelərini daha da gücləndirəcək, Şərq–Qərb və Şimal–Cənub tranzit-nəqliyyat dəhlizlərində mühüm rolu olan respublikamızın strateji əhəmiyyətini daha da artıracaq. Bu iqtisadi zonanın yaradılması dövlət gəlirlərinin və büdcəyə daxil olan vəsaitin artmasına, yeni investisiyaların cəlb edilməsinə şərait yaradacaq.

# Sosial ödəmələr artıb

**Bu ilin yanvar–mart aylarında məcburi dövlət sosial sığorta haqları üzrə daxilolmalar 1 milyard 474,5 manatdan çox olub. İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin məlumatına əsasən, bu mənbədən daxilolmalar əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 11,7 faiz və ya 154,4 milyon manatdan çox artıb. Hesabat dövründə qeyri-büdcə təşkilatları üzrə daxilolmalar ötən ilin eyni dövrünə nisbətən 13,6 faiz artaraq 963,5 milyon manatdan çox təşkil edib.**



Yanvar-mart aylarında işsizlikdən sığorta haqları üzrə daxilolmalar ötən ilin eyni dövrü ilə müqayisədə 14 faiz artaraq 52,3 milyon manata çatıb. Birinci rübdə qeyri-büdcə təşkilatları üzrə daxilolmalar da 14 faiz artaraq 39,5 milyon manata yaxın təşkil edib. 3 ayda icbari tibbi sığorta haqları üzrə daxilolmalar 2024-cü ilin müvafiq dövrünə nisbətən 11,8 faiz artıb və 260 milyon manatdan çox olub. Qeyri-büdcə təşkilatları üzrə daxilolmalar isə 9,7 faiz artaraq 180,9 milyon manata çatıb.

# “ƏDV geri al” – 46 milyon 88 min manat!

**“ƏDV geri al” layihəsi çərçivəsində fiziki şəxs olan istehlakçılara pərakəndə ticarət və ya ictimai iaşə fəaliyyəti göstərən şəxslərdən alınan mallara (neft və qaz məhsulları, avtomobillər, alkoqollu içkilər və tütün məmulatları istisna olmaqla), tibb müəssisələri və özəl tibbi praktika sahələrində fəaliyyət göstərən fiziki şəxslərin tibbi xidmətlərinə görə ödənilən ƏDV-nin müvəkkil banklar tərəfindən qaytarılan həcmi cari ilin yanvar–mart aylarında 46 milyon 88 min manat olub.**

Dövlət Vergi Xidmətindən verilən məlumata görə, “ƏDV geri al” layihəsi çərçivəsində fiziki şəxs olan istehlakçılara bina tikintisi fəaliyyəti ilə məşğul olan şəxslərdən nağdsız qaydada alınan yaşayış və qeyri-yaşayış sahələrinə görə ödənilən ƏDV-nin yanvar–mart ayları ərzində qaytarılan həcmi 8 milyon 59,8 min manat təşkil edib.



# Sığortalanma sitrus bağlarına da çatdı

**Ölkəmizdə dövlət dəstəyi ilə təqdim olunan aqrar sığorta mexanizmi vasitəsilə limon, naringi və portağal bağlarının sığortalanması mövsümü başlayıb. Bu barədə Kənd Təsərrüfatı Nazirliyindən məlumat verilb.**



Bildilib ki, limon, naringi və portağal bağlarının sahibləri və bu məhsulları becərən fermerlər bağları aqrar sığorta mexanizmi vasitəsilə çoxsaylı risklərdən qoruya bilərlər.

Xatırladaq ki, sitrus bağları Azərbaycanın kənd təsərrüfatında özünəməxsus yer tutur. Statistik göstəricilərə əsasən, hazırda ölkəmizdə 4 min 500 hektardan artıq sitrus meyvəsi bağı var. Bunlardan 3 min 278 hektarı naringi, 703 hektarı limon, 582 hektarı isə portağal bağlarıdır. Sitrusçuluq, əsasən, ölkənin cənub bölgəsində inkişaf edib. Təsadüfi deyil ki, ölkə üzrə limon bağlarının 95 faizi, naringi bağlarının 99 faizi, portağal bağlarının isə faizi cənub bölgəsindədir. Son illər sitrus bağlarının sahəsi yeni salınan bağlar hesabına genişlənməkdədir.

Yeri gəlmişkən, 2024-cü ildə Azərbaycandan xarici bazarlara ümumi məbləği 1 milyon 91 min dollar olan 2343 ton naringi və mandarin ixrac edilib. Aqrar Sığorta Fondu sitrus bağlarını çoxsaylı risklərdən – dolu, fırtına, qasırğa, normadan artıq qar yağıntısı, sel-subasma, şaxtavurma, vəhşi heyvanların hücumu, üçüncü şəxslərin hərəkətləri kimi hadisələrdən sığorta edir.

Aqrar Sığorta Fondunun məlumatına əsasən, ötən il limon, naringi və portağal bağlarına dəymiş zərərlər üzrə fermer və təsərrüfatlara, ümumilikdə, 40 min manatdan çox sığorta ödənişi edilib. Fırtına, qasırğa, sel-subasma və şaxtavurma hadisələrindən zərər çəkmiş limon bağlarına görə 16 min 287 manat, naringi bağlarına görə 13 min 446 manat, portağal bağlarına görə isə 10 min 912 manat sığorta ödənişi həyata keçirilib.

Qeyd edək ki, sığorta haqqına tətbiq edilən 50 faizlik dövlət dəstəyi fermerlərə öz sitrus bağlarını cüzi məbləğ ödəməklə sığortalamağa imkan verir. Belə ki, sığorta haqqının 50 faizini dövlət, 50 faizini isə fermer ödəyir. Lənkəran – Astara iqtisadi rayonunda 1000 manatlıq limon, naringi və portağal meyvəsinin çoxsaylı risklərdən sığortalanması fermerə olduqca kiçik bir məbləğə – cəmi 12 manata başa gəlir.

Eyni zamanda, sitrus bağlarının sahibləri əlavə olaraq meyvə bağlarındakı ağacları ayrıca sığorta edə bilərlər. Bu halda ağac tələf olarsa, fermerə ağacın 3 illik meyvəsinin dəyəri qədər sığorta ödənişi edilir. Bu sığorta məhsulu üzrə sığorta tarifi isə cəmi 0,83 faiz təşkil edir. Məsələn, ildə 30 manatlıq məhsul gətirən naringi ağacının illik sığorta haqqı cəmi 74 qəpikdir. 50 faizlik dövlət dəstəyini nəzərə aldıqda fermer cəmi 37 qəpik ödəməklə ağacı çoxsaylı risklərdən sığorta edə bilər.

Aqrar sığorta məhsulları, əkinlərin və heyvanların sığortalanması şərtləri və sığorta haqları barədə ətraflı məlumatı Aqrar Sığorta Fondunun rəsmi internet səhifəsindən (asf.gov.az), eləcə də 1651 Çağrı Mərkəzinə müraciət etməklə almaq mümkündür.

# 3 aydaXəzərdən 1,5 milyon ton yük aşırılıb

*Cari ilin yanvar–mart aylarında “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” Qapalı Səhmdar Cəmiyyətinin (ASCO) gəmiləri ilə daşınmış yükün həcmi açıqlanıb.*



ASCO-dan verilən məlumata görə, ilin ilk 3 ayında quruma məxsus tankerlərlə, ümumilikdə, 1 milyon 34 min 39 ton maye yük çatdırılıb. Hesabat dövründə bərə gəmiləri ilə 7 min 905 vaqon və 9 min 50 avtonəqliyyat vasitəsi daşınıb. Bununla yanaşı, ötən 3 ayda ASCO-nun universal quru yük gəmiləri 441 min 322 ton yükü lazımi ünvanlara çatdırıb.

*Səhifəni hazırladılar:*
*Vaqif BAYRAMOV,*
*Mirbağır YAQUBZADƏ*
*XQ*

# Azərbaycan–Türkiyə diplomatik həmrəyliyi strateji müttəfiqlikdən güc alır




**Türkiyənin Antalya şəhərində keçirilən IV Antalya Diplomatiya Forumu müxtəlif ölkələrdən nüfuzlu siyasətçiləri, dövlət və hökumət başçılarını, xarici işlər nazirlərini bir araya gətirərək, son illər ərzində region üçün mühüm önəm daşıyan ən əhəmiyyətli məsələlərin və çağırışların müzakirəsi baxımından çox vacib beynəlxalq platformaya çevrilib.**

IV Antalya Diplomatiya Forumunda "Parçalanmış dünyada diplomatiyanı bərpa etmək" mövzusu ətrafında qlobal çağırışların müzakirəsi aparılır. Prezident İlham Əliyevin bu forumda iştirakı isə bir daha göstərir ki, Azərbaycan yalnız regionda deyil, həm də qlobal miqyasda etibarlı tərəfdaş və təşəbbüskar dövlət kimi qəbul edilir. Dövlətimizin başçısının beynəlxalq münasibətlər sahəsində zəngin təcrübəsi, strateji baxışları və praqmatik yanaşmaları onu beynəlxalq platformalarda böyük maraqla qarşılanan Liderə çevirib. Prezident İlham Əliyevin iştirakı ilə keçirilən forumlar və zirvə görüşləri təkcə diplomatik formatda deyil, həm də məzmun və nəticələr baxımından yeni keyfiyyət mərhələsinə yüksəlir.

"TASS"ın baş direktorunun müavini Mixail Qusman mediaya müsahibəsində Antalya Forumunun diplomatiya və qardaşlıq əlaqələrinin möhkəmləndirilməsi üçün mühüm platformaya çevrildiyini, eləcə də bu ənənəvi toplantının siyasi və diplomatik məsələlərin müzakirəsi üçün əsas beynəlxalq platformalardan biri kimi əhəmiyyətinin bir daha təsdiqləndiyini bildirib. Mixail Qusman Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla bərabər, Azərbaycan Prezidenti İlham Əliyevin də tədbirdə iştirakına xüsusi diqqət yetirərək, "bu, Azərbaycanın Türkiyə ilə yaxın dostluq və qardaşlıq əməkdaşlığının daha bir sübutudur" vurğulayıb.

Onun sözlərinə görə, qlobal çağırışlar, o cümlədən Cənubi Qafqaz, Yaxın Şərq, Avropa və Afrikadakı münaqişələr kontekstində "mövqelərin birləşdirilməsi və bir-birini başa düşməsi" mühüm əhəmiyyət kəsb edir. "Azərbaycan və Rusiyanın çox yaxın münasibətləri var. Türkiyə ilə Azərbaycanın daha da sıx əlaqələri var", – deyən M.Qusman 44 günlük müharibədə Türkiyənin Azərbaycanla həmrəy olduğunu xatırladıb.

Antalyada keçirilən görüşlər Azərbaycan–Türkiyə münasibətlərinin hazırkı vəziyyətinə və inkişaf perspektivlərinə dair əhəmiyyətli fikir mübadiləsi üçün geniş imkanlar yaradır. Bu səfər, həmçinin ikitərəfli əməkdaşlığın siyasi, iqtisadi, enerji, nəqliyyat, müdafiə və digər sahələrdə daha da dərinləşdirilməsi baxımından mühüm addım kimi dəyərləndirilir. Bununla yanaşı, hər iki qardaş dövlət bu gün regional təhlükəsizliyin təminatçıları, sülh və əməkdaşlığın təşəbbüskarları kimi çıxış edir. Onların regiondakı fəallığı, Cənubi Qafqazdan Mərkəzi Asiyaya, Qara dənizdən Aralıq dənizinə qədər geniş coğrafiyada sabitliyin qorunmasına verdikləri töhfə beynəlxalq aləmdə yüksək qiymətləndirilir.

Türkiyə–Azərbaycan münasibətlərinin unikal xarakteri və bu əlaqələrin sabitliyi regional inteqrasiya və ortaq inkişaf baxımından nümunəvi model kimi diqqət çəkir. Prezident İlham Əliyevin Antalyaya işgüzar səfəri və Antalya Diplomatik Forumunda iştirakı da təkcə iki ölkə arasında strateji münasibətlərin daha da möhkəmləndirilməsi baxımından deyil, həm də Azərbaycanın beynəlxalq mövqelərinin güclənməsi və sülh təşəbbüslərinin irəlilədilməsi baxımından mühüm hadisədir.

Qardaş Türkiyə ilə müxtəlif sahələrdə münasibətlərin davamlı şəkildə dərinləşməsi iqtisadi sektorda da özünü qabarıq büruzə verir. Hazırda tranzit-logistika, gömrük, İKT, ticarət və s. sahələrdə əlaqələrin möhkəmlənməsi, ərazilərimizin işğaldan azad edilməsi ilə əlaqədar yaranan yeni reallıqlara uyğun olaraq iqtisadi əlaqələrin daha da inkişafı yönündə layihələrin reallaşdırılması diqqət mərkəzində saxlanılır. Bunlarla bərabər, iki dövlət arasında Preferensial Ticarət Sazişinə əsasən, qarşılıqlı ticarət həcminin və məhsul çeşidinin artırılmasına xüsusi önəm verilir.

Azərbaycanın ixrac–idxal proseslərində də qardaş ölkə xüsusi rol oynayır. Respublikamızın keçən ilki ixracının 9 faizinin, idxalın isə 16 faizinin Türkiyə ilə bağlı olması məhz bunun bariz ifadəsidir. Türkiyə ilə ticarətdə Azərbaycan müsbət saldo əldə edir. Belə ki, hazırda Azərbaycanın Türkiyə ilə ixracı 3,5 milyard dollara, idxalı isə 2,3 milyard dollara çatır. Beləliklə, 1,2 milyard dollarlıq müsbət saldo yaranır.

Türkiyə son illərdə Azərbaycana yatırılan investisiyaların və Azərbaycanın yatırdığı sərmayələrin həcminə görə də önəmli yer tutub. Qardaş ölkəyə hazırkı dövrədək 20 milyard dollardan çox, Türkiyə şirkətləri tərəfindən isə Azərbaycana 16 milyard dollardan artıq investisiya qoyulub.

Azərbaycan Cənubi Qafqazın ən böyük enerji təchizatçısı olaraq Türkiyə vasitəsilə Avropaya enerji tədarükü edir. Bu sahədəki əməkdaşlıq xüsusilə 2006-cı ildə istifadəyə verilən Bakı–Tbilisi–Ceyhan (BTC) neft kəməri və Bakı–Tbilisi–Ərzurum qaz kəməri layihələri ilə dərinləşib. Bu layihələr yalnız iqtisadi deyil, həm də siyasi və strateji əhəmiyyətə malikdir, çünki Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında mühüm rol oynayır.

Həmçinin 2020-ci ildən tam fəaliyyətə başlayan TANAP (Trans–Anadolu Qaz Boru Kəməri) layihəsi də Azərbaycan qazını Türkiyə vasitəsilə Avropaya ixrac etmək üçün mühüm bir imkan yaradıb. TANAP Cənubi Qafqazı Avropa bazarına bağlayan əsas enerji layihələrindən biridir və bu, yalnız iki ölkə arasındakı iqtisadi əlaqələri möhkəmləndirmir, həm də Azərbaycanın enerji ehtiyatlarını Avropaya çıxarmaq üçün geniş imkanlar təqdim edir. Bu layihələr, həm də Azərbaycanın və Türkiyənin regional enerji təhlükəsizliyini təmin etməsinə və Avropa bazarları ilə daha sıx əlaqə qurmasına şərait yaradır.

Beləliklə, Türkiyə ilə Azərbaycan arasında enerji sahəsində uğurlu əməkdaşlığın ən mühüm addımlarından biri olan TANAP təbii qaz resurslarının müxtəlifliyini artırmaq üçün indiyədək həyata keçirilən ən strateji layihələrdən biridir. Bu layihə sayəsində ümummilli lider Heydər Əliyevin dövründə başlayan Türkiyə və Azərbaycan arasında enerji sahəsindəki əməkdaşlıq yeni müstəviyə keçib.

*XQ-nin analitik qrupu*

## Ekspert rəyi



**Vüsalə CƏFƏROVA,
İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin Türk Dünyası Araşdırmalar Mərkəzinin rəhbəri**

"Parçalanan dünyada diplomatiyaya sahib çıxmaq" mövzusunda keçirilən 4-cü Antalya Diplomatik Forumu (ADF) qlobal siyasi proseslərin, dövlətlərarası münasibətlərdə yeni çağırışlar və perspektivlərin ən yüksək səviyyədə müzakirə olunduğu nüfuzlu platformadır. Üç gün davam edən tədbirdə dünyanın 140-dan artıq ölkəsindən 4 mindən çox nümayəndə, o cümlədən 20-dən çox dövlət və hökumət başçısı, 70-dən artıq nazir və 60-a yaxın beynəlxalq təşkilatın yüksək səviyyəli təmsilçiləri iştirak edir.

Toplantı çərçivəsində iqlim dəyişikliyi, terrorizmlə mübarizə, humanitar yardım, rəqəmsallaşma, ərzaq təhlükəsizliyi və süni intellekt kimi müasir qlobal çağırışlar üzrə 50-dən çox panel müzakirəsi keçirilir. Bu çərçivədə ADF yalnız diplomatik əlaqələrin gücləndirilməsi üçün deyil, həm də çoxşaxəli qlobal əməkdaşlıq platforması kimi çıxış edir.

Forum çərçivəsində Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan arasında keçirilən görüşdə ikitərəfli və çoxtərəfli əlaqələrin dərinləşməsi üçün yeni imkanlar və prioritet istiqamətlər müzakirə olunub. Vüsalə Cəfərova bildirib ki, Azərbaycan və Türkiyə arasındakı iqtisadi münasibətlər son illərdə təkcə artan ticarət dövriyyəsi ilə deyil, eyni zamanda, investisiya, enerji, nəqliyyat-tranzit və regional əməkdaşlıq sahələrində yeni strateji mərhələyə qədəm qoyub.

Azərbaycanla Türkiyə arasında ticarət dövriyyəsində son 10 il ərzində davamlı artım nəzərə çarpıb. Belə ki, ikitərəfli ticarət dövriyyəsi 2023-cü ildə 6 milyard ABŞ dollarından 2024-cü ildə 7,6 milyard dollara çatıb. Azərbaycanın əsas ixrac məhsullarına xam neft, təbii qaz, neft-kimya məhsulları və kənd təsərrüfatı malları daxil olduğu halda, Türkiyədən idxal olunan məhsullar arasında sənaye avadanlıqları, maşınqayırma komponentləri, tikinti materialları və dərman vasitələri üstünlük təşkil edib. İkitərəfli ticarət əlaqələrinin şaxələndirilməsi və qeyri-neft sektorunun ixracda rolunun artırılması iki ölkə arasında iqtisadi gündəliyin əsas prioritetlərindən biri kimi diqqət çəkib.

Azərbaycanın Türkiyəyə yatırdığı sərmayələr daim strateji xarakter daşıyıb. Azərbaycan Dövlət Neft Şirkəti Türkiyədəki ümumi investisiya həcmini, təxminən, 18 milyard dollar səviyyəsinə çatdırıb. Bu investisiyaların ən mühüm komponentlərindən biri İzmirin Əliağa bölgəsində yerləşən və 6,3 milyard ABŞ dolları dəyərində olan "STAR" Neft Emalı Zavodudur.

2018-ci ildən fəaliyyət göstərən bu nəhəng müəssisə hər il 10 milyon ton xam neft emal etmək gücündədir və Türkiyənin enerji təhlükəsizliyinin təmin edilməsində mühüm rol oynayır. Bununla yanaşı, SOCAR-ın iştirakı ilə fəaliyyət göstərən "Petkim" neft-kimya kompleksi və TANAP layihəsi vasitəsilə təbii qaz nəqli enerji sahəsində tərəfdaşlığın genişliyini əks etdirir. Eyni zamanda, Türkiyə şirkətləri də Azərbaycanın infrastruktur, nəqliyyat və kənd təsərrüfatı sektorlarında səmərəli fəaliyyət göstərir.

Azərbaycan və Türkiyə arasında nəqliyyat və tranzit sahəsində əməkdaşlıq Orta Dəhliz (Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu) çərçivəsində strateji məna kəsb edir. Bakı–Tbilisi–Qars dəmir yolu bu istiqamətdə ən uğurlu layihələrdən biridir. Bundan əlavə, Zəngəzur dəhlizinin açılması və Naxçıvanla quru əlaqəsinin bərpası təkcə ikitərəfli deyil, həm də Türk Dövlətləri Təşkilatına (TDT) üzv ölkələr arasında iqtisadi inteqrasiyanı gücləndirəcək.

İkinci Qarabağ müharibəsindən sonra işğaldan azad olunmuş ərazilərdə həyata keçirilən bərpa işlərində Türkiyə şirkətləri və dövlət qurumları fəal iştirak edir. Füzuli Beynəlxalq Hava Limanının inşası, Ağdam şəhərinin Baş planının hazırlanması, Zəngilan rayonundakı "ağıllı" kənd layihələri bu əməkdaşlığın bariz nümunəsidir. Bundan əlavə, digər türkiyəli tərəfdaşlar vasitəsilə infrastruktur layihələri həyata keçirilir. Qarabağda "yaşıl" enerji zonalarının yaradılması üzrə strateji tərəfdaşlıq da diqqət mərkəzindədir.

Azərbaycan və Türkiyə TDT-nin əsas lokomotivlərindəndir. 2023-cü ilin noyabrında Şuşada keçirilmiş qeyri-rəsmi Zirvə görüşü zamanı qəbul edilmiş qərarlar ticarət, gömrük inteqrasiyası və nəqliyyat bağlantılarının daha da inkişaf etdirilməsinə yönəlib. Şimali Kipr Türk Cümhuriyyətinin (ŞKTC) TDT-də müşahidəçi statusu qazanması da bu təşkilatın siyasi və iqtisadi baxımdan genişlənməsini göstərir. Azərbaycanın ŞKTC-yə dəstəyi Prezidenti İlham Əliyevin 4-cü Antalya Diplomatik Forumu çərçivəsində ŞKTC-nin prezidenti Ersin Tatarla görüşdə bir daha ifadə edilib.

Forum çərçivəsində keçirilmiş yüksəksəviyyəli görüşlər və panel müzakirələr Azərbaycan–Türkiyə münasibətlərinin regional və qlobal səviyyədə nümunəvi bir strateji tərəfdaşlıq modeli olduğunu bir daha təsdiq edir. Ticarət dövriyyəsinin artması, enerji təhlükəsizliyində birgə təşəbbüslər, Qarabağın bərpasında tərəfdaşlıq və Türk dünyasında iqtisadi inteqrasiya bu münasibətlərin əsas sütunlarını təşkil edir.

# Bilik və innovasiya iqtisadiyyatına keçid

## *Azərbaycan Qafqazın süni intellekt mərkəzinə çevrilir*

**XXI əsr artıq informasiya dövrünü geridə qoyaraq innovasiya və süni intellekt əsrinə qədəm qoyur. Süni intellekt sadəcə bir texnologiya deyil. O, cəmiyyətin dərin qatlarına nüfuz edərək iqtisadiyyatı, idarəetməni, təhsili və hətta insan münasibətlərinin yenidən dizaynını gerçəkləşdirir.**

Bu yenilik robotlar və avtomatlaşdırma vasitəsilə yalnız iş proseslərini optimallaşdırmır, həm də insanların düşüncə və qərarvermə tərzini şərtləndirir. Təsadüfi deyil ki, yeni dövr bizdən yeni bacarıqlarla yanaşı, fərqli bir düşüncə tərzi – daha çevik, daha yaradıcı gələcəyə yönələn yanaşmalar da tələb edir. Elə buna görə də hazırda zamanla ayaqlaşmaq üçün texnologiyanı təkcə istifadə etməyi yox, onu anlamağı və yönləndirməyi də bacarmaq lazımdır.

Artıq yaşadığımız dövr bəşəriyyətin texnologiya ilə münasibətlərində əsaslı bir dönüş nöqtəsidir. Bu gün rəqəmsal texnologiyaların sürətli inkişafı, ənənəvi iqtisadi modellərin sərhədlərini aşaraq bilik və innovasiya iqtisadiyyatı kimi yeni bir reallıq yaradır. Rəqəmsal texnologiyaların başgicəlləndirici sürətlə inkişaf etməsi ənənəvi iqtisadi modelləri aşındıraraq yeni bir reallıq yaradır – bu zaman əsas dəyər mənbəyi neft və ya sənaye deyil, bilik və innovasiyadır.

Əgər ənənəvi iqtisadiyyatda əsas dəyər mənbəyi torpaq, əmək və kapital kimi fiziki resurslar idisə, müasir dünyada bu düşüncə tərzi kökündən dəyişib. Artıq ən qiymətli kapital – insan beyninin əsas məhsulu sayılan bilikdir. Bugünkü iqtisadi mühitdə bilik sadəcə bir vasitə deyil, özlüyündə strateji bir sərvətdir. Bilik iqtisadiyyatı elə bir ekosistemdir ki, burada məlumatın toplanılması, təhlili, paylaşılması və bu biliklər əsasında qərarların verilməsi iqtisadi dəyər yaradır. Burada zavod və fabriklər, istehsal müəssisələri qədər, hətta onlardan da artıq yaradıcı düşüncə, tənqidi təhlil və innovasiya qabiliyyəti ön plana çıxır.

Fiziki məhsulların yerini getdikcə intellektual məhsullar – proqram təminatları, dizaynlar, strategiyalar və elmi kəşflər tutur. Məhz bu nöqtədə süni intellekt bilik iqtisadiyyatının mühərrikinə çevrilir. Nəzərə alaq ki, süni intellekt sadəcə insan əməyini əvəz etmir, həm də biliyin sürətli emalı, yeni ideyaların yaradılması və tətbiqi prosesini çoxqütblü şəkildə gücləndirir. Məsələn, əvvəllər bir qrup mütəxəssisin həftələrlə apardığı təhlili süni intellekt bir neçə dəqiqəyə tamamlaya bilir. Eyni zamanda, süni intellekt yeni ideyaların modelləşdirilməsi, ssenarilərin simulyasiyası və potensial nəticələrin öncədən roqnozlaşdırılmasında misilsiz imkanlar yaradır. Beləliklə, informasiya artıq xammal, süni intellekt isə onun emal maşınına çevrilir. Kim bu mexanizmi daha ağıllı şəkildə istifadə edirsə, o da yeni iqtisadi qaydaların qurucusuna çevrilir.

Ənənəvi iqtisadi güc strukturlarından fərqli olaraq, bu gün uğurun açarı biliyə əsaslanan çevik adaptasiya qabiliyyəti və texnologiyaya uyğunlaşma sürətidir. Bundan əlavə, hazırda həm də rəqabətdə ucuz əmək və təbii resurs üstünlüyü kifayət etmir. Rəqabətdə qalib gəlmək üçün daha yaradıcı və ağıllı həllər lazımdır ki, burada da süni intellektin rolu danılmazdır: tibbdə diaqnostikadan tutmuş, kənd təsərrüfatında məhsuldarlığa qədər müxtəlif sahələrdə daha ağıllı qərarlar vermək üçün yeni imkanlar yaranır.



Sevindirici haldır ki, ölkəmiz bu qlobal dalğaya qoşulmaq üçün doğru zamanda hərəkətə keçib. Prezident İlham Əliyevin imzaladığı "Azərbaycan Respublikasının 2025–2028-ci illər üçün süni intellekt Strategiyası" ölkəmizin yaxın 3 il ərzində bu istiqamətdə yol xəritəsi sayıla bilər. Strategiyada qarşıya qoyulmuş tapşırıqların düzgün icrası respublikamız üçün mühüm perspektivlər vəd edir. Xüsusilə, süni intellekt sahəsində yerli kadrların hazırlanması, startapların dəstəklənməsi və tədqiqat mərkəzlərinin yaradılması ölkəmizdə neft sənayesinin intellekt sənayesinə çevrilməsində böyük rol oynaya bilər. Bu baxımdan süni intellekt akademiyasının yaradılması və formalaşdırılması strateji addımdır.

Nəzərə alaq ki, süni intellekt yüksək ixtisas tələb edir. Gənclərimizə beynəlxalq səviyyədə rəqabətədavamlı bilik və bacarıqlar qazandırmaq, texnoloji ekosistem üçün bacarıqlı mütəxəssilər yetişdirmək qarşıda duran mühüm vəzifələrdəndir. Bu sahədə əldə etdiyimiz nəticələr isə ölkəmizdə rəqəmsal iqtisadiyyatın inkişafına təkan verə bilər. Çünki süni intellekt böyük həcmdə məlumatı təhlil edərək ondan mənalı nəticələr çıxarmağa şərait yaradır. Bu isə sahibkarlara daha ağıllı qərarlar qəbul etmək, bazar trendlərini daha dəqiq proqnozlaşdırmaq və riskləri azaltmaq imkanı yaradır.

Digər tərəfdən, süni intellekt insanların hər gün təkrarladığı fəaliyyətlər və vərdişlər toplusunu avtomatlaşdırdığından burada vaxt və resurslara qənaət edilir, nəticədə insan resursları daha yaradıcı işlərə yönəldilir, istehsalatın sürəti və dəqiqliyi artır. Bunun da sayəsində süni intellekt texnologiyalarının daha tez və səmərəli şəkildə tətbiqini gerçəkləşdirən ölkə və şirkətlər qlobal bazarda rəqiblərinə nisbətən üstün mövqe əldə edir. Bu, iqtisadi güc olmaqla bərabər, həm də innovasiya liderliyi deməkdir.

Azərbaycanın yaxın gələcəkdə bu cür innovasiya liderliyinə yiyələnməsi üçün yetərli imkanlar var. Belə ki, Azərbaycan, ilk növbədə, neft-qaz ölkəsi olsa da, buradan gələn kapitalın insan kapitalına çevrilməsi üçün dövlətin özünün aydın mövqeyi və strategiyası var. Digər tərəfdən, respublikamız bu gün Qafqaz regionunda həm gənc əhali potensialı, həm də maddi resurslar baxımından seçilən ölkədir. Bu isə ölkədə innovasiya yönümlü kadr hazırlığı üçün əlverişli baza sayılır. Ən əsası isə Azərbaycan hər zaman yeni texnoloji çağırışlara ilk qoşulan ölkələrdən olub ki, bunu da dövlətimizin başçısının bu yaxınlarda imzaladığı müvafiq strategiyanın mahiyyətindən anlamaq mümkündür.

Beləliklə, süni intellekt sadəcə texnologiya deyil, daha ədalətli, məhsuldar və ağıllı bir cəmiyyətin qurulması üçün önəmli vasitədir. Əgər bu texnologiyanının tətbiqi doğru-düzgün gerçəkləşdirilərsə, gələcəyin iqtisadiyyatında yalnız izləyici yox, həm də oyunun qaydalarını müəyyənləşdirən oyunçulardan biri ola bilərik. Bununla da, Azərbaycanın bir çox sahələrdə olduğu kimi, süni intellektdə də Qafqazın mərkəzinə çevrilməsi reallaşar.

***Səbuhi HƏSƏNOV,***
***XQ-nin bölgə müxbiri***

Təqvim yada salır

# Kosmonavtlar anası

**Bu məqalə 47 il bundan əvvəl o vaxtın çox oxunulan qəzetlərindən birində – “Azərbaycan gəncləri”ndə dərc olunub. Bəs həmin yazının “Xalq qəzeti”ndə təkrar dərc olunmasına səbəb nədir.**

Dünən qəzetin növbəti nömrəsinin planlaşdırılması zamanı yada düşdü ki, aprelin 12-si Kosmonavtika günüdür. Yaşlı həmkarlarımızdan biri hazırda kollektivimizin üzvü olan Qüdrət Piriyevin ilk kosmonavt Yuri Qaqarinin anası, bacı-qardaşı ilə görüşünü və maraqlı yazı hazırladığını yada saldı.

O vaxtlar kosmosun fəthi uğrunda yalnız iki super dövlət – SSRİ və ABŞ bir-biri ilə yarışırdı. Kosmonavtların sayı da bir o qədər çox deyildi. Sonradan digər dövlətlər də onlara qoşuldular. İndi kosmosa çıxanların say-hesabını dəqiq bilən də yoxdur. Amma, dünyada kosmosun ilk fatehinin Yuri Qaqarin olduğunu hamı bilir və qəbul edir. Bu mənada onun anası və yaxınları ilə görüşdən hazırlanmış həmin maraqlı yazını bugünkü oxucularımızın diqqətinə təqdim edirik:






Qədim Qjatskın dolanbac küçələri ilə dəmiryol vağzalına tərəf ev paltarında və başmaqda 58–60 yaşlı bir qadın tələsirdi. O, heç nəyə məhəl qoymadan, yaşına uyğun olmayan bir cəldliklə gah qaçır, gah da yeriyirdi. Qadın tələsik kassaya yanaşıb əlində tutduğu onluğu uzadaraq:

– Moskvaya tez bir bilet verin, – dedi.

Kassir əvvəlcə bileti ona uzatdı, 2 manat 90 qəpik çıxdıqdan sonra pulun qalığını qaytarmaq istəyəndə isə qadın artıq yox idi.

– Ay xala, pulunuzun qalığını alın.

Ancaq heç kəsdən cavab gəlmədi...

Həmin qadınla qatara oturan tanış adamlar onu göstərərək, “Qaqarinadır”, "Yuri Qaqarinin anasıdır" – deyə pıçıltı ilə bir-birinə nişan verirdilər. Hamı onun ətrafında toplaşmış, bütün baxışlar həsədlə bu bəxtəvər anaya dikilmişdi. Qadın isə elə bil heç nə görmür, hiss etmirdi. Onun fikri də, ürəyi də oğlu ilə birlikdə kosmosda uçurdu. 1961-ci il aprelin 12-si idi...

Şəhərin mərkəzində kosmosun ilk fatehinin şərəfinə ucaldılmış heykəlin yanından keçərək Qaqarin küçəsi ilə üzüaşağı düşürəm.

Budur, Qaqarin küçəsi, 106. Taxta hasara alınmış geniş və səliqəli həyətin ortasındakı birmərtəbəli evin divarına vurulmuş mərmər lövhə diqqəti cəlb edir.

Lövhədə qızılı hərflərlə yazılmışdır: "İlk təyyarəçi kosmonavt Yuri Alekseyeviç Qaqarinin valideynlərinin evi". Küçənin o biri tərəfində eynilə buna bənzər bir ev də vardı. Həmin evin divarına vurulmuş lövhədə “Yuri Alekseyeviç Qaqarinin xatirə muzeyi” sözləri yazılmışdır. Muzeyin qarşı tərəfində isə şüşə vitrində Yuri Qaqarinin 78–78 MOD nömrəli QAZ-21 markalı şəxsi avtomaşını dururdu.

Sonradan öyrəndim ki, hər iki ev Yuri Qaqarinin kosmosa çıxdığı il tikilmişdir.

Qaqarinlər ailəsi Qjatsk rayonunun (şəhər 1968-ci ildən Qaqarin adlandırılmışdır) Kluşino kəndində yaşamışdır. Yoxsulluqla yaşayan ailə müharibədən sonra, 1946-cı ildə Qjatsk şəhərinə köçmüşdür. Deyirlər, muzeyin yerləşdiyi bina inqilaba qədər Qaqarin familiyalı bir knyazın malikanəsi olmuşdur. Yurinin kosmosa uçuşundan sonra həmin nəslin xaricdə yaşayan tör-töküntüləri özlərini Qaqaringilin qohumları kimi qələmə verməyə çalışmışdılar. Yuri Qaqarin bir dəfə SSRİ EA-nın Alimlər evində keçirilən mətbuat konfransında bildirmişdir ki, bizim knyaz Qaqarin adlı heç bir qohumumuz olmamışdır...

Qapının döyülməyi ilə açılmağı bir oldu. Qarşımda orta boylu, çöhrəsi qırışlarla örtülmüş, kəndli qadınlara məxsus sadə dəbdə geyinmiş, otağın içində belə ayağına keçə çəkmə almış bir qoca qadın dayanmışdı. Ürəyimdən ani olaraq “Görəsən özüdürmü?" sualı keçdi. O, qocalara xas olan mülayimliklə:


Юным читателям
газеты „Азербайджан
гянджляри"!
Желаю успехов.
В новом 1979 году
быть смелыми, добрыми,
мужественными и
преданными нашей
Любимой Родине
каким был мой сын
Юра. По матерински
обнимаю Вас. Гагарина А.

А. Гагаринанын автографы.

– Xoş gəlmisiniz, – dedi, – keçin, paltonuzu soyunun. Deyəsən, soyuqdan donmuşsunuz? – sonra da, cavab gözləmədən soruşdu: – Yəqin ki, indi sizdə belə soyuqlar yoxdur?

Bəli, o özü idi. Yol çantamdan Anna Timofeyevna üçün sovqat götürdüyüm üç ədəd narı sıxıla-sıxıla çıxarıb dəhlizdəki stolun üstünə qoyuram.

– Nə qəşəng narlardır? Çox sağ olun, məni yaman sevindirdiniz, – deyə dilağız edir və narları götürüb ehmalca tumarlaya-tumarlaya mətbəxə keçir.

– Verərəm balalarıma. Yəqin ki, sevinərlər.

Anna Timofeyevnanın mənzili üç otaqdan və mətbəxdən ibarətdir. Qab-qacaq şkafını, televizoru, radio qəbuledicini, soyuducunu və yataq otağındakı iki çarpayını götürsən, bura yaşayış mənzilindən daha çox xatirə muzeyini xatırladır: portret, şəkil, kiçik büst, ağac və dəmir üzərində Yurinin təsvirləri, kosmosla bağlı müxtəlif maketlər... Hara baxırsan, Yurinin doğma siması, tanış təbəssümü ilə qarşılaşırsan. Bu təbəssümdə nə qədər təmizlik, nə qədər ülvilik var!

Bir şəklin önündə xeyli dayanmalı olursan. O vaxt SSRİ Ali Soveti Rəyasət Heyətinin Sədri vəzifəsində işləyən L.İ.Brejnev Böyük Kreml Sarayında Yuri Qaqarinə Sovet İttifaqı Qəhrəmanının "Qızıl Ulduz" medalını və Lenin ordenini təqdim etdikdən sonra onunla birlikdə xatirə üçün şəkil çəkdirmişdir. Bir qədər arxa planda isə qəhrəmanın atası, anası, həyat yoldaşı, qohumlar və dostlar görünür.

Başqa bir fotoşəkil. Baş konstruktor, akademik Sergey Pavloviç Korolyov ciddi görkəmdə, bir qədər də həyəcanlı dayanıb, Yuri isə gülümsəyərək, düz onun gözlərinin içinə baxır. İstər-istəməz akademik Korolyovun xatirələri yada düşür:

"Starta hazırlıq günlərində hamının qayğısı, həyəcanı, narahatlığı başından aşanda təkcə o, sakit, hətta şən görünürdü. Üzündən gülüş tökülürdü..." "Nə olub ki, həmişə gülümsəyirsən" – deyə ondan soruşdum. "Bilmirəm. Görünür, yüngül adamam" – dedi. Mən isə fikirləşdim: "Təki planetimizdə belə "yüngül" adamlar çox olaydı...".

Yurinin anası ilə çəkdirdiyi şəkil də maraqlıdır. Şəklin çəkildiyi gündən 18 il keçir.

Gah şəklə, gah da bayaqdan stol arxasında sakitcə oturub məndən sual gözləyən Anna Timofeyevnaya dönüb baxıram. Anna Timofeyevna çox düşüb bu 18 ildə.

Düşər də! Yuri kimi oğlun dağına hansı ana dözər ki?! Dağ kimi Aleksey İvanoviç heç beş il tab gətirmədi...

Anna Timofeyevna həyat yoldaşı haqqında səmimiyyət və mərhəmətlə danışır:

"Ağır xasiyyətli, inadkar olsa da, gözəl insan və yaxşı dülgər idi. Yuraya da altıncı sinifdən sonra elə hey "Get, sənət məktəbinə gir, sənət öyrən" – deyərdi.

Yuranın ölümündən sonra lap əldən düşmüşdü. Ağır eşidir, hərəkət edə bilmirdi”.

İnişil Anna Timofeyevnaya daha bir kədər üz verdi. Ağır xəstəlik sonbeşiyi Borisi də 40 yaşında ondan ayırdı. "Borya Yuraya çox oxşayırdı. Boy-buxunu, danışığı, xasiyyəti elə bil özüydü”, – deyə ana köksünü ötürdü.

– Amma deyirlər uşaq vaxtı bir-birilə heç keçinməyiblər, – deyə qəsdən söhbətin mövzusunu bir qədər irəli çəkməyə çalışdım.

– Hə, olurdu. Valentinlə Zoya yaşca böyük idilər. Yura Boryadan iki yaş böyük idi.

Həmişə bir yerdə oynardılar. Amma Yura yaman nadinc idi. Bir dəfə şüşə qırıntısı ilə oynayarkən vurub Boryanın başını yarmışdı.Yura qorxusundan düz iki gün evə gəlmədi.

– Anna Timofeyevna, Yuridə təyyarəçiliyə, uçmağa meyl lap uşaqlıqdan vardı, yoxsa bu təsadüfi oldu?

– Səhv eləmirəmsə, müharibə illərində Kluşino üzərində gedən hava döyüşlərinin ona böyük təsiri oldu. Ancaq onu bilirəm ki, müharibədən sonra o, tez-tez atasının alətlərini götürər, müxtəlif təyyarə modelləri düzəldərdi. Təyyarəçilər haqqında əzbərdən şeirlər söyləyirdi. Yanımda o qədər şeir demişdi ki, bəzisini məndə əzbərləmişdim. Eh. Qocalıq hamısını unutdurub. Gərək ki, biri beləydi:

**Я хочу как Водопьянов**
**Быть страны своей пилотом.**
**Чтобы слетать среди туманов,**
**Управляя самолетом...**

Anna Timofeyevna yavaş-yavaş, çaşmadan, təmkinlə, səbrlə danışırdı. Bu qadın 75 ildə həyatın hər üzünü görmüşdü. Pis günlər, çətin günlər də görmüş, yaxşı, unudulmaz günlər də. Elə günlər olub ki, özünü dünyada ən xoşbəxt, ən bəxtəvər ana hesab edib. Elə günlər də olub ki, özünü dünyanın ən bədbəxti sayıb.

Ən xoş gün: 12 aprel 1961-ci il. Moskva vaxtı ilə saat 10.01 dəqiqədir. Bütün dünya Moskvanı dinləyir. Diktor Levitanın təntənəli, bir qədər də həyəcanlı səsi Qjatsk şəhərinə də xoş xəbər gətirir: "1961-ci il aprelin 12-də dünyada ilk dəfə Sovet İttifaqında, içərisində insan olan "Vostok" kosmik gəmi-peyki Yerin orbitinə çıxarılmışdır. "Vostok" kosmik gəmi-peykinin pilot-kosmonavtı Sovet Sosialist Respublikaları İttifaqı vətəndaşı, mayor Yuri Alekseyeviç Qaqarindir".

Anna Timofeyevnanın o səhər başı işə elə qarışmışdı ki, radionu açmaq belə fikrindən çıxmışdı. Bu vaxt böyük gəlin, Valentinin arvadı Mariya qaça-qaça gəlib qışqırdı: "Tez olun, radionu açın! Bizim Yurka kosmosdadır!...".

Sevincdənmi, həyəcandanmı, yaxud ilk dəfə eşitdiyi "kosmos" sözünün qorxusundanmı, həmişə özünün soyuqqanlılığı, təmkini və səbri ilə fərqlənən ananın dizləri tutuldu, oturdu. Bir qədər toxdadıqdan sonra yaylığını alıb elə ev paltarında qapıdan çıxa-çıxa:

– Mən getdim Valyanın yanına. Uşaqları balacadır, indi onu tək qoymaq olmaz, – deyərək dəmiryol vağzalına tərəf üz qoydu...

Qəzetlərdən: "İyirminci əsrdə xoşa gələn heç bir hadisə olmasaydı belə, təkcə bu böyük gün üçün yaşamağa dəyərdi".

Qəzetlərdən: "Mərakeşin Ucda şəhərinin sakini tacir Məhəmməd ət-Tacının oğlu olmuşdur. Ata oğlunu Qaqarin adlandırmışdır".

Ana da bu sətirləri oxuyub, fərəhlənir, taleyinə, bəxtinə "min şükür" deyirdi.

Ancaq narahatliq onu bir an belə tərk etmirdi. Hər görəndə Yuriyə tapşırırdı ki, özünü gözlə, ehtiyatlı ol. Elə bil ürəyinə nəsə dammışdı:

Ən dəhşətli gün: 27 mart 1968-ci il. Yenə də həmin radio, həmin səs. Lakin bir qədər titrək və kədərli: "Sov İKP Mərkəzi Komitəsi, SSRİ Ali Sovetinin Rəyasət Heyəti və SSRİ Nazirlər Soveti dərin hüznlə bildirirlər ki, dünyanın ilk kosmos fatehi, SSRİ-nin məşhur təyyarəçi-kosmonavtı, Sov İKP üzvü, SSRİ Ali Sovetinin deputatı, Sovet İttifaqı Qəhrəmanı, polkovnik Yuri Alekseyeviç Qaqarin 1968-ci il martın 27-də təyyarədə məşq uçuşu zamanı qəza nəticəsində faciəli surətdə həlak olmuşdur".

Anna Timofeyevnanın həmin günü təsvir eləməyə dili gəlmədi. Bir-iki kəlmə danışmışdı ki, qəhərləndi, gözləri doldu, iki damla yaş seyrək kirpiklərinin arasından süzülərək üzündəki qırışlarla çənəsinə doğru yuvarlandı. Elə bil bu qırışları göz yaşları açmışdı.

Bu vaxt qapı döyüldü. İçəri orta yaşlı bir kişi ilə qadın daxil oldu. Hər ikisi növbə ilə gəlib Anna Timofeyevnanın üzündən öpdü. Anna Timofeyevna əvvəlcə məni onlara, sonra isə onları mənə təqdim etdi. "Oğlum Valentin və qızım Zoyadır. Siz söhbət edin, mən bu dəqiqə gəlirəm", – deyib mətbəxə keçdi.

– Gözəl ananız var, – deyə mən üzümü Valentinə və Zoyaya tutdum. Zoya Alekseyevna ah çəkərək yavaş-yavaş danışmağa başladı:

– Belə deyildi bizim anamız. Deyən-gülən idi, duzlu-məzəli söhbətlərindən doymaq olmurdu. Yuranın, Boryanın, atamın dərdi onu çox saldı. Amma darıxmağa qoymuruq, tez-tez ona baş çəkirik. Şagirdlər, tələbələr, başqa respublikaların şəhərimizdə zərbəçi komsomol tikintilərində işləyən gənc elçiləri onun yanına gəlir, müxtəlif yerlərə dəvət edirlər. Səhv etmirəmsə, Bakıdan gələn gənclərdən bir qrupu da onun qonağı olmuşdur. Bilməmiş olmazsınız, gənclərin vətənpərvərlik tərbiyəsindəki böyük xidmətlərinə görə və anadan olmasının 70 illiyi münasibətilə anam Qırmızı Əmək Bayrağı ordeninə layiq görülmüşdür.

Kosmonavtlar onunla sıx əlaqə saxlayırlar. Ötən il dekabrın 21-də, anadan olmasının 75 illiyində kosmonavtlardan bir dəstəsi gəlmişdi. Həmişə deyirlər ki, Anna Timofeyevna təkcə Yuranın deyil, bütün kosmonavtlar nəslinin anasıdır.

Onlar anamı Ulduz şəhərciyinin fəxri vətəndaşı seçmişlər. Elə o da kosmonavtları bizi istədiyi qədər, bəlkə bizdən də artıq sevir.

– Valentin Alekseyeviç, ananız haqqında bəlkə sizin də deyiləsi sözünüz var?

– Nə deyim ki. Anam haqqinda Yura öz kitablarında, söhbətlərində o ki var danışıb. "Kosmosa yol" əsərində yazır ki, qazandığım bütün nailiyyətlər üçün ona minnətdaram... Anamı mən çox sevirəm. Uçuş zamanı hey onun haqqında düşünürdüm...

Bu vaxt Anna Timofeyevna əlində iki fincan çay gətirib stolun üstünə qoydu.

– Deyirlər, Qafqazda çayı çox sevirlər. Azərbaycan çayından dəmləmişəm, qonaq olun...

Sonra bir də mətbəxə qayıtdı. Bu dəfə əlində üç narla içəri girdi, övladlarına müraciətlə:

– Alın, hərənizə biri, bu da Yuranın payı, – deyib narın birini şkafın gözünə qoydu...

Mən bu mehriban, qayğıkeş qadına – kosmonavtlar anasına öz təşəkkürümü bildirib ayağa qalxdım. Salamatlaşarkən Anna Timofeyevna kitab rəfindən bloknot və qələm götürərək dedi:

– Bilirsiniz, jurnalistlərlə tez-tez görüşməli oluram. Unutmamaq üçün onların familiyalarını qeyd edirəm. Siz bayaq özünüzü təqdim etdiniz, ancaq adınız dilimə yatmadığı üçün yadda saxlaya bilmədim. Zəhmət olmasa bir də təkrar edin.

Mən də dedim...

***Qüdrət PİRİYEV,***
***“Azərbaycan gəncləri”nin xüsusi müxbiri***

***(23 yanvar 1979-cu il)***

# YAP Sədrinin müavini Antaliya Forumunda

**Aprelin 12-də IV Antalya Diplomatiya Forumu çərçivəsində Yeni Azərbaycan Partiyası Sədrinin müavini – Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov ilə Şimali Kipr Türk Cümhuriyyətinin Baş naziri, Ulusal Birlik Partiyasının Sədri Ünal Üstel arasında görüş keçirilib.**




Görüşdə xalqlarımız arasında münasibətlərin tarixi ənənələrə, ortaq dəyərlərə, dostluq və qardaşlıq prinsiplərinə əsaslandığı vurğulanıb. Azərbaycan Respublikası ilə Şimali Kipr Türk Cümhuriyyəti arasında son illərdə sıx təmasların olduğu qeyd edilərək müxtəlif sahələrdə qarşılıqlı faydalı əməkdaşlıq üçün geniş imkanların mövcudluğu bildirilib.

Görüş əsnasında Azərbaycan Prezidenti İlham Əliyevin mənəvi-siyasi dəstəyinin Şimali Kipr Türk Cümhuriyyəti üçün böyük əhəmiyyətə malik olduğu vurğulanıb. Türk dünyasında əməkdaşlığın dərinləşdirilməsinin hər iki ölkə üçün mühüm prioritet olduğu bildirilərək bu xüsusda həyata keçirilən fəaliyyətin əhəmiyyəti qeyd olunub.

***XQ***

# Qərbi Azərbaycan İcması AŞPA prezidentinin böhtanını pisləyib

**Qərbi Azərbaycan İcması AŞPA prezidenti Teodoros Rusopulosun “Alpha News” mətbuat orqanına verdiyi müsahibəsində Azərbaycana münasibətdə ifadə etdiyi irqi ayrı-seçkilik, böhtan və qərəzlə dolu fikirlərini sərt şəkildə qınayır. Bununla bağlı Qərbi Azərbaycan İcmasının yaydığı bəyanatda vurğulanıb:**

“T.Rusopulosun qaba, məsuliyyətsiz danışığı bir daha AŞPA-nın mənəvi iflasını göstərir.

Azərbaycanın Ermənistanın otuz illik işğala son qoymasına və beləliklə, 700 mindən artıq azərbaycanlı məcburi köçkünün öz evlərinə qayıtması imkanı əldə etməsinə “kədərlənən”, Ermənistandan qovulmuş yüz minlərlə azərbaycanlının qayıdış hüququna faktiki olaraq qarşı çıxan Rusopulos kimi irqçilərin AŞPA-da təmsil olunmaları insan hüquqları anlayışına təhqirdir.

Qərbi Azərbaycan İcması Avropa ictimaiyyətinə və sağlam düşüncəli siyasi qüvvələrə müraciət edərək, onları Avropa qitəsində qarşıdurma, irqçilik yayan və kimə xidmət etdikləri bəlli olmayan bu ünsürlərə qarşı mübarizə aparmağa çağırıb.

***XQ***

**Bəxtiyar Vahabzadə – 100**

# “Vətən bizim namusumuz...”

## *İstiqlal şairinin vətəndaşlıq poeziyası*

**Məlum olduğu kimi, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 21 fevral 2025-ci il tarixində “Bəxtiyar Vahabzadənin 100 illik yubileyinin qeyd edilməsi haqqında” sərəncam imzalayıb. Tanınmış ədəbiyyatşünas alim, filologiya elmləri doktoru, professor, AMEA-nın həqiqi üzvü olmuş Xalq şairi Bəxtiyar Vahabzadə bütün əsərləri sevilə-sevilə oxunan böyük söz adamı idi. Onun yaradıcılığına hansı yöndən yanaşsan, bədiiliyi, dərinliyi ilə seçilir və yaddaşlara hakim kəsilir.**

Bugünlərdə yubileylə əlaqədar AMEA Humanitar Elmlər Bölməsinin Elmi şurasında Ədəbiyyat İnstitutunun Cənubi Azərbaycan ədəbiyyatı şöbəsinin baş elmi işçisi, filologiya elmləri doktoru, dosent Esmira Fuadın təqdimatında “Bəxtiyar Vahabzadənin ictimai-fəlsəfi dünyasına qısa bir baxış” adlı elmi məruzə dinlənilib. “XQ”yə açıqlamasında alim bu barədə məlumat verib.

– Əvvəla qeyd edim ki, Prezident sərəncamı imzalanandan sonra AMEA Rəyasət Heyətinin növbəti iclasında sərəncamın icrası ilə bağlı qarşıda duran vəzifələr müzakirə olunub. Akadmiyanın prezidenti, hörmətli akademikimiz İsa Həbibbəyli şairin yubileyinin nəinki ölkəmizdə, bütün Türk dünyasında qeyd olunduğunu, TÜRKSOY-un 2025-ci ili “Bəxtiyar Vahabzadəni Anma İli” elan etdiyini bildirib və müvafiq tapşırıqlarını verib.



Bölməmizin elmi şurasında yubileylə bğlı geniş tədbirlər planı da tasdəqlənib. Buraya “Bəxtiyar Vahabzadənin yaradıcılığında milli kimlik və istiqlal” mövzusunda doktorant və dissertantlar üçün elmi seminar, Ədəbiyyat İnstitutu və şairin Şəkidəki ev-muzeyinin birgə məclisi, Dilçilik İnstitutunda “Bəxtiyar Vahabzadənin yaradıcılığında ana dili sevgisi”, Folklor İnstitutunda “Bəxtiyar Vahabzadə yaradıcılığının folklor konteksti” mövzularında sessiyalar, monoqrafiya nəşri, “Azərbaycan ədəbiyyatşünaslığı” jurnalının yubiley münasibətilə xüsusi nömrəsinin çapı daxildir.

Sonra bizim institutda “Ədəbiyyatımızın Bəxtiyarı” adlı elmi sessiya keçirilib. Görkəmli sənətkarın 100 illik yubileyi ilə bağlı AMEA-nın elmi müəssisə və təşkilatlarında, regional elmi bölmə və mərkəzlərində silsilə tədbirlərin keçiriləcəyi, yeni nəşrlərin hazırlanacağı bildirildi. Milli Məclisin deputatı Cavanşir Feyziyev, filologiya elmləri doktorları Vaqif Yusifli, Elnarə Akimova, Əlizadə Əsgərli və mən məruzələrlə çıxış etdik. Mənim mövzum Bəxtiyar Vahabzadənin yaradıcılığında ana dilinə aid idi.

Şura iclasında təqdim etdiyim məruzə isə şairin elmi-fəlsəfi dünyası mövzusunu əhatə edirdi. Xüsusi vurğuladım ki, hər kəsin görə bilmədiyini görə-görə, hər kəsin yazmağa cəsarət etmədiyini sehirli sözlərə çevirə-çevirə, ən önəmlisi, insan oğlunun könül dünyasındakı fırtınaları, özü-özünü anlaya bilməsi yolunda çəkdiyi iztirabları, daxili dünyasındakı qarşıdurmaları və bu məşəqqətli yollarda, mənəvi saflaşma prosesində qüsurlarının olmasını anlaya-anlaya, nənəsinin danışdığı nağılları, babasının insan əməyinə verdiyi dəyəri xatırlayaraq, dünyanın haradan başlanıb, harada bitdiyini çözə-çözə Bəxtiyar Vahabzadə olub. Toxunduğu mövzu və hadisələri yalnız görüb müşahidə etməklə kifayətlənməyən, zəngin fantaziyası ilə həqiqətləri yazan, yaşadığı hiss və duyğuları səmimi şəkildə ifadə edən həssas bir şair kimi sevilib.

***Özündə ozünü sən görə bilsən,***
***Yəqin bil, ey insan, təmizlənərsən!***

Bəxtiyar Vahabzadənin qələmə aldığı poemaların hər biri ayrı-ayrılıqda mükəmməl sənət əsəri olmaqla, qapsadığı məna tutumu, fəlsəfi içəriyi ilə şeirləri qədər diqqətcəkən, cəlbedici və yaddaqalandır. Bilmirsən ki, hansını ilkin olaraq dilə gətirəsən, məziyyətləri barədə söz deyəsən, təəssüratlarını bölüşəsən, hansına daha cox üstünlük verəsən?! “Şəbi-hicran”amı, “Gülüstan”amı, “Latin dili”nəmi, “Atılmışlar”amı, “Muğam”amı, ya “Etiraf”amı? Epik şeirin ustadı olduğunu sözsüz təsdiqləyən “Amerika gözəli”, “Bağışlayın, səhv olub”, “Ləyaqət”, “Leninlə söhbət”, “İki qorxu”, “Qiymət”, “Qəm içində sevinc”, “Vətən mənəm, mən Vətənəm”, “Hər baharın öz qaran-quşu”namı?

Onore de Balzak “Milləti ədəbiyyatı olan çox böyük topluluq” sayırdı. Mehmet Emin Yurdakulsa: “Bırak beni haykırayım, susarsam, sen matem et! Unutma ki, şairleri haykırmayan bir millet sevenleri toprak olmuş öksüz çocuklar gibidir…” – deyirdi. Bəxtiyar Vahabzadə hər iki azman sənətkarın söylədiklərini əsərləri və istiqlal uğrunda savaşı, ardıcıl surətdə apardığı mübarizə ilə təsdiqlədi...

Dramaturq kimi də tanınan sənətkar müasir mövzularda qələmə aldığı “İkinci səs”, “Yağışdan sonra”, “Yollara iz düşür”, “Hara gedir bu dünya?”, “Cəzasız günah”, “Rəqabət”, “Özümüzü kəsən qılınc” kimi lirik-fəlsəfi-psixoloji pyeslər araya-ərsəyə gətirib. Fəlsəfi dərinliyi, ictimai-siyasi yönü, kəskin publisistikası ilə diqqət çəkən bu əsərlərdə günün aktual problemləri, müasirlərimizin iç dünyası, gündən-günə yenilənən, dəyişən yaşam və insan ilişgilərinə poetik baxış sərgiləyən şair iç-içə yaşadığımız cəmiyyətin, gerçəkliyin hərtərəfli mənzərəsini yaradır, həyatın ən müxtəlif tərəflərinə işıq salır...

İnsan eynən doğulduğu bölgənin, yerin təbiətinə bənzəyir, dağ adamı dağlardan, aran adamı ucsuz-bucaqsız düzənliklərdən, yam-yaşıl ormanların saflığından, gözəlliklərindən güc, qüvvət alır. Və bütün bu müşahidələrin, dərketmələrin sonucunda anlayırsan ki, biz Vətənik, Vətən də biz...

***Qardaşlıqdır şüarımız,***
***biz həmişə əl tutanıq,***
***Düşmən bizə əl uzatsa,***
***düşmənliyi unudanıq.***
***Könlümüzdə bir vahiddir***
***güneyimiz, quzeyimiz,***
***Vətən – bizim namusumuz,***
***biz Vətənik, Vətən də biz.***

Böyük şairin 100 illik yubileyinin dövlət səviyyəsində qeyd olunması haqqında sərəncam onun zəngin yaradıcılığının layiqincə qiymətləndirilməsinin göstəricisidir.

***Əli NƏCƏFXANLI***
***XQ***

# Ədəbi layihələr istedadları aşkara çıxarmalıdır



**Müsahibimiz Azərbaycan Yazıçılar Birliyinin üzvü, “Söz” ədəbi-bədii layihəsinin rəhbəri, adı İngiltərənin 10 ən yaxşı xarici şairi siyahısına daxil edilən Nigar Həsənzadədir.**

***– Nigar xanım, ilk sualım öz yaradıcılığınızla bağlıdır. Mən sizin kitablarınızı oxumuşam. 2005-ci ildə Rəşid Behbudov adına Mahnı teatrında kitab təqdimatınızda da iştirak eləmişəm. Rus dilində yazırsınız, amma azərbaycandilli oxucular da sizi sevirlər. Səbəbini sizdən soruşmaq istərdim. Həm də, ümumiyyətlə, ilk qələm təcrübənizə nə vaxtdan başlamısınız?***

– Mənim üçün çox böyük xoşbəxtlikdir, baxmayaraq ki, əcnəbi dilində yazsam da, rus dili və ədəbiyyatı üzrə filologiya fakültəsini bitirsəm də, həyatımın yarısını xarici ölkədə yaşasam da, ruhum, fikrim həmişə Vətənimlə bağlı olub. Yəni qanım da, ruhum da Vətənimdir. Hətta Avropada beynəlxalq festivallarda çıxış edərkən geyim tərzim Şərq üslubuna yaxın olub. Bu da Avropa auditoriyasında sual doğururdu ki, niyə rus dilində yazan şair bu qədər Şərqə bağlıdır. Mən hər zaman belə tədbirlərin təşkilatçılarına deyirdim ki, adım hər yerdə məhz Azərbaycan şairi kimi qeyd olunsun. Bu, məxsusi bir ruh halıdır.

***– Siz uzun illər Britaniyada yaşamısınız, orada uğurunuz da olub. İlin on ən yaxşı xarici şairindən biri seçilmisiniz. Maraqlıdır, o qiymətləndirmə necə aparıldı? Ümumiyyətlə, Britaniyanın ədəbi mühiti necədir?***

– Çox fərqlidir. Artıq 10 ildir ki, mən Azərbaycanda yaşayıram. Amma o vaxt elə oldu ki, ilk kitabımdan sonra Londona köçdüm və Azərbaycandan İngiltərəyə köçən gənc, rus dilində yazan şairə o ədəbiyyat mühitində özünə yer tapmağı bacardı. Öncə taleyimi dəyişən bir epizod oldu: Londonda gəzərkən divarda bir yazı gördüm. Məşhur ingilis şair-tərcüməçi Riçard Makkeynin (artıq o dünyasını dəyişib) şeir gecəsinin elanı idi. Anna Axmatovanın tərcümə olunmuş şeirləri səsləndiriləcəkdi. Və mən o gün ilk və balaca kitabımı əlimə alıb həmin şeir gecəsinə getdim. Riçard Makkeyn şeirləri oxuyurdu və hiss olunurdu ki, əsl şairdir. Çıxışını bitirəndən sonra ona yaxınlaşdım, kitabımı hədiyyə etdim. Azərbaycandan olduğumi biləndə onun gözərində, sanki, işıq yarandı. Dedi ki, Türk dünyasının gözəl şairi Nazim Hikmətin şeirlərini tərcümə edib. Özü də türk dilindən. Sən demə, Avropada ilk dəfə türk şairinin yaradıcılığını tərcümə edən şair idi. Mənim də Azərbaycan türkü olmağım ona xoş təsir bağışlamışdı. Elə bu səbəbdən də bir neçə gündən sonra o, məni çay süfrəsinə dəvət etdi. Sevincimdən nə edəcəyimi bilmirdim. İlk sualı o oldu ki, bəs, sizin şeirlərinizi ingilis dilinə kim tərcümə edir? “Heç kim” dedim. Qayıtdı ki, mən edəcəyəm.

Mənim bütün planlarım dəyişdi, orada qalası oldum və tərcümələrə başladıq. İngiliscə kitab 6 aya çap olundu. Riçard Makkeyn məni Londonun məşhur ədəbi camiəsinə təqdim etdi. Mən də ingiltərəli şairlərlə tanış oldum. Onlardan mənə ən doğma olanı təbrizli Ziba Kərbasi idi. Onunla birlikdə çox gözəl çıxışlarımız olub. Ziba farsca yazırdı, mən isə rusca. Müasir Sənət İnstitutunun səhnəsində “O taylı– bu taylı Araz” adı altında çıxışlarımız olurdu.

***– Nigar xanım, sizin mətbuatda tez-tez adıçəkilən “Söz” ədəbi layihəniz var. Bu layihənin 10-dan çox tədbirində iştirak etmişəm. Azərbaycan dilində böyük əsərlər yaradan xalq şairləri layihənizi, şeirlərinizi çox bəyənirlər...***

– Var olsunlar! 10 il əvvəl mən Azərbaycana yay tətilinə gəlmişdim və heç ağlıma da gəlməzdi ki, mən yenidən Vətənimə köçəcəyəm. Doğru deyilib ki, hər şey öz vaxtında olur. Güman edirəm ki, qayıdış addımını doğru vaxtda, doğru istiqamətdə atdım. Bu gün mənim Bakıda olmağım, fəaliyyətim, topladığım təcrübə və bəzi uğurlarım bunu deməyə əsas verir.

“Söz” ədəbi birliyi layihəsinə gəlincə, o vaxt Mədəniyyət Nazirliyinin rəhbərliyi ilə görüşümüz olmuşdu. Mənə sual verildi ki, siz fəaliyyətinizə Azərbaycanda davam etsəniz, hansı işlərlə məşğul olardınız? Anidən belə cavab verdim: mən faydalı olmaq istəyirəm. Sağ olsunlar, mənə bu imkanı yaratdılar. Bir layihə təqdim etməyimi istədilər. Elə həmin gün də bu layihənin adı qoyuldu. Nazirlik layihəmi dəstəklədi. Gənc şairlərin yaradıcılıqlarını geniş auditoriyaya təqdim etməyə başladım. Bir gün mənə zəng etdilər ki, Nigar xanım gəlin, biz sizin şeirlərinizi dinləmək istəyirik. Bu siz, bu da mikrofon.

Ümumiyyətlə, mən hər zaman çalışıram ki, “Söz”ün adı səslənəndə göz önünə istedadlar gəlsin. Bu layihə ilə mən etimadı doğrultmağa nail ola bildim. Əlbəttə ki, mənə güvənən, inanan gözəl insanların dəstəyi ilə...

***– Siz gözəl bir kollektiv yaratmısınız orada.***

– Bəli. Əslində çox maraqlıdır ki, “Söz”ün özünəməxsus insanları var. Bu şəxsiyyətlərin istedadlarından başqa, hər birinin ruhunda bir nur var. Tədbirlərimizdən Bakı Konqres Mərkəzində mərhum yəhudi əsilli dostumuz, ictimai xadim Arye Qutun kitab təqdimatı, Xocalı faciəsi ilə əlaqədar Əsəd Əsəd Fərəcov və Kübra xanımla bağlı təqdimat, “İgidlərin sözü” və s. yaddaqalan olub. Vətən müharibəsi başlayanda “Söz”ün fəaliyyəti dayandı və bilirsiniz ki, mən o zamanlar informasiya müharibəsi cəbhəsinə keçdim. Müharibə bitəndə mən anladım ki, “Söz” artıq əvvəlki istiqamətdə davam edə bilməyəcək. Çünki hər anın, hər zamanın öz tələbləri var. Belə bir fikrə düşdüm ki, müharibədə iştirak edən əsgərlərimizin, şəhidlərimizin yazılarını toplayıb bir kitab ərsəyə gətirim. Sosial şəbəkələrdə anons yerləşdirdim. Dərhal yazılar, şeirlər, esselər gəlməyə başladı. Biz onları topladıq. Təcrübəli jurnalist Aida Eyvazova da bizə bu işdə kömək etdi. Beləcə, ilk antologiyamız ərsəyə gəldi. Mədəniyyət Nazirliyi tərəfindən dəstəkləndik və “İgidlərin sözü” möhtəşəm səhnələrdə yer aldı. Mən çox sevinirəm ki, bu layihədə iştirak edən qazilərimizin çoxunun adları tanınır. Bəzilərinə artıq şair deyə müraciət edirlər. Aralarında Prezident təqaüdünə layiq görülənlər də var. 11 nəfər isə artıq Yazıçılar Birliyinin üzvüdür. Bu layihə 2 il bundan əvvəl Şuşada keçirilən Vaqif Poeziya Günlərində özünü bir daha doğrultdu, kitabımız təqdim olundu. Ümid edirəm ki, bu layihənin növbəti çıxışları Xankəndidə, Xocalıda, Qarabağ Universitetində olsun.

***– 2023-cü ildə Beynəlxalq Poeziya Festivalında iştirakınızdan da danışardınız. Bildiyim qədərincə, Azərbaycanı orada təmsil edən tək şair siz idiniz.***

– Əlbəttə ki, böyük sevinc hissi ilə festivalda çıxış elədim. Baxmayaraq ki, hər müəllif istəyər ki, şeirlərini yazdığı dildə səsləndirsin. Amma mən orada öz doğma dilimdə şeir oxudum. Bu mənim üçün böyük məsuliyyət idi. Orada istedadlı şairimiz Salam Sarvanın tərcümələrini də səsləndirdim.

***– Gənclərə nə tövsiyə edərdiniz?***

– Tək gənclərə deyil, cəmiyyətimizə müraciət etmək istərdim. Məşhur bir deyim var, istedadlı insanlara dəstək olmaq lazımdır, bacarıqsızlar onsuz da istənilən işin öhdəsindən gələcəklər”. Çox istərdim ki, cəmiyyətimiz istedadlıları daim dəstəkləsinlər. Çox təəssüflər olsun ki, bəzən cəmiyyətimizdə bacarıqlı insanlar diqqətdən kənarda qalır. Bütün ədəbi-bədii layihələr istedadlı insanları üzə çıxarmağa xidmət etməlidir.

***Müsahibəni qələmə aldı:***
***Anar TURAN***
***XQ***

**AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli Şota Rustaveli adına Gürcü Ədəbiyyatı İnstitutunun direktoru, filologiya elmləri doktoru, professor İrma Ratiani ilə görüşüb. AMEA Rəyasət Heyətində keçirilən görüşdə iki qurum arasında qarşılıqlı maraq doğuran məsələlər, ortaq layihələr ətrafında fikir mübadiləsi aparılıb, əməkdaşlıq perspektivləri müzakirə olunub.**

# Gürcü ədəbiyyatşünas AMEA-da



Akademik İsa Həbibbəyli Azərbaycan və Gürcüstan arasında bütün sahələrdə olduğu kimi, elm sahəsində də sıx əlaqələrin mövcud olduğunu bildirib. O, bu əlaqələrin müasir dövrün tələbinə uyğun yeni istiqamətlər üzrə inkişaf etdirilməsinin zəruriliyini qeyd edib. Akademik AMEA-nın Gürcüstan Milli Elmlər Akademiyası, eləcə də bu ölkənin digər elmi müəssisələri ilə sıx əməkdaşlıq etdiyini söyləyib. Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Şota Rustaveli adına Gürcü Ədəbiyyatı İnstitutu ilə birlikdə həyata keçirdikləri layihə üzrə “Nizami Gəncəvi və Şota Rustaveli” monoqrafiyasının Bakıda, Tbilisidə və Kembricdə Azərbaycan, gürcü və ingilis dillərində kitab halında nəşr olunmasını xüsusi qeyd edib.

Professor İrma Ratiani səmimi görüşə görə AMEA prezidentinə təşəkkürünü bildirib, akademiyanın 80 illik yubileyi münasibətilə bu elm ocağının çoxminli kollektivini təbrik edib. O, rəhbərlik etdiyi müəssisənin fəaliyyət istiqamətləri barədə məlumat verərək deyib ki, bundan sonra da hər iki ölkənin milli və dövlətçilik maraqlarına cavab verən birgə tədqiqatların aparılmasında maraqlıdırlar.

Sonda qarşılıqlı kitab hədiyyələri təqdim olunub.

Görüşdə AMEA Rəyasət Heyəti aparatının Beynəlxalq elmi əməkdaşlıq şöbəsinin müdiri, biologiya üzrə fəlsəfə doktoru Esmira Əlirzayeva, Gürcü Ədəbiyyatı İnstitutunun direktor müavini, filologiya elmləri doktoru, professor Maka Elbakidze və Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun direktor müavini, filologiya üzrə fəlsəfə doktoru Mehman Həsənli də iştirak ediblər.

***XQ***

**Teatr tamaşası**

# “İyirmi ildən sonra” Sumqayıt səhnəsində

**2 gün əvvəl Sumqayıt Dövlət Dram Teatrının səhnəsində ömrünü sənətə həsr etmiş istedadlı dramatik aktyor, bədii qiraət ustası, quruluşçu rejissor, Əməkdar artist Namis Şirməmmədovun anım günü “20 ildən sonra” tamaşası ilə qeyd olunub. Tamaşadan əvvəl səhnə əsərinə quruluş vermis teatrın baş rejissoru, Prezident mükafatçısı, Xalq artisti Firudin Məhərrəmov mərhum sənətkarın haqqında məlumat verdi, onun yaradıcılığının mühüm məqamlarını xatırladı və təqdim olunan əsərdəki bəzi səhnələrin Namis Şirməmmədovun sənət yolu ilə bir paralel təşkil etdiyini vurğuladı. “Xalq qəzeti”nin əməkdaşı Əli Nəcəfxanlı, teatrın aktyoru Siyavuş Mahmudov 1 il əvvəl haqqa qovuşmuş istedadlı aktyor və rejissor, gözəl dost Namis Şirməmmədovla bağlı həzin xatirələrini dilə gətirdilər.**







Sonra Sumqayıt Dövlət Dram Teatrının repertuarında önəmli yer tutan tamaşa başlandı. Tanınmış dramaturq, Əməkdar incəsənət xadimi Əli Əmirlinin “20 ildən sonra” pyesi əsasında hazırlanmış səhnə əsəri ömrünü-gününü teatr sənətinə həsr etmiş bir ailə üzvlərinin cari qayğıları haqqındadır. Qeyd edək ki, bundan öncə Sumqayıt səhnəsində Əli Əmirlinin “Xeyir xəbər”, “Köhnə ev”, “Sevgilim Sumqayıt” və “Varlı qadın” pyesləri də uğurla səhnələşdirilib. Bu tamaşanın obrazlarında həyatın gerçəkliklərini yaşayan, mənəvi-psixoloji təbəddülatlarda çırpınan, bəzən də bəxtiyarlıq səmasında süzən aktyorların şəxsi həyat səhnələri maraqla qarşılanır. Teatr səhnəsi ilə həyat səhnəsinin təzadları, qarışıq rənglərlə bəzənmiş ömür tablosu, sənət eşqi ilə çılpaq həyat həqiqətlərinin antoqonizmi əsərin ana xəttini təşkil edir.

Tamaşanın quruluşçu rejissoru, Xalq artisti Firudin Məhərrəmov, rəssamı Sevinc Həsənova, musiqi tərtibatçısı sənətşünaslıq üzrə fəlsəfə doktoru Telman Qəniyevdir. Rollarda Əməkdar artistlər Rauf Ağakişiyev (Otello), Xatirə Süleymanova (İşıq xanım), Cəlal Məmmədov (Səfir), İlahə Səfərova (Mim – qadın), aktyorlar Mətləb Səfərli (Qoca), Məryəm Hüseynli (Ofeliya), Kamran Muradlı (Hamlet) və Etibar Əmirli (Mim – kişi) oynayırlar.

Tamaşanın ayrı-ayrı sənhələri öz dramatizmi və aktyor oyununun təbiilikləri ilə diqqət çəkirdi. Sənhə əsəri salonda tamaşanı maraqla izləyən teatrsevərlər, o cümlədən şəhid ailələrinin üzvləri tərəfindən dönə-dönə alqışlandı.

Xatırladaq ki, Sumqayıt sənətçiləri ötən il bu tamaşanı Bakıda Aktyor evində “Qonaq teatr” layihəsi çərçivəsində də uğurla təqdim edib.

***Ə.ƏLİYEV***
***XQ***

Beynəlxalq həyat

# ABŞ Ukraynada sülh cəhdlərini davam etdirir

**Ağ ev Ukraynada ağır döyüşlərin dayandırılması üçün səylərini davam etdirir. ABŞ-ın dövlət başçısının xüsusi nümayəndəsi Stiv Uitkoff yenidən Rusiyaya səfər edib və Prezident Vladimir Putin ilə bu dəfə Sankt-Peterburqda artıq 3-cü dəfə görüşüb.**



BBC yazır ki, bu dəfə danışıqlar Rusiyanın "şimal paytaxtı"ndakı Boris Yeltsin adına Prezident Kitabxanasında keçirilib və 4 saatdan çox davam edib. Danışıqların təfərrüatları barədə mediaya açıqlama verilməyib. Belə bir görüşün olacağı barədə də məlumat yox idi. Yalnız ABŞ-ın "Axios" nəşri bu barədə informasiya yaymışdı.

Artıq görüş baş tutub və təhlilçilər bununla bağlı öz fikir və düşüncələrini bildirirlər. Belə bir fakta diqqət çəkilir ki, S.Uitkoff Sankt-Peterburqda əvvəlcə Rusiya birbaşa sərmayələr fondunun rəhbəri Kiril Dmitriyev ilə görüşüb. K.Dmitriyev iş adamıdır və Prezident V.Putinin Rusiya–ABŞ danışıqları üzrə səlahiyyətli nümayəndəsi təyin edilib. Ötən həftə o, Vaşinqtona səfər edərək burada bir sıra görüşlər keçirmişdi.

Xatırladaq ki, S.Uitkoff bu il fevralın 11-i və martın 13-ü tarixlərində də Rusiya Prezidenti ilə Ukraynada "qan tökülməsinin qarşısını almaq üçün" Prezident Trampın adından müzakirələr aparıb. Sonuncu görüş ərəfəsində hər iki tərəfdən 1 məhbusun azad olunması barədə xəbərlər yayılıb.

D.Tramp dünən Ukrayna böhranın nizamlanması prosesinin zəif getməsindən narahat olduğunu bildirib. Deyib ki, Rusiya hərəkət eməlidir, belə ki, hər həftə hər iki tərəfdən insanlar həlak olurlar. Tramp bir daha vurğulayıb ki, 3 il əvvəl o, prezident olsaydı, bu dəhşətli müharibənin başlanmasına imkan verməzdi.

S.Uitkoffun Rusiyaya növbəti səfərindən atəşkəs əldə edilə biləcəyi barədə sensasiyaslı xəbərlər gözlənilmirdi. Belə ki, hələ görüş ərəfəsində Kremlin sözçüsü Dmitri Peskov demişdi ki, danışıqlarda dönüş əldə olunacağı ehtimalı azdır. Onun sözlərinə görə, Sankt-Peterburqda Rusiya və ABŞ liderlərinin mümkün görüşü də müzakirə olunub.

Peskov görüş ərəfəsində Trampla Putin arasında telefon bağlantısının olduğunu da istisna etməyib. Trampın Ağ evə ikinci dəfə qayıdışından sonra iki lider arasında 2 dəfə telefon bağlantısı olub. Rəsmən etiraf olunan budur. Ola bilər ki, prezidentlər rəsmi açıqlama vermədən də telefonla müzakirələr aparıblar.

Məlumat üçün bildirək ki, Ukrayna ilə bağlı ABŞ və Rusiya arasında danışıqlar prezidentlərin iştirakı olmadan bu ilin fevral və mart aylarında Səudiyyə Ərəbistanında keçirilib. Bundan başqa, İstanbulda Moskva ilə Vaşinqton arasında diplomatik münasibətləri yaxşılaşdırmaq üçün məsləhətləşmər olub.

Prezident D.Tramp dəfələrlə Rusiya və Ukrayna prezidentlərini danışıqlar masası arxasına əyləşməyə çağırıb. Moskva qeyd-şərtsiz atəşkəs təklifindən imtina edib, lakin danışıqların 2-ci raundunda rəqiblər bir-birinin enerji obyektlərinə raket zərbələri endirməyəcəklərinə söz veriblər.

Ukraynada isə ağır, tükəndirici müharibə davam edir. Hər iki tərəfin hərbi aviasiyası vaxtaşırı olaraq rəqibin şəhər və kəndlərini raket və dron atəşlərinə məruz qoyur. Eyni zamanda, Moskva və Kiyev tez-tez bir-birini enerji obyektlərini hədəfə almamaq üzrə moratoriumu pozmaqda günahlandırır.

BBC müxbiri qeyd edir ki. son günlər Rusiya aviasiyası Ukrayna ərazisinə intensiv surətdə aviazərbələr endirir. Bir həftə əvvəl Krivoy Roq şəhərindəki yaşayış binası Rusiyanın raket atəşinə məruz qalıb. Ciddi dağıntılar baş verib, 20 sakin həlak olub, onlardan 9-u uşaqdır.

Trampın ikinci dəfə prezidentliyə başlamasının 100-cü günü yaxınlaşır. Bu tarixə kimi, Rusiya ilə danışıqlarda razılaşma əldə olunmazsa, Tramp, təbii ki, Rusiyaya qarşı yeni sanksiyaların təbiq edilməsinə çalışacaq. O, bunu prezident səlahiyyətlərindən istifadə edərək, yaxud Konqresin razılığını almaqla da edə bilər.

Bir çox təhlilçilər Rusiya ilə Ukrayna arasında müharibənin yaxın həftələr və aylar ərzində dayandırıla biləcəyinə şübhə ilə yanaşırlar. Rusiya Ukraynanın 4 vilayətini özünün ərazisi hesab edir. Kiyev isə təbii ki, bununla heç cür barışa bilməz və faktiki olaraq kapitulyasiya hesab oluna bilər. Bundan başqa, Prezident Putin əvvəlki kimi Zelenskinin hakimiyyətini qeyri-legitim sayır.

Görünür, diplomatlardan əvvəl döyüşən ordular cəbhədə münasibətləri aydınlaşdırmalıdır. Hələlik, heç bir tərəf aşkar üstünlüyə nail ola bilmir. Bütövlükdə isə, Rusiyanın hərbi resurslarının daha çox olduğu hiss olunur. Ukrayna isə ciddi müqavimət göstərməkdə davam edir.

***Məsaim ABDULLAYEV***
***XQ***

**Çe Qevaranın qatilini kim öldürdü? O, 1971-ci ildə "komandante" üçün qanlı qisas aktı həyata keçirən münhenli Monika Ertl idi. Amma iki il sonra qətli törədən qısasçı xanım həyatını öz kumiri kimi də başa vurdu – sabiq nasistin köməyilə Boliviyada güllələndi. Bəs bu alman "qisasçı-mələk" kim idi?**



# Çe Qevaranın bavariyalı "qisasçı-mələyi"

1967-ci ilin oktyabrında Çe Qevaranın ölümündən sonra Kubanın sabiq lideri Fidel Kastro qisas alacağına söz vermişdi. Kastro ideya yoldaşı Çenin ölümündə iştirak edən hər kəsi ölü görəcəyini bəyan etmişdi. Onlardan biri Boliviya məxfi xidmətinin polkovniki Roberto Kintanilya Pereyro idi. Bu həmin şəxs idi ki, Monika Ertl onu qətlə yetirmişdi.

Roberto Kintanilya Pereyro məxfi xidmətin əməkdaşı olaraq həmişə çox diqqətli idi. Çünki özünü tam təhlükəsiz hiss etmirdi – hətta Almaniyada, diplomatik postda olanda da ehtiyatlı davranırdı. Bununla belə, 1971-ci il aprelin 1-də onun "daxili həyəcan sistemi" bir anlığa "söndü".

Həmin gün səhər Pereyro viza almaq üçün icazə istəyən cazibədar sarışın qadını qarşıladı. Qonaq hansısa uydurma bəhanə ilə onun arxasınca kabinetə daxil oldu. Sonradan baş verənlər edama bənzədi: gənc qadın qəfildən tapança çıxardı və onu konsulun sinəsinə tuşlayaraq yaxın məsafədən üç dəfə atəş açdı. Polis cəsədin üzərində qətlin siyasi məzmunu ilə bağlı heç bir şübhə yaratmayan bir qeyd tapdı: kağızda "Qələbə və ya ölüm" yazılmışdı. Bu, Boliviya partizanlarının şüarı idi.

Qətldən sonrakı ilk dəqiqələr də sirr olaraq qaldı. Axı qatil necə qaça bildi? Cinayətkar təkcə qiymətli vaxtını deyil, həm də tapançanı, pul kisəsini, eynək və parikini kənara atmışdı. Bir neçə dəqiqə sonra bütün bina polis tərəfindən mühasirəyə alınsa da, o, qaçmağı bacarmışdı.





Bəs Hamburqda öldürülən konsulun inqilabçı Çe Qevaraya nə aidiyyatı var idi? Bu əlaqə keçmişdə, uzaq Boliviyada başlanmışdı. Çünki Pereyro vaxtilə öz ölkəsinin ən qəddar məxfi polis rəislərindən biri olmuşdu, yeraltı solçu ekstremistlərə işgəncə verilməsinə və edam edilməsinə görə məsuliyyət daşıyırdı, onların arasında Çe Qevara da var idi.

Pereyro bilirdi ki, düşməni çoxdur, çünki Çenin ölümünün dəhşətli sübutu olaraq ölü Qevaranın əllərini də kəsməyi məhz o, əmr etmişdi. O, uzaq Hamburqda diplomatik toxunulmazlığın etibarlı fasadının arxasında sığınacaq tapacağını düşünürdü. Lakin Kastronun lənəti onu Elba sahillərinə qədər təqib etdi.

Pereyronu qətlə yetirən Monika Ertl bir vaxtlar rejissor Leni Rfenştayl ilə birlikdə Adolf Hitlerin sifarişi ilə "Olimpiya" filmini çəkən kinematoqrafçı Hans Ertlin qızı idi. İkinci Dünya Müharibəsi zamanı o, millətçi-sosialistlərin təbliğat film jurnalı üçün cəbhələrdən fotoşəkillər və reportajlar çəkirdi. Ancaq Hans Ertlin nasist hərəkatının sadəlövh qurbanı olduğuna inansaq belə, o, heç vaxt solçu radikal olmamışdı. Bəs o zaman qızı Monika necə solçu inqilabçı partizana çevrilmişdi?

Monika Hansın sevimli qızı idi. O, bütün qızlarından daha çox ona güvənir, onu öz yolu ilə getməyə layiq bilirdi. Hans "Mənim üçün Monika oğlumu əvəz edən övladım oldu" deyirdi. "O, yarı oğlan idi". Atasının iki sənədli filmində o, buzlu zirvələrə qalxır, cəngəllikdə gəzir, şüşə qabda zəhərli ilanları tutur və ya piranya balığını tavada vam odda qızardırdı. O, "oğlan kimi" atəş açırdı, atası qürurla onun haqqında danışırdı. Ancaq qızının bir gün öz bacarıqlarını necə göstərəcəyini təsəvvür edə bilməzdi.

Bir gün atası ilə fikir ayrılığı yarandı. Səbəbləri bu günə qədər ancaq təxmin etmək olar. Jurnalist Yurgen Şrayber "O, Çe Qevara kimi öldü" kitabında ata və qızın qəfil ayrılmasını ancaq psixoloji baxımdan izah etməyin mümkün olduğunu bildirir. Başqa iddiaya görə, Hans Monikanı Boliviyada sığınacaq tapmış başqa bir qaçaq nasistə ərə verdikdən sonra ata-qız münasibətləri pozulmuşdu. Monika ərini sevmirdi və bir gün həmişəlik evini tərk etmişdi.

Əlbəttə ki, o vaxt səyahətləri zamanı Monika Boliviyada fəaliyyət göstərən böyük inqilabçı lider Çe Qevara haqqında eşitmişdi. Ancaq ölümündən dərhal sonra onun qoşunları ilə əlaqə saxlamışdı. O vaxt Boliviyanın Milli Azadlıq Ordusu adlanan ordu artıq acınacaqlı vəziyyətdə idi – görkəmli komandirini itirmiş, hər hansı təşkilatdan məhrum olmuş, ayrı-ayrı partizan dəstələrinin məğlub olmuş qruplara ayrılmışdı. Monika Ertl bu qruplardan birinə qoşulmuşdu. O, alman olduğu üçün nizam-intizamı, dəqiqliyi, çalışqanlığı və digər faydalı keyfiyyətləri yüksək qiymətləndirirdi.

O, qısa zamanda logistika şöbəsinə rəhbərlik edərək partizan dəstəsi təşkil etdi. Bütün bunlar öz bəhrəsini verdi və Ertl nəinki ayrı bir dəstəni, hətta bütün ordunu döyüşə hazır vəziyyətə gətirdi. Gənc qızın şöhrəti və nüfuzu elə artdı ki, partizanlar onu öz simvollarından biri kimi görməyə başladılar.

Partizanlar daha bir cəsarətli əməliyyatı 1972-ci ildə planlaşdırdılar. Daha çox "Lion qəssabı" kimi tanınan Klaus Barbinin oğurlanaraq öldürülməsini reallaşdırmaq istədilər. O, İkinci Dünya Müharibəsinin başa çatmasından sonra Boliviyaya qaçan və yerli hüquq-mühafizə orqanlarında çalışan nasist cinayətkarı idi. Təbii ki, bütün təzahürləri ilə nasizmə nifrət edən Monika Ertl könüllü olaraq onun məhv edilməsi əməliyyatında iştirak etdi. Lakin bu zaman partizanlar əsas amili nəzərə almadılar - Klaus Barbi qəddar və hiyləgər idi. Bundan əlavə, onun təkcə Boliviyada deyil, Qərbi Almaniyada (AFR) də güclü dostları var idi. Monika Ertl 1971-ci ildə polkovnik Pereyranı öldürmək üçün Almaniyaya gedəndə, onu nəzarət götürə bilmişdilər və o vaxtdan bəri daim nəzarət altında idi. Barbini aradan qaldırmaq üçün yeni bir əməliyyat keçirmək qərarına gəldikdə, AFR-dən olan kəşfiyyat agentləri ona xəbərdarlıq etdilər. Bundan sonra o, Monikanın özünə tələ qurdu.

1973-cü il mayın 13-də Monika Ertl əməliyyata hazırlaşdığı evlərdən birində olarkən Boliviya polisi onu yaxaladı. Qızı güllələdilər, şəklini çəkdikdən sonra cəsədini naməlum yerə apardılar. Almaniyada da polis istintaqı tamamlasa da, bütün sübutlar olsa da, Monika Ertl yalnız ehtimallara görə qatil kimi tanındı.

Alman qızı da kumiri kimi qəbirsiz qaldı. Ailəsi heç vaxt Çe Qevaranın "qisasçı-mələyi"nin harada dəfn edildiyini öyrənə bilmədi.

***Hazırladı:***
***Səbuhi MƏMMƏDOV***
***XQ***

## SOSİAL XƏBƏRLƏR

### 24 min işsizə biznes yaradılıb



**Dünya Bankının maliyyə dəstəyi ilə həyata keçirilən "Məşğulluğa Dəstək Layihəsi" çərçivəsində indiyə qədər həssas qruplara aid 24 minədək işsizə istehsal və xidmət sahələri üzrə kiçik bizneslər yaradılıb.**

Bu barədə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində Dünya Bankının sosial müdafiə və iş yerləri üzrə regional meneceri Paolo Belli ilə görüşdə bildirilib.

Nazir Anar Əliyev Azərbaycanda əmək, məşğulluq və sosial müdafiə sahələrində son illər aparılan islahatları diqqətə çatdırıb, ötən dövrdə Dünya Bankı ilə birgə icra olunan layihələrin önəmini vurğulayıb. 22 min işsizi əhatə etməsi hədəflənən "Məşğulluğa dəstək layihəsi"nin uğurlu icrasının nəticəsi olaraq layihə iştirakçılarının sayının cari il ərzində 26 mini ötəcəyi qeyd edilib.

Özünüməşğulluq proqramın genişləndirilməsinə, həssas əhali qruplarına aid şəxslərin kiçik biznesə çıxışına dəstək olan bu layihənin uğurla icra edilməsinin Dünya Bankı tərəfindən yüksək dəyərləndirilərək mükafatla təltif olunduğu bildirilib. Ölkəmizdə həyata keçirilən digər fəal məşğulluq proqramları, son illər əmək qanunvericiliyinin təkmilləşdirilməsi istiqamətində atılan addımlar diqqətə çatdırılıb.

Görüşdə missiya çərçivəsində aparılmış müzakirələr barədə məlumat verilib. Dünya Bankı ilə sosial sahədə gələcək əməkdaşlıq istiqamətləri müzakirə edilib.

### Deflimpiya hərəkatının beynəlxalq əməkdaşlığı



**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində Beynəlxalq Eşitmə Məhdudiyyətli Şəxslərin İdman Komitəsinin prezidenti Adam Kosa və Avropa Eşitmə Məhdudiyyətli Şəxslərin İdman Təşkilatının prezidenti İosif Stavrakakis ilə görüş olub.**

Nazir Anar Əliyev ölkəmizdə əlilliyi olan şəxslərin sosial müdafiəsi və bərpası, cəmiyyətə inteqrasiyasının dəstəklənməsi, yaradıcı potensialının inklüziv mühitdə inkişaf etdirilməsi istiqamətində aparılan işlər barədə məlumat verib.

Bu kateqoriyadan olan şəxslərin bir qisminin eşitmə məhdudiyyətli şəxslər olduğu, onların da sosial dəstək tədbirləri ilə əhatə edildiyi bildirilib. Əlilliyi olan şəxslərə dövlət büdcəsi hesabına verilən bərpa vasitələri növlərinin sayının son illər 4 dəfəyə yaxın artırılaraq 130-a çatdırıldığı qeyd edilib. Həmin növlər sırasında eşitmə məhdudiyyətli insanlar üçün də bir sıra bərpa vasitələrinin olduğu diqqətə çatdırılıb.

İşarət dilinin ünsiyyət dili kimi rəsmi tanınması məqsədilə qanunvericiliyə dəyişiklik layihəsinin parlamentdə müzakirə mərhələsində olduğu bildirilib.

A.Kosa və İ.Stavrakakis Azərbaycanda əlillərin, habelə eşitmə məhdudiyyətli şəxslərin sosial müdafiəsi, reabilitasiyası və cəmiyyətə inteqrasiyası, onların idmana cəlb edilmələri sahəsində aparılan ardıcıl işləri, paralimpiya hərəkatının uğurlarını yüksək qiymətləndiriblər.

Ölkəmizdə deflimpiya hərəkatının inkişafı sahəsində görülən işlər, bu sahədə Beynəlxalq eşitmə məhdudiyyətli şəxslərin İdman Komitəsi və Avropa eşitmə məhdudiyyətli şəxslərin İdman Təşkilatı ilə gələcək əməkdaşlıq müzakirə olunub.

### Xarici qonaqlar inklüziv mərkəzdə



**Ölkəmizdə səfərdə olan Beynəlxalq Eşitmə Məhdudiyyətli Şəxslərin İdman Komitəsinin prezidenti Adam Kosa və Avropa eşitmə məhdudiyyətli şəxslərin İdman Təşkilatının prezidenti İosif Stavrakakis DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzi ilə tanış olublar. Müəssisənin direktoru Elnarə Ənsari qonaqlara mərkəzin fəaliyyəti barədə məlumat verib.**

Bildirilib ki, mərkəzin benefisiarları burada 14 fəaliyyət istiqaməti üzrə təlimlərə cəlb edilməklə yanaşı, onlara sosial-pedaqoji və psixoloji dəstək xidmətləri də göstərilir.

A.Kosa və İ.Stavrakakis mərkəzdə yaradıcılıq və təlim-məşq prosesini izləyib, benefisiarların təlimçilərlə birgə hazırladıqları əl işlərinə baxıblar.

***Zərifə HÜSEYNOVA***
***XQ***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 72 (30766) 13 aprel 2025-ci il, bazar

İdman

## Azərbaycanda Dünya Futvolley Federasiyasının Baş Assambleyası



**Bakıda Dünya Futvolley Federasiyasının ilk dəfə keçirilən Baş Assambleyası işə başlayıb.**

Tədbirdə Beynəlxalq Futvolley Federasiyasının, Azərbaycan Futnet Federasiyasının prezidenti Vüsal Xəlilov, hər iki qurumun baş katibi Əfqan Həmzəyev, Pakistan, Hindistan, İran, Moldova, Türkiyə, Rusiya, Qırğızıstan, Qazaxıstan və Birləşmiş Ərəb Əmirliklərindən olan nümayəndələr iştirak ediblər.

Tədbirdə qurumun il ərzində gördüyü işlər, maliyyə hesabatı, yeni təqvim ilindəki hədəflər barədə məlumat verilib, oktyabr ayında Dubayda keçiriləcək Dünya Korporativ Oyunlarının təşkili haqqında müzakirələr aparılıb.

Assambleyanın hər 5 ildən bir keçirilməsi nəzərdə tutulur.

Sabahın olimpiyaçıları

# Əhsən gimnaziadaçılarımız!



## Yığmamız 85 medalla ilk 5-likdə qərarlaşdı

**Serbiyada keçirilən ISF U15 Gimnaziada İdman Oyunlarına geniş heyətlə qatılan Azərbaycan komandası çıxışını uğurla başa vurub. 56 ölkənin qatıldığı bu nüfuzlu yarışda 22 növdən 18-də iştirak edən məktəbli atletlərimiz Oyunların ilk günündən başlayaraq son günədək, həm medal sayına, eyni zamanda əmsalına görə fərqlənib, ilk 5-likdə qərar tutub.**

Milli idman növlərindən biri olan və böyük heyətlə iştirak etdiyimiz güləşdə bütün yarışlarda olduğu kimi, bu dəfə də liderlər sırasında yer aldıq. 30 güləşçi ilə qatıldığımız gimnaziadanı 25 medalla başa vurduq. 10 nəfərlə təmsil olunan sərbəst güləşçilərimizin hamısı mükafata layiq görüldü. Yunan-Roma güləşçilərimizdən 9-u, qız pəhləvanlarımızdan isə 6-sı Vətənə medalla qayıdır.

Ənənəvi növlərdən biri olan boks üzrə də çıxışımız uğurlu alındı. Zlatibor rinqinə çıxan 22 dəri əlcək ustasından 21-i fəxri kürsüyə yüksəldi. Yığma yarışı 9 qızıl, 8 gümüş və 4 bürünc mükafatla başa vurdu. Sevindirici haldır ki, bu mükafatlardan 8-ni qız boksçularımız qazandılar. Daha bir idman növündə təmsilçilərimiz əla çıxış etdilər. Taekvondonun həm döyüş, həm pumse növündə maksimum nəticələr qazanıldı. Ən çox qızıl medalı da yığmamızın hesabına dayanq ustaları yazdırıblar. Milli 13-ü qızıl olmaqla, 19 mükafat qazanıb.

Cüdoçularımız da gimnaziadada mükafatları ilə bizi sevindiriblər. Aprelin 11-də yığmamızın hesabına 4 medal yazdıran tatami ustalarımız son gündə daha 3 medala sahib olublar. Beləliklə, cüdo millimiz turniri 3-ü qızıl olmaqla 7 mükafatla başa vurublar.

Ölkəmiz üçün o qədər də ənənəvi olmayan parabadminton üzrə nəticələr də ürəkaçan olub. Ayan Əliyeva, Əli Məhərrəmov, Nigar Mehdiyeva, Zəhra Salmanlı və İlkin Bağırzadədən ibarət millimiz çıxışını gümüş medalla başa vurub. Fərdi yarışlarda parabadmintonçularımız 3 qızıl, 1 bürünc medal əldə ediblər. Eyni zamanda, paraüzgüçülərimizin çıxışını da qənaətbəxş adlandırmaq olar. Paraüzgüçülük komandamız oyunları 1 gümüş, 2 bürünc medalla başa vurub. Təmsilçimiz Hüseyn Babayev Oyunlarda paraüzgüçülüyün S-1 kateqoriyası üzrə iştirak edən yeganə paralimpiyaçı olduğu üçün "fair play" mükafatına layiq görülüb.

Qılıncoynadanlarımız da yarışda baş mükafat qazanmağa nail olublar. Bu uğura şpaqaçımız Mirnuray Abasova imza atıb. Abasova finalda çinli Ju Şiyin üzərində qələbə qazanaraq qızıl medal alıb. Yığmanın digər 2 üzvü bürünc medala sahib olub.

15 yaşadək idmançıların yarışında əldə edilən nəticələr, həm də ölkəmizdə uşaq və yeniyetmələr arasında hansı idman növlərində vəziyyətin necə olması ilə bağlı bir növ hesabat xarakteri daşıya bilər. Təəssüf ki, təmsil olunduğumuz bəzi növlərdə medal qazana bilmədik. Amma bu, o demək deyil ki, mükafat qazanmadığımız idman növləri üzrə bu yaş qrupunda potensiallı idmançılarımız yoxdur. Məsələn, ölkəmizdə uşaq şahmatı kifayət qədər inkişaf edir və son illər aşağı yaş qrupları üzrə beynəlxalq arenalarda mühüm nailiyyətlər qazanırıq. Karate üzrə də cəmi 1 medalın olması da çox zəif nəticə hesab oluna bilər. Şübhəsiz, aşağı yaş qruplarında, eləcə də 15 yaşadək idmançıların yarışlarında nəticələr bəzən sabit olmur.

Ümumilikdə, məktəbli idmançılarımız ISF U15 Gimnaziada İdman Oyunlarını yüksək nəticələrdə başa vurub. Komandamız 35-i qızıl, 22-si gümüş, 28-i bürünc mükafat olmaqla 85 medal qazanıb.

Xatırladaq ki, aprelin 4-dən 12-dək davam edən gimnaziadada 56 ölkədən 2 min 742 idmançı mübarizə aparıb. Azərbaycan yarışda 18 idman növündə, ümumilikdə, 191 atletlə təmsil olunub.

*Leyla QURBANOVA*
*XQ*

## Bakıda UFC turniri keçiriləcək




**Azərbaycan ilk dəfə məşhur UFC (Ultimate Fighting Championship) turnirinə evsahibliyi edəcək.**

Bu tarixi hadisə iyunun 21-də Bakı Kristal Zalında baş tutacaq. Döyüş gecəsi Gənclər və İdman Nazirliyi və Bakı Şəhər Halqası Əməliyyat Şirkətinin əməkdaşlığı ilə həyata keçəcək.

UFC-nin prezidenti və baş icraçı direktoru Dana Uayt ilə Azərbaycan Respublikasının gənclər və idman naziri Fərid Qayıbov əməkdaşlıq haqqında razılaşma imzalayıb. İmzalanma mərasimi şənbə günü Mayamidə olub.

Tədbirin əsas döyüşündə yarım ağır çəkidə keçmiş UFC çempionu, hazırda 4-cü yerdəki namizəd Camal Hill 7-ci pillədəki Xəlil Raundtri JR ilə qarşılaşacaq.

## Qran-Pridə 5 medal



**Azərbaycan üzgüçüləri 32-ci Ostrava Qran-prisində 5 mükafat qazanıblar.**

Fatimə Alkərəmova sərbəst üsulla 1500 m məsafəni 18 dəqiqə 20,38 saniyəyə qət edib. O, bürünc medala layiq görülüb. Kişilərin eyni növdə yarışında yığmamız iki medal qazanıb. Süleyman İsmayılzadə məsafəni 15 dəqiqə 35,95 saniyəyə qət edərək gümüş, Oqtay Hüseynov 15 dəqiqə 45,01 saniyə nəticə ilə bürüncə sahib çıxıb. Butterflyayla 200 m məsafədə də iki mükafat əldə olunub. Ramil Vəlizadə (2 dəqiqə 2,65 saniyə) gümüş, Əbdürrəhman Rüstəmov (2 dəqiqə 5,91 saniyə) bürünc medal qazanıb.

Qeyd edək ki, Çexiyada təşkil olunan yarışa sabah yekun vurulacaq.

*Leyla AZAD*
*XQ*

XQ-nin fotoqalereyası

# Xəzər sahilində gülüstan



*FOTO ELŞƏNİNDİR*

## Paytaxtda yağmursuz, bölgələrdə arabir yağış...



Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Arabir güclənən şimal-qərb küləyi əsəcək, gündüz mülayimləşəcək. Havanın temperaturu gecə 7-9°, gündüz 12-15° isti olacaq. Atmosfer təzyiqi 759 millimetr civə sütunundan 766 millimetr civə sütununa yüksələcək. Nisbi rütubət gecə 70-80, gündüz 60-65 faiz təşkil edəcək. Azərbaycanın rayonlarının bəzi yerlərində havanın arabir yağıntılı olacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə qısamüddətli leysan xarakterli olacağı, dolu düşəcəyi, yüksək dağlıq ərazilərdə qar yağacağı ehtimalı var. Gündüz yağıntıda fasilə olacaq. Gecə və səhər arabir duman müşahidə ediləcək. Mülayim qərb küləyi əsəcək. Havanın temperaturu gecə 5-9°, gündüz 14-18° isti, dağlarda gecə 3° şaxtadan 2°-dək isti, gündüz 5-10° isti olacaq.

*Q.QASIMOV*
*XQ*

✓ ***2025-ci il fevralın 3-də ümumi yığıncağın qərarı ilə İmişli rayonunda fəaliyyət göstərən "Məzrəli", "Dirçəliş", "Xəlfəli" və "Hacalmuradlı" Sudan İstifadəedənlər Birlikləri birləşərək, "Qızılarx-1" Sudan İstifadəedənlər Birliyini təsis etmişlər.***

✓ ***2025-ci il fevralın 4-də ümumi yığıncağın qərarı ilə İmişli rayonunda fəaliyyət göstərən "Cəfərli" və "Taleh" Sudan İstifadəedənlər Birlikləri birləşərək, "Rəsularx-1" Sudan İstifadəedənlər Birliyini təsis etmişlər.***

✓ ***2025-ci il fevralın 3-də ümumi yığıncağın qərarı ilə İmişli rayonunda fəaliyyət göstərən "Qızılkənd", "Muğan", "Həsənli" və "Yeni həyat" Sudan İstifadəedənlər Birlikləri birləşərək, "Köhnə Cənub Muğan" Sudan İstifadəedənlər Birliyini təsis etmişlər.***

## ALLAH RƏHMƏT ELƏSİN

"Xalq qəzeti" baş redaktorunun birinci müavini Qüdrət Piriyev hərbi prokurorun böyük köməkçisi, Hərbi Prokurorluğun mətbuat xidmətinin rəhbəri, baş ədliyyə müşaviri Firad Əliyevə anası

**NİŞANƏ ƏLİYEVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Mətbuat Şurasının sədri Rəşad Məcid hərbi prokurorun böyük köməkçisi, Hərbi Prokurorluğun mətbuat xidmətinin rəhbəri, baş ədliyyə müşaviri Firad Əliyevə anası

**NİŞANƏ ƏLİYEVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

**BAŞ REDAKTOR**
**ƏFLATUN AMAŞOV**

**TELEFONLAR:**
**Reklam və elanlar: 493-82-21**
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3360
SİFARİŞ 652
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Məsaim ABDULLAYEV
Çapa imzalanmışdır 00:00